I Cild

Şeirlər

✡

II Cild

Poemalar

✡

III Cild

Pyeslər

✡

IV Cild

Nəsr

✡

V Cild

Elmi, ədəbi-tənqidi əsərlər

VI Cild

Publisist əsərlər

VII Cild

Məktublar, tərcümələr, aforizmlər

“Prometey”in kitabxanası

NƏRİMAN HƏSƏNZADƏ

Seçilmiş əsərləri

7 cilddə

3-cü cild

Pyeslər

Bakı — 2011

"Prometey"in kitabxanası

N.Həsənzadə. Seçilmiş əsərləri. 7 cilddə. 3-cü cild (Pyeslər).

Tərtibçi: **Nazim Həsənzadə,**
filologiya elmləri üzrə
fəlsəfə doktoru

Ön sözün müəllifi: **İsa Həbibbəyli,**
akademik

Redaktor: **Güldanə Əmrullahqızı,**
filologiya elmləri üzrə
fəlsəfə doktoru, dosent

Nəriman Həsənzadənin yaradıcılığında dramaturgiya mühüm yer tutur. Onun "Bütün Şərq bilsin", "Atabəylər", "Pompeyin Qafqaza yürüşü", "Midiya sarayı" mənzum pyesləri, "Nabat xalanın çörəyi" (səhnələşdirəni Mingəçevir Dram Teatrının baş rejissoru Zülfüqar Abbasov), "Kimin sualı var?" (televiziya tamaşası – rejissoru Lütfi Məmmədbəyov) əsərləri respublikamızın müxtəlif teatrlarında müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur. "Bütün Şərq bilsin" əsəri Mayakovski adına Moskva Dövlət Akademik Teatrında uğurla göstərilmiş, mükafata layiq görülmüşdür...

N.Həsənzadənin "Seçilmiş əsərləri"nin yeddicildliyinin 3-cü cildinə "Atabəylər", "Pompeyin Qafqaza yürüşü", "Midiya sarayı" mənzum pyesləri daxil edilmişdir.

© "Prometey" — 2011

N.Həsənzadə. *"Bütün Şərq bilsin".*
Azərbaycan Akademik Milli Teatrı. 1982

Hörmətli Nəriman Həsənzadə!

Sizi – xalqımızın tanınmış şairini 70 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

...Siz zəngin ənənələrə malik olan müasir Azərbaycan poeziyasının görkəmli nümayəndələrindənsiniz.

...Xalqımızın keçmişini canlandıran mənzum səhnə əsərləriniz öz bədii məziyyətləri, məzmun dolğunluğu və mövzu aktuallığı ilə teatrlarımızın repertuarlarında layiqli yer tutmuşdur...

N.Həsənzadənin "Şöhrət" ordeni ilə
təltif olunması münasibətilə
Azərbaycan Respublikasının Prezidenti
Heydər Əliyevin müəllifə ünvanladığı məktubdan

(Bakı şəhəri, 3 dekabr 2001-ci il)

...Millətin şüuru oyansın gərək,
Qorusun vətəni göz bəbəyitək.

MÜASİRLİK İŞIĞINDA BƏDİİ YANAŞMA

Xalq şairi Nəriman Həsənzadənin lirikasında dramatizm elementlərini asanlıqla görmək mümkün deyildir. Müasir Azərbaycan ədəbiyyatında saf, xalis lirikanın yaradıcıları sırasında Nəriman Həsənzadənin xüsusi yeri vardır. Şeirləri təpədən dırnağa qədər lirizm hadisəsidir. Hətta Nəriman Həsənzadənin danışıq tərzində də lirik bir həzinlik qabarıq müşahidə olunur. Poeziyamızın son dövründə Nəriman Həsənzadə qədər fərqli şairanə tələffüzə malik sənətkar göstərmək çətindir. Danışıq tərzindəki həzinlik, axıcılıq, kövrəklik şairin lirikasının da əsas xüsusiyyətlərini təşkil edir. Yaxud da Nəriman Həsənzadənin həyata və insanlara münasibətinin ifadə tərzi sanki lirikasındakı əsas notlar üstündə köklənmişdir. Nəriman Həsənzadənin tərcümeyi-halında da mərdanə və şairanə bir kövrəklik və müdriklik yaşayır. Bu mənada Nəriman Həsənzadənin lirikası ilə xarakteri, sənəti və ömür yolu bir-birini üzvi surətdə tamamlayır. Nəriman Həsənzadə çağdaş Azərbaycan ədəbiyyatında varlığı bütünlüklə şeirdən yoğrulmuş nadir şairlərindəndir. Şeirləri də Nəriman Həsənzadənin özü ilə birlikdədir. O, yalnız qələmə aldığı şeirlərin müəllifi olaraq bitmir, bütövlükdə tərcümeyi-halı və mənəviyyatı ilə sanki yazılmış və hələ yazılacaq tam külliyyatının daşıyıcısıdır. Xalq şairi Nəriman Həsənzadə sənəti ilə bütövləşmişdir:

Mənim də həyatım sözdü, şeirdi,
Bir isti nəfəsəm, bir səsəm belə.
İnsana diləyim ancaq xeyirdi,
Şər gəlməz əlimdən istəsəm belə.

Nəriman Həsənzadənin şeirlərində müəyyən epik cizgilər müşahidə edilməkdədir. Əvvəla, şairin təhkiyəsində epik üsulun əlamətləri vardır: "Mən səni sevəndə yaz havasıydı"; "Evimdə pianino çalınmır nə zamandı"; "Şəhərdən ayrılıb mən bağa gəldim"; "Sən baxdın həsrətlə, həsədlə mənə" və sair. Lakin Nəriman Həsənzadə ifadə etdiyi epik anı dərhal poetik cəhətdən mənalandırmaqla lirikanın içində əridir. Buna görə də epik əlamət təsvirçiliyə aparmayıb, lirikanı zənginləşdirən keyfiyyətə çevrilir. Hətta şairin bəzi şeirləri müəyyən həyat hadisəsinin, müşahidə olunmuş konkret bir vəziyyətin lirik baxımdan mənalandırılmış epik lövhəsi təsiri bağışlayır. Amma şairin təqdimatında həmin epik lövhə insanı heyran edəcək, həyacanlandıracaq və düşündürəcək qədər lirik bir obraz səviyyəsinə yüksəlir. "Arabaçı", "Ayaqqabılar", "Süpürgəçi" şeirləri epik səciyyəli müşahidənin poetik baxımdan orijinal mənalandırılmasından yoğrulmuşdur. Buna görədir ki, epik tərzdə ifadə olunan "Ayaqqabılar" şeiri lirik-fəlsəfi poetik nümunə səviyyəsində ümumiləşir:

Qapımızın ağzında,
Əvvəl ancaq ikiydi.
Onlar da mənimkiydi.
Dörd oldu sonra bir gün.
Üç il keçdi sərasər
Gah axşam, gah da səhər
Hey açılıb örtüldü
Bizim doğma qapılar.
Bir gün də altı oldu
Həmin ayaqqabılar.
İkisi bər-bəzəkli,
Dördü bəzəksiz oldu.
Artdı ayaqqabılar
Sonra da səkkiz oldu.
Keçir günlər, həftələr,
Yaş üstünə gəlir yaş.
Kiçik ayaqqabılar
Böyüyür yavaş-yavaş.

Fikrimcə, Nəriman Həsənzadənin yaradıcılığında dramaturgiyaya gələn yol lirikasındakı epik əlamətlərdən başlanır. Kiçik həcmə malik olmasına baxmayaraq, "Ayaqqabılar" şeiri bir ailənin dramı təsiri bağışlayır. Bu, Nəriman Həsənzadənin şeir yaradıcılığındakı dramatizmin, hərəkətin poetik cəhətdən mənalandırılmış, obraza çevrilmiş "ayaqqabılarıdır". Doğrudur, bu qəbildən olan şeirlərində dramaturgiya üçün zəruri olan konflikt görünmür. Lakin bir ailənin tərcümeyihalında bəzəkli kiçik ayaqqabılardan böyük ayaqqabılara qədər keçilən yolun poeziyasını təqdim edən şairin çox asanlıqla həmin prosesdəki çətin, gərgin məqamları da göstərmək imkanlarını təsəvvür etmək olar. Bu mənada epik mahiyyətli poetik nümunələr Nəriman Həsənzadənin lirikadan dramaturgiyaya keçidinin başlanğıcıdır. Bu qəbildən olan şeirlər Nəriman Həsənzadənin lirikasındakı dramatizmin tumurcuqlarıdır. Ümumiyyətlə, şair Nəriman Həsənzadə dramaturgiyaya epik düşüncədən keçərək gəlmişdir. Epik-dramatik poemaları lirikasındakı dramatik məşqlərin qanunauyğun məntiqi davamı kimi meydana çıxmışdır. Nəriman Həsənzadə Azərbaycan ədəbiyyatında "epik-dramatik" formatda poemanın əsas yaradıcılarından biridir. "Nəriman" (1968), "Zümrüd quşu" (1976), "Kimin sualı var" (1984) epik-dramatik poemaları "Arabaçı" və "Ayaqqabılar" şeirlərindən süzülüb gələn epik-dramatik əlamətlərin qanunauyğun məntiqi yekunudur. Bu poemalar ümumilikdə Azərbaycan ədəbiyyatında epik-dramatik poema janrının uğurlu nümunələridir. "Epik-dramatik" janrda yazıldığı bəyan edilsə də, həqiqətən də epik və dramatik xüsusiyyətlər üstünlük qazansa da, bu əsərlərdə lirikanın da kifayət qədər payı vardır. Epik-dramatik poemalarındakı bəzi parçalar ayrıca müstəqil bir şeir kimi səslənir. "Nəriman" poemasında görkəmli dövlət xadimi Nəriman Nərimanovun məşhur Genuya konfransında çıxışı ərəfəsindəki düşüncələrinin ifadəsi olan aşağıdakı parça ictimai lirikanın qiymətli nümunəsi sayıla bilər:

Alındı, satıldı bəlkə yüz kərə,
Bakının varını dünya bölüşdü.
İşıqlı gecələr yad şəhərlərə
Qaranlıq döngələr Bakıya düşdü.

Boğuldu məmləkət alovda, qanda
Yadlar elə bildi öz evindədir.
Babəkin məzarı Azəristanda
Qılıncı Drezden muzeyindədir.

Əzilən bir elin, ya yurdun bilin,
Nəğməsi çox qəlbə, ürəyə yatdı.
Adı çəkiləndə Şərqdə Vazehin,
Qərbdə Bodenştet şöhrətə çatdı.

Susdu ozanların telli sazları
Od oldu kəndinin alın tərində.
Babam Nizaminin əlyazmaları
Çürüyür Londonun muzeylərində.

...Solmadı eşqimiz, məhəbbətimiz,
Sevdiksə o qəlbi oxşaya bildik.
Ölkədən ölkəyə daşındıqca biz,
Əsrdən-əsrə yaşaya bildik.

Əslində mükəmməl ictimai lirika nümunəsi olan parçada daxili bir gənclik, vətəndaş narahatlığı, dramatizm mövcuddur. Bütün bunlara görə epik səciyyəli, ictimai məzmunlu lirik şeirdən epik-dramatik poemaya keçid Nəriman Həsənzadənin yaradıcılığında dramaturgiyanın yetkinləşməsi mərhələsi hesab oluna bilər. Hətta müşahidələr göstərir ki, "Nəriman" və "Zümrüd quşu" poemalarında dramatik xüsusiyyətlər epik xüsusiyyətləri üstələmişdir. Bu poemalarda dialoq və monoloq epik təsvirlərdən qat-qat çoxdur. Həm də epiklik zatən poemaya xas keyfiyyətdir. Liro-epik, epik-dramatik poemaların olmasına baxmayaraq, ümumiyyətlə poema bir janr kimi əsasən epik növə daxildir. Nəriman Həsənzadənin "Nəriman" və "Zümrüd quşu" poemalarında epik məqamlar olsa da, bu əsərlər əsasən dramatik poemalardır. Əgər bu poemalardakı bəzi lirik ricətlər, haşiyələr, əlaqələndiricilik funksiyasını yerinə yetirən epik təsvirlər olmasaydı, həmin əsərləri

dram növünə aid nümunələr də hesab etmək mümkün olardı. Azərbaycan ədəbiyyatında dramatik poemalar o qədər də çox deyildir. Hüseyn Cavidin "Azər"i və Səməd Vurğunun "Komsomol poeması", "Hürmüz və Əhriman" və "Aygün" poemaları dramatik poema janrının ən kamil nümunələridir. Nəriman Həsənzadənin "Nəriman" və "Zümrüd quşu" poemaları ən yeni dövr Azərbaycan ədəbiyyatında dramatik poema janrının mükəmməl hadisəsidir. Bu əsərlər, eyni zamanda, Nəriman Həsənzadə üçün həm də dramaturgiyanın ərəfəsi və astanasıdır. Şairin "Nəriman" epik-dramatik poemasının dram formatında hazırlanıb Azərbaycan teatrlarında uğurla tamaşaya qoyulması üçün əsər üzərində ciddi, əsaslı bir dəyişiklik etməyə ehtiyac qalmamışdı. "Bütün Şərq bilsin" tamaşası sadəcə olaraq "Nəriman" dramatik poemasının səhnənin şərtlərinə və imkanlarına uyğunlaşdırılmış variantıdır. Bu tamaşa ilk növbədə Azərbaycan xalqının böyük oğlu Nəriman Nərimanovun tale dramıdır. Bundun başqa, "Bütün Şərq bilsin" tamaşası hələ XX əsrin səksəninci illərində dövlət müstəqilliyi ideyasını və milli mənafeyi özünəməxsus şəkildə səhnədən səsləndirən əsər kimi də mühüm əhəmiyyətə malikdir. Fikrimizcə, "Bütün Şərq bilsin" tamaşasının uğurlu səhnə təcəssümü Nəriman Həsənzadənin dramaturq kimi də özünəinamının ifadəsidir. Məhz bu tamaşadan sonra ədəbi ictimaiyyət və oxucular görkəmli şair Nəriman Həsənzadəni həm də istedadlı dramaturq kimi qəbul etmişdir.

Nəriman Həsənzadə "Atabəylər" (1984), "Pompeyin Qafqaza yürüşü" (1997), "Midiya sarayı" dram əsərlərini tarixi mövzuda yazmışdır. Azərbaycanda özünəməxsus inkişaf yoluna malik olan tarixi dram ənənəsi Nəriman Həsənzadənin tarixi dramları ilə daha da zənginləşmişdir. Bu əsərlər mənzum tarixi dramlar kimi də ciddi əhəmiyyətə malikdirlər. Ədəbiyyatımızda mənzum tarixi dramların (mənzum tarixi faciə də daxil olmaqla) ən yüksək zirvəsini Azərbaycan romantizminin banilərindən olan Hüseyn Cavid və xalq şairi Səməd Vurğun fəth etmişlər. Təəssüf ki, Səməd Vurğunun "Vaqif" mənzum tarixi dramının yarandığı vaxtdan (1938) keçən təxminən qırx ildən artıq zaman ərzində bu janrda ədəbi-mədəni mühitin fövqünə qalxa bilən sanballı bir əsər meydana

çıxmamışdır. Xalq şairi Nəriman Həsənzadənin "Atabəylər" mənzum tarixi dramı (1984) ilə mövcud boşluq aradan qalxmışdır. "Atabəylər" Azərbaycan ədəbiyyatında mənzum dramaturgiyanın da, tarixi dramların da inkişafında mühüm sənət hadisəsi sayılmağa layiqdir. XX əsrin səksəninci illərində yazılmasına baxmayaraq, bu əsərdə ideoloji təmayüllər deyil, dövlətçilik maraqlarının və milli mənafelərin əks etdirilməsi əsas kimi qəbul edilməsi zamanına görə müəllifin vətəndaşlıq cəsarətinin və uzaqgörənliyinin ifadəsi idi. "Atabəylər" geniş mənada Azərbaycan milli dövlətçilik ideyasının dramıdır. Nəriman Həsənzadə hələ müstəqillikdən qabaq yazdığı bu əsərlə Atabəylər dövlətinin simasında Azərbaycanda müstəqil dövlət qurub yaratmağın mümkünlüyünü diqqət mərkəzinə çəkmişdir. Bakıda Akademik Milli Dram Teatrında və Naxçıvan Dövlət Musiqili Dram Teatrında böyük uğurla tamaşaya qoyulan, qastrol səfərləri vasitəsilə ölkəmizin demək olar ki, əksər regionlarında müvəffəqiyyətlə nümayiş etdirilən "Atabəylər" mənzum tarixi dramı xalqımızın milli dövlətçilik düşüncəsinin formalaşmasına ciddi təsir göstərən əhəmiyyətli əsərdir. Əsərdəki Atabəy Qızıl Arslan Azərbaycan dövlətçiliyinin əzəməti ilə yanaşı, daxili ziddiyyətlərini, saray mühitinin faciəvi məqamlarını da açmağa imkan verən möhtəşəm obrazdır. Müəllif Qızıl Arslanın ətrafında cərəyan edən hadisələri, tarixi prosesləri dərindən öyrənmiş və bədii ədəbiyyatın, dram sənətinin yüksək imkanları səviyyəsində təqdim edə bilmişdir. Bu mənzum tarixi dram Azərbaycan tarix elminin Atabəylərini təkrar etmədən, amma tarixdən qidalanaraq milli ədəbiyyatımızın Atabəylərini yaratmaq sahəsində əldə edilmiş böyük və yekun nəticədir. Əsərdə Azərbaycanın "qızıl dövrü" kimi qiymət verilən Atabəylər dövlətinin yüksək səviyyəsi, həm də Qızıl Arslan kimi müdrik, vətənpərvər, ölkə mənafeyini hər şeydən üstün tutan hökmdarların bütöv və parlaq siması ilə müəyyən olunur. Aşağıdakı parça geniş və böyük mənada Azərbaycan hökmdarları obrazı haqqında ümumiləşmiş siyasi düşüncəni meydana qoyur:

Danışıq aparın qonşularla siz,
Gərək tapdanmasın heysiyyətimiz.

Hörmət, mədəniyyət xətrinə gərək,
Kiməsə baş əyib, təzim etməyək.
Yaşayır dünyada xeyir də, şər də,
Hikmətlə uyuşmur heç vaxt ədavət.
Tarixə hörmət var həyatda, bir də
Hörmətə tarixi bir münasibət.
Amma qonşularla gərək dil tapaq.
Nifaq yox, ittifaq, hər şeydən qabaq.

Nəriman Həsənzadə Atabəylər dövlətinin qüdrətini həm də sənətkar Əcəmi dühasının vüsəti ilə təqdim edir. "Atabəylər" dramında tarixilik Qızıl Arslanla yanaşı, Əcəmi ilə bağlı hadisələrlə də canlandırılır. Böyük memarın Atabəy hökmdarı Şəmsəddin Eldənizin xanımı Möminəxatunun şərəfinə ucaltdığı möhtəşəm məqbərə dövrün əhəmiyyətli mədəniyyət hadisəsi səviyyəsində təqdim olunur. Bununla, belə, türk-müsəlman dünyasında qadına ucaldılmış bu birinci nəhəng abidənin müəllifi Əcəmi Naxçıvani əsərdə həm də mütəfəkkir şəxsiyyət kimi nəzərə çarpdırılır. Nəriman Həsənzadənin təqdimatında "şeirdə, sənətdə duyduğu ovsunu hördüyü daşlarda" ifadə etmək istedadına malik olan, kaşı naxışlarla yazdığı kərpic hərfləri "divara hörülmüş sədaqəti" kimi qəbul edən Əcəmi milli təfəkkürə malik, geniş dünyagörüşlü sənət və fikir bahadırıdır. Böyük sənət ustadının dilindən səsləndirilən aşağıdakı misralar Əcəmi fenomeninin fəlsəfəsini dolğun şəkildə ifadə edir:

Doğma ananı da duymaq üçün sən,
Gərək süd əməsən onun döşündən.
Ana laylasına yatasan gərək,
Ata nəfəsinə oyandığın tək.
Dilimiz yaranır süddən, sümükdən,
Bunsuz öz-özünə möhtacdır Vətən.

Azərbaycan elmi-ədəbi fikrində ilk dəfə olaraq XII əsrin iki qüdrətli sənətkarı – Nizami Gəncəvi və memar Əcəminin Naxçıvanda görüşməsi hadisəsi "Atabəylər" dramında təsvir edilmişdir.

Müəyyən dərəcədə yazıldığı illərin romantik pafos meylini ifadə etsə də Nəriman Həsənzadə "dövrün məşəli" kimi mənalandırdığı sənət nəhənglərinin layiqli ədəbi-tarixi qiymətini oxucuya-tamaşaçıya çatdıra bilmişdir:

Əcəmi, ... Nizami, ... Dövrün məşəli!
Sən quran əlisən, o yazan əli.
Bu iki sənətkar burda doğuldu,
Daşımız, sözümüz qiymətli oldu.

Nəriman Həsənzadənin şair fəhmi ilə hiss edərək səhnədə canlandırdığı Nizami-Əcəmi görüşünün tarixi həqiqət olduğunu bir qədər sonra Azərbaycan elmi fikri ciddi axtarışlar sayəsində təsdiq etdi. Görkəmli şərqşünas professor Rüstəm Əliyevin Nizami Gəncəvinin Naxçıvana səfəri haqqındakı elmi açıqlamaları bədii təxəyyüldə ehtimal olunan görüşün tarixi gerçəklik olduğunu yəqinləşdirdi. Bu fakt Nəriman Həsənzadənin tarixə bədii yanaşmasının elmi məntiqə əsaslandığını nümayiş etdirir.

Əsərdə vahid dövlət içərisində dramatik konflikt saraydaxili qütbləşmə və çəkişmələr əsasında qurulmuşdur. Qızıl Arslan, Nizami, Əcəmi, Cahan Pəhləvanın oğlu Əbubəkr, Bağban, Ozan Azərbaycan dövlətçiliyinin bütövlüyünü təmsil edən ümummilli idealı bütün enerjisi ilə ifadə edirlər. Cahan Pəhləvanın arvadı, saray çəkişmələrini ölkə miqyasında ziddiyyətlər və fəlakətlər səviyyəsinə çatdıran İnanc xatun Azərbaycan dramaturgiyasında yaradılmış mürəkkəb qadın obrazıdır. "Bəzəkli ilana" bənzədilən bu fəndgir qadının dərinliklərini incəliklərinə qədər açması Nəriman Həsənzadənin özünəməxsus dramatik xarakterlər yaratmaq ustalığının göstəricisi sayıla bilər. Oğlu Mahmud, Cahan Pəhləvanın əmirləri Ayəba, Ruz, Qızıl Arslanın ögey qardaşı, səlcuqların sonuncu nümayəndəsi Toğrul bəy və başqaları milli dövlətçilik ideallarının deyil, hakimiyyət hərisliyinin, şəxsi maraqların, mənsəbpərəstliyin daşıyıcıları kimi təqdim olunurlar. Bədii təxəyyülün məhsulu olan Gülaçar obrazı ilə müəllif gərgin və mü-

rəkkəb saray mühiti əhatəsində yüksək mənəviyyatı yaşatmağın mümkünlüyünü, yaxud zəruriliyini göstərmək niyyətini meydana qoymuşdur. Nəticə etibarilə Nəriman Həsənzadə eyni qütbü təmsil edən bu obrazların fərqli mövqelərini, fərdi cizgilərini bacarıqla rəsm etmişdir. Nəticədə "Atabəylər" mənzum tarixi dramı həm də xarakterlər dramı kimi yadda qalır.

Şeirdə əsasən kövrək, həzin, incə, lirik duyğuları tərənnüm edən Nəriman Həsənzadə dramaturgiyada sərt, mürəkkəb, ciddi mətləbləri və xarakterləri ifadə edərək həyatın, ictimai-siyasi mühitin görünən və görünməyən qatlarını açan sənətkar kimi diqqəti cəlb edir. Doğrudur, belə məqamlarda şairin vətəndaşlıq lirikasındakı ciddi fikir və ideyalarla səsləşən tezislərin, cizgilərin dram əsərlərində daha da inkişaf etdirilməsini, şeirdən drama qədərki təkamül proseslərini izləmək mümkündür. Bununla belə, Nəriman Həsənzadənin dramaturgiyasında, xüsusən, "Bütün Şərq bilsin" və "Atabəylər" dramlarında əksini tapan vətəndaşlıq motivləri şeirlərindəki oxşar məqamlarla müqayisədə necə deyərlər, bir neçə oktava yuxarıdır. Təzadlı hadisələrdən, saray intriqalarından, "İsfahan qütbü" və Atabəylər xanədanı çəkişmələrindən yaranan faciələr yekun qənaətlər kimi müəllifə "Vətəni birliyə çağırmaq", ölkə üçün qılıncın və sənətin birliyinin hikmətini açmaq, milli şüurun oyanışının zəruriliyini diqtə etmək mənasında tutarlı vasitəyə çevrilmişdir. Təxminən otuz il əvvəl, fərqli ictimai quruluş zamanı yazılmış və "Atabəylər" tamaşasının yekun müddəası kimi düşünülmüş aşağıdakı misralar indiki dövrümüz üçün də (sabah üçün də) aktualdır:

Millətin şüuru oyansın gərək,
Qorusun vətəni göz bəbəyi tək.

"Atabəylər" mənzum tarixi dramı cəmiyyətin əsas təbəqələrini əhatə edən milli birlik ideyasının uğurlu tamaşasıdır. Bu əsər Azərbaycan ədəbiyyatının və milli teatrın böyük nailiyyətidir.

Nəriman Həsənzadənin "Pompeyin Qafqaza yürüşü" mənzum dramı (1997) da tarixə müasirlik işığında bədii yanaşma əsasında meydana çıxmışdır. Əsərdə bizim eradan əvvəlki birinci əsrdə Roma sərkərdəsi Pompeyin Qafqaza yürüşü əsasında Qafqazda, o cümlədən Azərbaycan Albaniyasında gedən ictimai-tarixi proseslər öz əksini tapmışdır. Ümimuyyətlə, Nəriman Həsənzadə mövzu etibarilə Azərbaycan poeziyasının və dramaturgiyasının üfüqlərini geniş mənada Qafqaza qədər yüksəltmişdir. Şair "Zümrüd quşu" poemasında görkəmli rus şairi Aleksandr Puşkinin Qafqaz-Ərzurum səfərinin fonunda Qafqazın azadlıq ruhunu böyük ilhamla təsvir etmişdir. O, 1995-ci ildə yazdığı "Qafqaz" adlı lirik poeması ilə Azərbaycan poeziyasının bənzərsiz Qafqaznaməsini yaratmışdır. Haqqında çox yazılmasına baxmayaraq, Nəriman Həsənzadənin "Qafqaz" poeması Qafqazın yeni və təkrarsız bədii obrazı kimi yadda qalır:

Qafqaz mənim əcdadımın vətənidi,
Əzabımın, fəryadımın vətənidi,
Ölənimin, itənimin vətənidi.
Qafqaz mənim vətənimin vətənidi.
Tarixini xışla yazdı torpaq üstə,
Ağ çalmalı bir əsgərdi ulu Qafqaz,
Dayanıbdı ayaq üstə.
Sancılıbdı bayraq kimi
Dağ-dağ üstə.
...İskəndərdən üzü bəri,
Pompeylərin, sezarların ayağının izi bəri.
Neçə dilin bir əzbəri.
...Qafqaz boyda daşıdılar Qafqaz, səni,
Xəzər səni, Kürüm səni, Araz səni.
Sonra sərhəd, sonra sərhəd dirəkləri.
Bu da Qafqaz hakiminin
Qafqazdakı şah əsəri!

"Qafqaz" poeması "Pompeyin Qafqaza yürüşü" mənzum tarixi dramının proloqu təsiri bağışlayır. Nəriman Nəsənzadənin şeirində də, dramaturgiyasında da Qafqazın mənəvi zənginliyi və ucalığı yaşayır. "Pompeyin Qafqaza yürüşü" əsəri həmin mənəvi zənginliyin və ucalığın dramatik cəhətdən bədii təsdiqindən ibarətdir. Əsərdə əsas hadisələr canlandırılmazdan əvvəl Qafqaza ümumi poetik nəzər salınır, buranın əzəməti və mahiyyəti diqqət mərkəzinə çəkilir:

Qaf dağı... Esxilin yazdığı əsər,
Burda Prometeyi zəncirləyiblər.
Mələklər, iblislər burda görünür,
Burda qar ərimir, qara qurd düşür.
Deyirlər qədimdən burda yer yanır,
Torpaq buxarlanır, su alovlanır.

Ölkəsindən qaçaraq Kolxida knyazlığında sığınacaq tapmış hökmdar Murdatı ələ keçirmək üçün Roma sərkərdəsi Pompeyin Azərbaycan Albaniyası ərazisindən keçərək hərbi yürüş etmək niyyətinin axarında yadelli işğalçı və vətənpərvər xalq motivi əsərin ana xəttini təşkil edir. Alban çarı Uruzun müdrikliyi hökmdar və xalq probleminin səhnə təcəssümü üçün geniş meydan açmışdır. Nəriman Həsənzadə Çar Uruzun simasında utopik ideal hökmdarı deyil, real, gerçək, xalqa və torpağa bağlı vətənsevər ölkə başçısı obrazını yaratmışdır. "Qafqazın qartalı" adlandırılan İberiya knyazı Çar Artakla Alban hökmdarının möhkəm və etibarlı ittifaqının Azərbaycan və Gürcüstan xalqlarının birliyi və müttəfiqliyinin möhkəm bünövrəsini təşkil etməsi ideyası Nəriman Həsənzadənin ümumi Qafqaz evi baxışlarının əsasında dayanır. Hələ eradan əvvəl Ermənistan çarı ikinci Tiqranın Qafqazın birliyi düşüncəsindən çox uzaq olub, saxta "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək yolunda ikiüzlü və məkrli siyasət yerit-

məsinin ön mövqeyə çəkilməsi erməni xislətinin tarixi genezisini aydın təsəvvür etməyə şərait yaradır. Oğul şahzadə Tiqranın hakimiyyətə yiyələnmək baxımından öz atasına xəyanətkar mövqedə dayanması ilə bağlı məqamların səhnəyə çıxarılması uydurma "Böyük Ermənistan" ideyasının da mahiyyətində hakimiyyət maraqlarının üstünlük təşkil etdiyini tamaşaçıya çatdırmaq üçün tarixdən alınaraq ədəbiyyata gətirilmiş real hadisələrdir.

"Pompeyin Qafqaza yürüşü" tarixi dramındakı Məlikə Aydan ana obrazı müdrik, mütəfəkkir Azərbaycan qadınlarının mənəvi simasını dolğun şəkildə ümumiləşdirir. Alban çarının anası olan Məlikə Aydan geniş mənada dövlət başçısı səviyyəsində düşünməyi bacaran, ölkə üçün ağıllı və qəhrəman hökmdarlar tərbiyə edib yetişdirə bilən vətənpərvər Ana kimi mənsub olduğu xalqın da ucalığını və uzaqgörənliyini ifadə edir:

İçindən yeməsə qurd bir ağacı,
Min il ömr eləyər dəmir ağacı.
Keçib ehtiyatla dağdan, qayadan,
Düz yola çıxanda yıxılır insan.
...Bədən yarasının bir qəmi yoxdu,
Vətən yaralansa, məlhəmi yoxdu.

"Atabəylər" dramındakı mürəkkəb, məkrli İnanc xatun obrazı və "Pompeyin Qafqaza yürüşü" əsərindəki ağıllı, müdrik Məlikə Aydan surəti Nəriman Həsənzadənin Azərbaycan ədəbiyyatına gətirdiyi hərtərəfli şəkildə işlənmiş, bütün qütbləri ilə təqdim edilmiş orijinal qadın obrazlarıdır. Eyni zamanda, "Atabəylər"dəki Gülaçar və "Pompeyin Qafqaza yürüşü"ndəki İlkcan dramatik obrazlar olmaqla yanaşı, taleyi və xarakteri etibarilə lirizmi ilə yadda qalan qadın obrazları kimi də diqqəti cəlb edirlər.

Bütövlükdə "Pompeyin Qafqaza yürüşü" mənzum tarixi dramı Şərq müdrikliyinin işığında xeyirin qələbə çalacağına inam hissi ilə

tamamlanır. Həmçinin Nəriman Həsənzadə əsər boyu işğalçılığın, namərdliyin heç vaxt qələbə çala bilməyəcəyini də bədii cəhətdən əsaslandırır. Müəllif Qafqazın mənəvi zənginliyini və ucalığının Qərbin qılıncından daha kəskin və uzunömürlü olduğunu da göstərə bilir.

Nəriman Həsənzadənin "Midiya sarayı" dramı geniş yayılmış Astiaq əsatirinin dram formasına salınmış, səhnələşdirilmiş şəklidir. Əsərdə hakimiyyət çəkişmələri, xəyanətin acı aqibəti, mənəvi iflasa məhkumluğu ideyası təlqin olunur. Saray həyatından bəhs etməsi, qarşı tərəflərin gərgin dramatik çəkişmələrinin göstərilməsi, şər notlarının qabarıqlığı "Midiya sarayı" əsərinin Nəriman Həsənzadəni digər dramlarına yaxınlaşdırır. Lakin yaxın, oxşar mövzuda qələmə alınmasına baxmayaraq, Nəriman Həsənzadə məsələyə fərqli bucaqdan baxmağı bacarmışdır. Bu əsərdə xəyanət kimi təqdim olunan hədisənin mahiyyətində əslində saraylarda anlaşılması çətin olan insani bir münasibət də vardır... Bununla belə, fikrimizcə, "Midiya sarayı" əsəri natamamdır, bitməmişdir.

Göründüyü kimi, xalq şairi Nəriman Həsənzadə Azərbaycan dramaturgiyasını tarixi mövzular və müasirlik ideyası ilə zənginləşdirmişdir. XX əsrin axırlarında Azərbaycan ədəbiyyatında mənzum dramaturgiya ənənəsinin yaşadılması və inkişaf etdirilməsi Nəriman Həsənzadənin mühüm ədəbi xidmətidir. Onun dramatik xüsusiyyətləri ilə seçilən mənzum dramları şeiriyyət baxımından da kamil əsərlərdir. Bu əsərlərdə mənzum dram olmaq naminə şeirin formal tələblərinə əməl etmək meyli görünmür. Əksinə, Nəriman Həsənzadənin mənzum dramları Azərbaycan poeziyasının da nailiyyəti sayıla bilər. Bu əsərlər mənzum dram janrının yüksək tələblərinə tam cavab verir.

Tarixi mövzuları əhatə etməsi Nəriman Həsənzadənin mənzum dramlarının özünəməxsusluğunu, fərqli səciyyəvi xüsusiyyətlərini müəyyən edir. Dramlarından görünür ki, Nəriman Həsənzadə tarixi mövzuda əsərlər yazmaq üçün doktorluq dissertasiyası, yaxud

ciddi bir monoqrafiya hazırlayan tədqiqatçılar qədər, hətta bəlkə bir qədər də artıq mənbələrlə tanış olmuş, araşdırmalar aparmışdır. Lakin o, tarixi proseslərə və şəxsiyyətlərə münasibətdə baş vermiş hadisələri vəznə və qafiyəyə salmaqla işi bitmiş hesab etməmişdir. Bu əsərlərdə tarixin axarını qorumaq şərti ilə bədii təxəyyülün geniş imkanları aydın şəkildə diqqəti cəlb edir. Tarixilik və elmilik bədii məqsədin, sənətkar ideyasının ərsəyə gətirilməsi və inkişaf etdirilməsi üçün istinad edilən mənbə funksiyasını həyata keçirir. Tarixə bədii yanaşma hətta seçilmiş mövzuya bəlli bir səviyyədə bələd olan oxucunun və ya tamaşaçının da həmin dövrün hadisələrinə və şəxsiyyətlərinə dair təsəvvürlərini dərinləşdirməyə, genişləndirməyə xidmət edə bilir. Bundan başqa, tarixi mövzuya bədii yanaşma xalq şairi Nəriman Həsənzadə üçün sadəcə və qətiyyən ədəbi yaradıcılığın qayda-qanunları çərçivəsində olub keçənləri yada salmaq, bərpa etmək, çatdırmaq mənalarını daşımaqla bitmir. Bədii yanaşma geniş mənada Nəriman Həsənzadənin tarixlə müasir dövr arasında körpü yaratmaq, müasirlərinə yeni və ibrətamiz söz demək məqsədinin həllinə meydan açır. Və xalq şairi Nəriman Həsənzadə tarixdən bu günə çatdırılması zəruri və əhəmiyyətli olan sözü ən yüksək bədii səviyyədə və müasirlik işığında ifadə etməyin böyük ustadıdır.

İSA HƏBİBBƏYLİ,
Naxçıvan Dövlət Universitetinin rektoru, akademik

BÜTÜN SƏRQ BİLSİN

...Neft mənim ölkəmə fəlakət oldu,
nə xeyir, nə də ki, bərəkət oldu.
Gəlmələr apardı, kimsəsiz olduq,
yandıran özgələr, yanan biz olduq...

"Nəriman" poemasından. 1960

Азәрбајҹан ССР Мәдәнијјәт Назирлији

ЊҮСЕЈН ӘРӘБЛИНСКИ АДЫНА СУМГАЈЫТ ДӨВЛӘТ ДРАМ ТЕАТРЫ

Нәриман ЊӘСӘНЗАДӘ

(Азәрб. ССР әмәкдар инчәсәнәт хадими)

БҮТҮН ШӘРГ БИЛСИН

(Ики һиссәли епик—драматик поема)

Гурулушчу режиссор—**Мәраһим Фәрзәлибәјов**

Рәссам—**Мүбариз Әлијев**

Бәстәкар—**Чаваншир Гулијев**

Елми мәсләһәтчи—**Фиридун Көчәрли**
академик

ИШТИРАК ЕДИРЛӘР

Нәриман Нәриманов	— **Мәлик Дадашов** (Азәрб. ССР халг артисти)
Әзизбәјов	— **Қазым Абдуллајев**
Биринчи апарычы	— **Сәмајә Садыгова**
Икинчи апарычы	— **Мәзаһир Сүлејманов**
Үчүнчү апарычы	— **Ирадә Һәсәнова**
Дөрдүнчү апарычы	— **Сабир Гурбанов**
Шыхлински	— **Рамиз Новрузов**
Ниқар ханым	— **Һичран Меһбалыјева**
Мәһәммәд Һади	— **Валеһ Кәримов**
Нәсиб бәј	— **Рамиз Гијасов**
Зејналабдин Тағыјев	— **Огтај Мирзәјев**
Сәрраҹ	— **Елмира Һашымзадә**
Полис рәиси	— **Вагиф Әлијев**
Рәисин арвады	— **Афаг Бәшир гызы**
Чиҹәләк	— **Һәгигәт Нәбијева**
Гәләндәр	— **Тофиг Бајрамов**
Гәриб	— **Кәрај Әлибәјов**
Биринчи сәрсәри	— **Қамил Мәһәррәмов**
Икинчи сәрсәри	— **Рөвшән Алмурадов**
Үчүнчү сәрсәри	— **Әждәр Һәмидов**
Дөрдүнчү сәрсәри	— **Ханоғлан Аббасов**
Бешинчи сәрсәри	— **Заһид Гурбанов**
Сәрсәри гыз	— **Нәркиз Әһмәдова**
Жандарм	— **Шаһмар Гәрибов**
Қәллә	— **Вагиф Рәсулов**
Киши	— **Мәммәд Әләкбәров**
Гадын	— **Севда Мәммәдјарова**
Режиссор	— **Ағалар Меһдијев**
Актјор	— **Сабир Гурбанов**
Биринчи фәһлә	— **Заһид Гурбанов**
Икинчи фәһлә	— **Исмајыл Әләскәров**
Ректор	— **Һидајәт Әләкбәров**
Натиг	— **Әждәр Һәмидов**
Нәзарәтчи	— **Әшрәф Султанов**
Һәким	— **Ваһидә Садыгова**
Гары	— **Нөврәстә Һашымова**
Биринчи мүхбир	— **Күлсолмаз Гафарова**
Икинчи мүхбир	— **Ағалар Меһдијев**

Şəkildə: Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev (ortada) N.Həsənzadənin Azərbaycan Akademik Milli Dram Teatrının səhnəsində göstərilən “Bütün Şərq bilsin” pyesinin yaradıcı heyəti (Sumqayıt Dövlət Dram Teatrının truppası — red.) ilə birlikdə. Öndə sağdan: pyesin rejissoru Mərahim Fərzəlibəyli, Afaq Bəşirqızı, Xalq artisti Məlik Dadaşov (Nərimanov rolunda) və pyesin müəllifi, şair-dramaturq N.Həsənzadə (1982).

Şəkildə: "Bütün Şərq bilsin" pyesinin Moskvada, V.Mayakovski adına Akademik Dövlət Dram Teatrında tamaşasından sonra Bakı şəhər meri Əliş Ləmbəranski (sağda: Moskva mətbuatına müsahibə verir) və Azərbaycan Mədəniyyət Nazirliyinin nümayəndəsi Təbrik xanım Qasımova, teatrşünas Salman Dadaşov. Arxada sağdan: pyesin müəllifi, şair-dramaturq N.Həsənzadə (1986)



Şəkildə: Moskva tamaşaçıları. İkinci sırada əsərin müəllifi N.Həsənzadə

N.Həsənzadə. "Bütün Şərq bilsin". N.Nərimanov - Məlik Dadaşov, Qoçu - Tofiq Bayramov



N.Həsənzadə. "Bütün Şərq bilsin". Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrı.
Nəriman Nərimanov - Məlik Dadaşov, Çiyələk - Həqiqət Nəbiyeva, Qərib - Gəray Əlibəyov

Şəki Dram Teatrı. 1978-ci il. N.Həsənzadə: "İmzalar içində".*
N.Nərimanov - Respublikanın əməkdar artisti Muxtar İbadov;
Gülsüm xanım - Respublikanın əməkdar artisti Qəmər Məmmədova; Qadın - Sovqat Əhmədova.

*** "Bütün Şərq bilsin" pyesi Şəkidə bu adla qoyulmuşdur (*tərtibçi*).**

Şəkildə: N.Həsənzadə (soldan 3-cü) sənət dostları ilə (1982)

Şəkildə: "Bütün Şərq bilsin" tamaşasının sonunda (Sumqayıt) tamaşaçılar N.Həsənzadəni və Xalq artisti M.Dadaşovu alqışlayır

ATABƏYLƏR

Tarixi xronika

XII əsr

İŞTİRAK EDİRLƏR:

Atabəy Qızıl Arslan
İnanc Xatın
Nizami
Əcəmi
Toğrul bəy
Əbubəkr
Mahmud
Ayəba
Ruz
Gülaçar
Əbuşər
Yad adam

Salnaməçi, bağban, kənizlər, əsgərlər,
elçilər, ozan, rəqqasələr

Hadisələr 1186-1191-ci illərdə baş verir.

Naxçıvan. Mömünə xatın məqbərəsi.

S a l n a m ə ç i

Bismillahir-rəhmanir-rəhim!

Dünyanın adil hakimi, böyük müzəffər, islamın və müslümün başçısı Cahan Pəhləvan Atabəy Əbucəfər Mühəmməd ibn Atabəy Eldəniz islamın və müslümün paklığı Mömünə Xatına bir xatirə olaraq bu türbəni tikib başa çatdırmağı əmr etmişdir.

Lütfkar haqq-taalanın ona rəhmi gəlsin!

Min yüz səksən altıncı il!

(Türbənin qapıları açılır, əsərin bir neçə personajı çıxır və Salnaməçi onları bir-bir təqdim edir).

1-ci personaj: Arranın və Azərbaycanın hakimi Atabəy Qızıl Arslandı.

2-ci personaj: Cahan Pəhləvanın azərbaycanlı qadınından olan oğlu Əbubəkrdi.

3-cü personaj: Cahan Pəhləvanın fars qadını İnanc Xatından olan oğlu Mahmuddu.

4-cü personaj: Qızıl Arslanın ana qardaşı Toğrul bəydi. Səlcuqların sonuncu nümayəndəsidi.

5-ci personaj: Cahan Pəhləvanın əmirləridi - Ayəba və Ruz.

6-cı personaj: Ruzun sevgilisidi - Gülaçar.

7-ci personaj: Azərbaycanın böyük şairi gəncəli Nizamidir. "Xosrov və Şirin" poemasını Cahan Pəhləvana həsr etmişdir.

N i z a m i

(Divarda yazı oxuyur)

"Biz gedirik, ancaq qalır ruzigar,
Biz ölürük, əsər qalır yadigar..."

(fikirli)

Bir el məsəli var, qədimdən qalır, -
Tikən gedəridir, tikilən qalır.
Yerə şöhrət olub yerdən ucalan,
Gedən yaradandı... qalan yaranan...

Xoşdur bu türbənin hüsnü, camalı,
Susmuş musiqidir, toxunmuş xalı.
Torpağa səcdədir, qadına hörmət
İnsanı yaradan ana təbiət
Burda sənətkara qısqana bilər,
Daşlara toxunsan... oyana bilər.

S a l n a m ə ç i

(Əcəmi daxil olur)

Azərbaycanın böyük memarı naxçıvanlı Əcəmi ibn Əbubəkrdi. Türbənin tikilməsini Atabəy Şəmsəddin Eldəniz ondan xahiş etmişdi.

N i z a m i

Ustad, çox məmnunam dəvətinizdən,
Ellər danışacaq xidmətinizdən.

Ə c ə m i

Eşq olsun mübarək qədəminizə!
Şair, gəlişiniz bayramdır bizə.

Xaqani Şirvandan gələydi gərək,
Dəvət eləmişdim... gecikdi, demək.
Deyirlər, Məkkədə ziyarətdədi,
Beyləqani ilə ibadətdədi.

(pauza)

Gəncədən birbaşa Nəxşicahana?!

N i z a m i

Birbaşa türbəyə,
Necə şahanə!
Necə müasirdi, necə qədimdi,
Bu mənim ən uzaq səyahətimdi.
Tikilən qalacaq... bu həqiqətdi.
Tikmək özü belə bir təriqətdi.
Aranda söylənir sizdəki hünər,
Salam göndəribdi bizim tərəflər.

Ə c ə m i

Aran, Gəncəbasar, şeir yuvası,
Hələ telli sazın gözəl avazı!
Orda ozanlardan dərs alıbdılar.
Atabəy yurduna səs salıbdılar.
Gəncə - anasıdır bütün Aranın,
Şairi xoşbəxtdir belə ananın.

N i z a m i

Doğru buyurdunuz, var olun, ustad,
Övlada atayıq, vətənə övlad.

Atabəy Eldəniz sağ olaydı kaş.
Sənət möcüzədir... adicə bir daş
Sonra Xatın olur, Eldəniz olur.
İnsan daşa dönür... daş əziz olur.

Ə c ə m i

Şerdə, sənətdə duyduğum ovsun,
İstədim hördüyüm daşlarda olsun.
Bu gün gəlməlidir Cahan Pəhləvan,
Deyirlər, sağalıb, yaxşıdı Xaqan.
Bu gün türbəmizin açılışıdır,
Onun sağlığına dövran yaxşıdır.

(Məlikə İnanc əyanların müşayiətilə daxil olur)

S a l n a m ə ç i

Atabəy Cahan Pəhləvanın arvadı Məlikə İnanc xatındır.

İ n a n c X a t ı n

Şair xoş gəlibdi... Bu yerlər hara?

N i z a m i

Gəldim ki, baş əyim böyük memara.
Məni bu türbənin açılışına
Özü dəvət edib, borcluyam ona.

İ n a n c X a t ı n

Əcəmi, bu işin xeyir-mübarək!

N i z a m i

Ölkə səcdəsinə yerisin gərək.
Örpəkli gəlintək pakdır, təmizdir.

Ə c ə m i

Cahan Pəhləvana hədiyyəmizdir.
Ona duası var elin-obanın.
Səhhəti necədir böyük Xaqanın?

İ n a n c X a t ı n

Loğman söz versə də, yatır Pəhləvan,
Nə tanrı rəhm edir, nə dava-dərman.
Dünya sehrikardı...öz təcrübəm var,
Harda sevinc gördüm, orda da qəm var.

(fikirli)

Gəlin siz, Əcəmi, Nizami, siz də.
Sarayda görüşək, ailəmizdə.
Orda söhbət edək, məsləhətləşək,
Niyyətim bu idi... bu sözü demək.

N i z a m i

Bizdən salam deyin əlahəzrətə,
Deyin, duaçıyıq biz o qüvvətə,
Görmək arzusuyla çırpınır ürək.

Ə c ə m i

Deyin duaçıyıq.

İ n a n c X a t ı n

Gəlin, görüşək.

(gedir)

N i z a m i

Ağırdı Cahanın xəstələnməsi,
Yoxdur ölkəmizdə onun əvəzi.
Ustad, elimizdə bir məsəl də var,
Sərkərdə yıxılsa, ordu dağılar.
Çoxdan eşitmişdim, Cahan xəstədir.
Ürək səksəkədə, qulaq səsdədir.

Ə c ə m i

Mən də bu gəlişdən deyiləm agah,
Bizi öz evinə dəvət edir şah:
Qasid göndərsəydi, ya da bir çapar,
Bizi dərgahına çağırardılar.

N i z a m i

Məlikə qəmliydi, gördünüz, ustad,
Bir az şübhəliydi, bir az narahat.

Ə c ə m i

Gedək, əziz şair, möhtərəm qonaq,
Biz evdə görüşək, saraydan qabaq.

(Gedirlər)

I PƏRDƏ

I ŞƏKİL

Atabəylər sarayı.
Cahan Pəhləvanın şərəfinə oxunan dua eşidilir.
İnanc Xatın narahatdır.

S a l n a m ə ç i

Qüdrətli hökmdar, böyük Atabəy, Əcəm dünyasının Xaqanı, islam və müslümün başçısı Cahan Pəhləvan Eldəniz oğlu El-şah 1186-cı ilin axırlarında vəfat etmişdir.

İ n a n c X a t ı n

Atabəy dövləti, bu qədim saray,
Ondan yadigardı, haray, ay haray!
Cahana sığmadı Cahan Pəhləvan,
O tədbirli oldu öz atasından.
Səlcuqlar baş əydi hər əmrimizə,
İraq səltənəti diz çökdü bizə.

(dua davam edir)

Orda şərəfinə dua oxunur,
Burda yaram üstə bir əl toxunur.
Orda sağlığına bel bağlayıram,
Burda qəm içində yas saxlayıram.
Aparıb xəlvəti dəfn elədik biz,
Yaşadı şöhrətlə, getdi xəbərsiz.

Düz iki ay keçir ölüm günündən,
Bir allah bilir ki, nə çəkirəm mən.
Xalqa demişik ki, yatır can üstə,
Dünya qərar tutub bir yalan üstə.

(Kənizlər gəlib qulluq göstərmək istəyirlər)

Xalxallar[1] ayıldır məni, ey kəniz!
Yaddır ürəyimə bu mərəkəniz.
Sükut istəyirəm, ölü bir sükut!

(Kənizlər gedirlər)

Başımın üstündə sıxlaşır bulud,
İndi Qızıl Arslan baş sərkərdədir.
Onun fikri nədir, məramı nədir?
Sərhəng... Pəhləvanın kiçik qardaşı!
Hələ Əbubəkr... o bizə qarşı!
Dünən bir hərəmdən olan bu uşaq,
Sabah məmləkətə sahib olacaq?!
Onu Qızıl Arslan çox əzizləyir,
Amma bu düyünü İnanc izləyir.

M a h m u d

Ana, fikirlisən?

İ n a n c X a t ı n

Neyləsin anan?

---

[1] *Ayaqda zınqırov*

M a h m u d

Ana, atamızdan sən yadigarsan.
Ana...

İ n a n c X a t ı n

Sağ ol, oğlum, bu diqqət üçün,
Can dözmür bu əzab-əziyyət üçün.
Doyunca ağlamaq dərdi unudur,
Onu bacarmıram... fəlakət budur.
Bir toy paltarı var, bir yas paltarı, -
İnsanın həyatı, bir də məzarı.
Bu dünya əzəldən bir quru səsdir,
Onu dindirməsən, qaradinməzdir.

M a h m u d

Gəl, ana, qoy öpüm sənin üzündən,
Vətən anamızdır, anamız vətən.

İ n a n c X a t ı n

Yetər, arxalandın doğma vətənə,
Vətən arxalansın qoy indi sənə.
Əmin Qızıl Arslan sənə yad deyil,
Amma taleyindən narahat deyil.
Cahanın taxtında sən özün əyləş,
Qanuni oğlusan...
Mahmud, fikirləş.
Daha bu cahanın Cahanı yoxdur,
Gövhər var ölkədə, sayanı yoxdur.

Ad sənin olsa da, güc sənin deyil:
sən vətən desən də, vətənin deyil.
Başı, baş əyməklə saxlamaq olmur,
Qızılsız torpaq da bir torpaq olmur.
İndi var-dövləti keçirsən ələ,
Hörmət qazanarsan xəzinə ilə.

M a h m u d

Ana, Əbubəkr... öz ailəmiz?..

İ n a n c X a t ı n

Atabir, anadan ayrısınız siz,
Gərək unutmasın əslini insan,
Cahanın qanuni arvadı mənəm,
O yoxdu... yaşadan bu adı mənəm.
Bir gözdə görünməz baş ilə bədən,
O hərəmdən olub, sən Məlikədən,
O beşikdə yatıb, sən əllər üstə,
İndi sən evdəsən... O, yəhər üstə.

(Pauza)

Yaddan gözləyirik zərbəni, hər vaxt
Ən yaxın adamdan alırıq ancaq.
Yaxından düz vurar nişan alan kəs,
Uzaqdan yanılar... hədəfə dəyməz.

M a h m u d

Əmimiz oğlu bəs? Toğrul bəy, Toğrul?

İ n a n c X a t ı n

Onun da niyyəti başqadır, oğul.
Gözünü yumantək Cahan Pəhləvan,
Toğrulun atası bizdən nagahan
Qoşun yeritmişdi.
Elə o bahar,
Səlcuqlar paytaxtı tutmalıydılar,
Atabəy dövləti əzilməliydi,
Sizin də başınız kəsilməliydi.

M a h m u d

Hamamdan çıxanda, deyirlər ona
Kimsə zəhər verib... allah var, ana.
Şərbət əvəzinə içib hökmdar.

İ n a n c X a t ı n

Sənə kim deyibdi?

M a h m u d

Kənar adamlar.
Atama sağ ikən o qardaş deyib,
Atam ölən kimi qoşun yeridib.
Onun nəzərində ədalət budur,
Qohumluq özü də şübhə doğurur.

İ n a n c X a t ı n

(kənara, fikirli)

Bir az sadəlövhdü Mahmud deyəsən,
Həyatda hər şeyi görür o, üzdən.
Bir kiçik piyalə, bir azca şərbət,
Əlli min dinara... beləydi qiymət.
Sənə halal olsun Əbuşər qoçaq,
Səni Qızıl Arslan gətirdi bir vaxt
Qaçıb gizləndiyin Türkmənistandan.
Onun da torunu qurarıq, dayan!

(Gedir)

S ə s

(Mahmud qulaq asır)

Yetər, arxalandın doğma Vətənə,
Vətən arxalansın qoy indi sənə.
Cahanın taxtında sən özün əyləş,
Qanuni oğulsan...
Mahmud, fikirləş!

(Cahan Pəhləvanın şərəfinə oxunan dua eşidilir. Nizami, Əcəmi, Qızıl Arslan və başqaları daxil olub bir-birilə salamlaşırlar).

N i z a m i

"Yeddi göy altında ey dünya şahı!
Beşinci ölkənin sənsən pənahı.
Əmrində bu qədər ölkə, şəhər var,
Qapında sütundu saraylı şahlar..."

(Məlikə daxil olub salam verir)

Məlikə, Arandan, Gəncəbasardan,
Çiçək göndəriblər - min dava-dərman.
Deyiblər çatdırın şah sarayına,
El ağzı duadır, inanın ona.
Bu güldən dəmləyib, içsə deyirlər,
Böyük hökmdara tez şəfa verər.

Ə c ə m i

Daşduzdu, Məlikə, Nəxşicahandan,
Ölkə xəbər tutub, yatır Pəhləvan.
Bu duzun suyunda yuyunsa hər kəs,
Yüz il ömr eləsə, ağrıdım deməz.
Bu qayda qədimdən qalır yadigar,
Həkimsiz yaşayıb həkim babalar.

1 - c i k ə n i z

(Daxil olur)

Bir qarı gəlibdi, ağbirçək arvad,
Deyir ki, göndərib məni camaat.
Ağzımda dua var, gözümdə ovsun.
Allahın köməyi üstündə olsun.
Deyir, mən dünyanın şəfa əliyəm,
Deyir, bu qapıda mən ölməliyəm.
Pəhləvan balamız sağalmalıdır,
Deyir, Məlikənin özü halıdır.

İ n a n c X a t ı n

Kəniz, xəbər ver ki, gecikib arvad,
Gecikib bütün xalq, bütün camaat.
Dünya Cahansızdı, Cahan dünyasız.

(Dua oxunur)

Dünya da vəfasız, o da vəfasız!
Ölkənin başçısı ölübdür, demək.
Asan görünməsin... ehtiyat gərək.
Özünün qoyduğu vəsiyyət budur,
Necə yazıbdısa, eləcə durur.

S a l n a m ə ç i

(Daxil olur)

Ölümündən bir az qabaq Cahan Pəhləvan övladlarına vəsiyyət etmişdi ki, əmiləri Qızıl Arslana tabe olsunlar; həm də Toğrul bəyin qulluğunda dursunlar, məsləhətləşsinlər, ona ürəklərində kin bəsləməsinlər, itaətindən çıxmasınlar... yardım göstərsinlər.

Bu vəsiyyəti əvvəlcədən pozan İnanc Xatın oldu.

İ n a n c X a t ı n

(həyəcanla)

Toğrul bəy istəyir Qızıl Arslanı,
Onun adamları bilmirəm hanı?
Qasid göndərmişdim, gəlməliydilər,
Gəlib fikrimizi bilməliydilər.

Q ı z ı l A r s l a n

Mahmud, nəvaziş et, sıxılır anan,
Cahanın fikridir yəqin sarsıdan.

O, Sultan Səncərin əvəzi idi,
Taleyin ölkəyə töhfəsi idi.

S a l n a m ə ç i

O, böyük hövsələ sahibi, xoşxasiyyət, ədalətli, müdrik bir hakim idi. Onun hakimiyyəti vaxtında tabeliyində olan ölkələr sülh şəraitində, təbəələri ilə əmin-amanlıqla yaşayırdılar.

(Gedir)

N i z a m i

Ölüm xəbərinə olmur inanmaq,
Nə demək mümkündü, nə bunu danmaq.

Ə c ə m i

Əllərim soyudu, buza döndü can,
Nizami, gör kimi apardı zaman!
Ondan yadigardı hər böyük əsər,
Xatın türbəsi də - əmanətimdi.
Eşqiylə düzdüyüm kərpic hərflər
Divara hörülmüş sədaqətimdi.

N i z a m i

Köçdü o dünyaya bu dünya oğlu,
Yer altı yer üstdən şöhrətli oldu.

(Pauza)

"Vəslin həvəsi ömrümü son ana yetirdi,
Hicran qəminin xəncərini qana yetirdi.
Ömrün gəmisi ruzigarın dalğalarında
Tufansız ötüb gör necə ümmana yetirdi.
Tordan qurtaran quş ki, qayıtmaz tora bir də,
Keçmiş ömrü kim yenidən cana yetirdi.
Bilsən, niyə biz bilməmişik qədrini vəslin,
çünki bizi bəxt qəflətən ehsana yetirdi".
Ustad, Qızıl Arslan çox narahatdır,
Qəlbində tufan var, üzdə rahatdır.

Ə c ə m i

Aqil adamların fəhmi, diqqəti
Qabaqca hiss edir hər fəlakəti.

Q ı z ı l A r s l a n

(Onlara yaxınlaşır)

Biz bunu bilirdik - ölübdü Cahan,
Keçə də bilmirdik İnanc Xatından.
Cahansız bu dünya bizə dar gəlib.

(Pauza)

Bu gün çox mötəbər adamlar gəlib.
Sizə minnətdaram.

Ə c ə m i

Var olun sizi!

Ə b u b ə k r

Əmim qoruyacaq şərəfimizi.
Atamın yoxluğu artıq hiss olur,
Bir para əmirlər şübhə doğurur.
Əmim ələ alsın gərək dövləti.

İ n a n c X a t ı n

Cahanın bu idi öz vəsiyyəti.

(Qızıl Arslana müraciətlə)

Cahanın yatdığı şanlı torpaq da,
Sizi tələb edir ordu da, xalq da.
Şüarlar deyilir şərəfinizə,
Tanrı bəxş eləyib bu haqqı sizə.
Məncə, əmirlərin yekdildir sözü,
Sizə tərəfdardı rəiyyət özü.

(Pauza)

Sarayda bu gündən Mahmud da gərək
Bir rütbəyə çatsın Əbubəkrtək.

Q ı z ı l A r s l a n

Mahmud, Əbubəkr... qardaşdı onlar,
Gərək ayrılmasın qardaş olanlar.

İ n a n c X a t ı n

(Gedib qılınc gətirir)

Ana südü kimi halal edirəm!
Qoy Cahan Pəhləvan, qibleyi-aləm,
Sizin şəxsinizdə olsun bərqərar,
Qılınc onunkudur, alın, hökmdar.
Özü tapşırmışdı, indi buyurun,
Siz də sözünüzün üstündə durun.
Sizə göz dikibdi bütün məmləkət.

Q ı z ı l A r s l a n

Sözümüz qılıncla deyilir, fəqət,
Sənə and içirəm, Cahan Pəhləvan,
Nə qılınc susacaq, nə Qızıl Arslan.
Qılınc götürməsə, tarixdə bir xalq,
Ayaqlar altında itib-batacaq!

İ n a n c X a t ı n

Sizə Toğrul bəydən şəxsi namədir,
Çaparlar gətirib... üstəlik - salam,
Bizə sədaqətdi, sizə ehtiram.

Q ı z ı l A r s l a n

(Məktubu oxuyur)

Şəxsi fərmanıdır, dəvətnamədir.
Təşrif aparmağı təklif buyurur.
Arada əvvəlki sədaqət durur.

Ə c ə m i

(Nizamiyə)

Cahanın əvəzi Qızıl Arslandır,
Əsl hünərvərdir, o qəhrəmandır.
Hərbi rütbəsi var, şanı, şöhrəti,
Sevir sənətkarı, şeri, sənəti.

N i z a m i

Fəlakət göylərdən bu taxta düşdü,
Bizim gəlişimiz pis vaxta düşdü.
Görünür, taleyin buydu yazısı,
Hələ açılmayıb hikmət dünyası,
Nədəndir, soyudur insanı torpaq?

Ə c ə m i

Gəlir Qızıl Arslan.

N i z a m i

Biz vidalaşaq.

Q ı z ı l A r s l a n

Nə qədər xoş oldu mənə bir yandan,
Sizinlə görüşüm, allah sarıdan.
Ölkədə vəziyyət ağırdı bir az.
Gözləsək, sonradan vaxt bağışlamaz.
Sizi yola salım.

Ə c ə m i

Yox, yox, hökmdar.

N i z a m i

Siz zəhmət çəkməyin.

Q ı z ı l A r s l a n

Mənə xoş olar.

İ n a n c X a t ı n

Sizi dəvət etdim şah sarayına,
Saray sükutunun lal harayına.
Yiyəsi hardadır bu cah-cəlalın?!
Sizi yola salım...

Ə c ə m i

Yox, yox, siz qalın.

(Gedirlər)

İ n a n c X a t ı n

(Arxasınca)

Gedin, hökmdar,
Orda üzəngini Əbuşər tutar.
Toğrul bəy halıdır tədbirimizdən,
Tanrı qoy üzməsin əlini bizdən.
Siz Əbubəkrdən narahatsınız,
Mənim Mahmuduma tamam yadsınız.

Q ı z ı l A r s l a n

(Daxil olur)

Əbuşər, hardasan?

Ə b u ş ə r

Gəldim, hökmdar.

Q ı z ı l A r s l a n

Bizi Həmədana çağırıbdılar,
Sən də bizimlə get, qalma dəstədən.

(Gedir)

Ə b u ş ə r

Şahım, bu dəvətə minnətdaram mən.

İ n a n c X a t ı n

Yaramaz kişiyə ağciyər olmaq,
Tərəddüd fəlakət gətirir ancaq.
Al bunu

(Kisə uzadır)

Üstəlik qayıdan kimi
Sarayda yaşarsan... öz yuvan kimi...

(Əbuşər gedir)

Qalxıb İsfahanda qanlı bir üsyan,
Deyirlər qəhr olsun Cahan Pəhləvan.
Atabəy dövləti dağılsın gərək.
Bizim taleyimiz nə göstərəcək?!
Qoy olsun... məhv olar ya İsfahanda,
Ya görüş zamanı o, Həmədanda,
Toğrul bəy qənimdi Qızıl Arslana,
O zaman sevinər oğul və ana.

II ŞƏKİL

İnanc Xatın və oğlu Mahmud

K ə n i z

(Daxil olur)

Sultan Toğrul bəydi, bir də əmirlər,
Nədir məramları, bizə demirlər.
Görmək istəyirlər, Məlikə, sizi,
Tanrı hifz eləsin şərəfinizi.

(Gedir)

İ n a n c X a t ı n

Get özün qarşıla, Mahmud, əlli ol,
Söhbət zamanı da sən tədbirli ol.
Sənə kömək üçün gəlib o bəylər,
Toğrul bəy səlcuqdu, sən atabəylər!

(Toğrul bəy, Ayəba, Ruz, yad adam daxil olurlar)

T o ğ r u l b ə y

Məlikə, heyranam iradənizə.

İ n a n c X a t ı n

Toğrul bəy xoş gəlib.

(Ayəbaya və Ruza)

Borcluyam sizə.
Əyləşin, buyurun... bu ev, bu otaq.

(Toğrul bəyə)

Mərhum atanıza doğmaydı bir vaxt.
Siz də gələrdiniz... dəyişdi zaman.
İndi nə atanız, nə də Pəhləvan.
Bu dünya hərəyə bir əcəl verir.
Zəhəri, şərbəti eyni əl verir.
Gülüş də, kədər də olur bir üzdə,
Min acı dadırıq bir ömrümüzdə.
Durur gözünüzdə ata xiffəti,
Ölkə unutmayıb bu xəyanəti.
Toğrul bəy, atanız mərhum... o zaman
Vəba yayılmışdı...
Bəlkə vəbadan?!

Ə b u ş ə r

(Kənara)

Fikri yayındırır, mərhaba, İnanc,
Sən özün oldun ki, o "vəba", İnanc.
Elə bu sarayda, saraydan xəlvət,
Bu əldən o ələ keçdi xəyanət.
Açdıqca uzanır bu əriş-arğac,
Məkrli İnancdı Məlikə İnanc.

İ n a n c X a t ı n

Mahmud - Pəhləvanın halal oğludur,
O taxtda otursun - ricamız budur.

Var-dövlət, cavahir, daş-qaş, xəzinə
Yüz il xərcləsəniz, tükənməz yenə.
Sizin hünəriniz, cavanlığınız,
Toğrul bəy, qibtəyə layiqdi yalnız.
Toğrul bəy, sultanlıq şərəfinizə
Mən and içirəm ki, sadiqəm sizə.

T o ğ r u l b ə y

Məlikə, mən sizi düz başa düşdüm,
Xəlvəti gəldim ki, özüm görüşüm.
Fərman göndərmişəm Qızıl Arslana,
Təşrif gətirəcək o, Həmədana.

(Məlikə yad adamdan şübhələnir)

Məlikə, Yad adam yaxındı bizə,
Bir şübhə gəlməsin ürəyinizə.
Mən bunu hiss etdim baxışınızdan.

Y a d a d a m

Şübhə doğurursa, bədbəxtdir insan.
Sizə müraciət cəsarətimdi,
Bir xidmət buyurun... səadətimdi.

İ n a n c X a t ı n

Xoşdur.

R u z

(Ayəbaya)

Şübhəlidir, məncə, bu hərif.

A y ə b a

Toğrul bəy özüylə onu gətirib?!

İ n a n c X a t ı n

Biz taxta çıxarıb Qızıl Arslanı,
Üstə qaldırarıq tez İsfahanı.
Şirvanşah Əhsitan yeriyər üstə,
Qara buludlardan od ələr üstə.
Qədimdən düşməndi Atabəylərə
Toğrul bəy, inanın ulu göylərə.
O sınar əlində səlcuqla, farsın
Aran, Azərbaycan xəbər tutmasın.

A y ə b a

Cahan Pəhləvanın varisi ancaq,
Cahan Pəhləvanın oğlu olacaq.

İ n a n c X a t ı n

Bizim tərəfdədi Ayəba və Ruz,
Qoşuna başçılıq - sizin borcunuz!

R u z

(Fikirli)

Qızıl Arslan ilə bu gün vuruşmaq -
Cahan Pəhləvanı yıxmaqdı sabah.

İ n a n c X a t ı n

Ruz məndə indidən şübhə doğurur!

A y ə b a

Hərbi adamlarda siyasət olmur,
Fikrini gizləmir, üzə şax deyir,
Düşmən üstünə də o şax yeriyir.

İ n a n c X a t ı n

Siyasət ağıldı, bir də ehtiyat,
Bunu bilməyəni məhv edir həyat.

T o ğ r u l b ə y

(Kənara)

Baş - qadın başıdı, kişi ağlı var.

İ n a n c X a t ı n

Yəqin, dediyiniz hərbi adamlar
Sonuncu fikrini əvvəlcə deyir,
Sonra qadın kimi üzr istəyir.

R u z

Məlikə, ağırdı ittihamınız,
Sizdən götürürəm bu sözü yalnız.
Adi döyüşçünü Cahan Pəhləvan,
Çox yüksək tuturdu öz dərgahından.

İ n a n c X a t ı n

Məndən inciməyin, ərk etdim sizə.
Sözüm toxunmasın ürəyinizə.

R u z

Bu da siyasətdi?

İ n a n c X a t ı n

Bəli, siyasət.
Siyasətdən kənar nə var ki...

(Gülür)

R u z

Dəhşət!

T o ğ r u l b ə y

Biz gedək.

İ n a n c X a t ı n

Toğrul bəy, sizə yaxşı yol.
Ayəba, yaxşı yol.

(Gedirlər)

Tanrı, kömək ol!

(Mahmuda)

İndi nə əmin var, nə dost, nə tanış,
Sənin düşmənindi bütün yaranış.
Ya nifrət etməyi bacar dünyada,
Ya əzil, tapdalan ayaqlar altda!

(Gedir)

III ŞƏKİL

R u z və G ü l a ç a r daxil olurlar.

R u z

Kimsə məndən ötrü darıxır hər dəm,
Kimsə yasa batır görəndə məni.
Kiməsə bayramam, kiməsə matəm,
Kiməsə əbədi həyat yelkəni.
Kimsə yol gözləyir, əlində çiçək,
Kimsə kölgə kimi izləyir məni.
Hardasa payıma sevinc düşəcək,
Hardasa bir kədər gözləyir məni.
Dostlar üz çevirdi, — məni qoydular,
Hakimlər üzümə hökm oxudular.

G ü l a ç a r

Bilmirəm kim sənin xətrinə dəyib,
Dəyişib əvvəlki o söz, o söhbət.
Sənin gözlərində qəm çiçəkləyib,
Mənim ürəyimdə o qəmə hörmət.

R u z

Sən elə incəsən, sən elə həssas...

G ü l a ç a r

Fikirin oxunur daim gözündən,
Gülüş azaldırdı yaşını bir az,
Qəm yaşlı göstərir səni özündən.

R u z

Oxşa saçlarımı, səpil ruhuma,
Sənə yaxın olum, dünyadan uzaq.
Qaldır dabanını, sarıl boynuma,
Qoy sükut danışsın: ikimiz susaq.
Sənə yaxın olum, dünyadan uzaq.
Dözümüm azalır hərdən elə bil,
Düşüb əriyirəm təzə qar kimi.
Sənin nəvazişin mənasız deyil,
O çatır dadıma xilaskar kimi.

G ü l a ç a r

Gəl yanıma innən belə,
Soruş məni, axtar məni.
Ürəyində apar məni,
Gözlərində qaytar məni.
İçimdədir odum-közüm,
Göz olubdur sirrim-sözüm.
Heç bilmirəm deyim, dözüm?
İntizardan qurtar məni.

R u z

Öyrəş mənsiz yaşamağa, mənim gülüm,
Bir az mənsiz yaşa daha, mənim gülüm,
Bu həyatda hər kəsin öz həyatı var,
Hər dildə bir bayatı var.
Bəlkə də hər bayatıda
Bir torpağın fəryadı var.
Bu, həyatdır, sərtdir üzü,

Sınaqlardan keçiririk ömrümüzü,
Mənim gülüm.

G ü l a ç a r

Özün oyat məni, əzizlə məni,
Əyləndir bu axşam xoş üzlə məni.
Vermə öz əlindən bir ələ məni,
Tale əzizləsin qoy hələ məni.

R u z

Nə qədər ağırdı səndən ayrılıb,
Başqa bir iqlimə səfər eləmək.
Sonra da, hardasa könlünü alıb,
Bir qəlb ağrısıyla "darıxma" demək.
Qalsam, kimliyimə cavabdehəm mən,
Getsəm, kimliyimi soruş özündən.

G ü l a ç a r

Bizi görüşdürdü, həyata əhsən!
Hanı o şuxluğun, şaqraq gülüşün.
Kimdənsə ayrılmaq niyyətindəsən,
Mən sənə nə deyim... tələsmə, düşün.

R u z

Bir az möhlət istəyirəm ömürdən,
Nə qədər ki, bu dünyada biz varıq,
Bu dünyanı yaşadarıq, yaşarıq,
Sən olarsan, mən olaram - ikimiz,
Həyat şirin, dünya gözəl, sən əziz.

G ü l a ç a r

Kimsə qarğayıbdır elə bil mənə,
Gərək gecələrim yuxusuz olsun.
Gərək mən kiminsə qalam qeydinə,
Sonra da yanmağım özümə qalsın.

R u z

Gördüm həyatımda kimsəsizliyi,
Yaxşılıq axtarıb, tapdım pisliyi.
Gülaçar, ölübdü Cahan Pəhləvan,
Milli qürurumuz, şanlı qəhrəman.
Ürəyim elə bil dar qəfəsdədir.

G ü l a ç a r

Mən də eşitmişdim, ağır xəstədir.

R u z

İçimdə bir qüvvə, dərd əyir məni,
Elə bil fəlakət izləyir məni,
Sındırmaq istəyir tutub elə bil,
Sən gəldin, yox, daha bu mümkün deyil.
Ən güclü qüvvəsən bu yer üzündə,
Bəlkə heç bilmirsən bunu, özün də.

G ü l a ç a r

Ruz, sən qəhrəmansan, həm də pəhləvan,
Görmüşəm, güləşdə üçünü yıxan...

(Gülür)

R u z

Gülaçar, məhəbbət nədir dünyada?

G ü l a ç a r

İnsanla doğulur, yaşayır o da,
Doyunca gülməkdi, həm də ağlamaq,
Deyirlər, çətindi gizli saxlamaq.

R u z

(Fikirli)

Məhəbbət! Nə deyim bu ülvi ada,
Hamıya bir gözlə baxmayır o da.
Birinə ömür-gün yoldaşı verir,
Başqa birisinə göz yaşı verir.

Gülaçar

Ruz, səni soruşur arabir anam,
Mən də ana olmaq arzusundayam.
Bəsdi bu yürüşlər, yoruldu torpaq,
Biz də bir ev olaq, ailə quraq.
Mən laylay oxuyum, uşaq bələyim...

R u z

Nə gözəl arzudur, mənim mələyim!

G ü l a ç a r

Sən mənim ərim ol.
(Gülür)

R u z

Gülaçar, dayan,
Məni ürəyimdən yaralayırsan.

G ü l a ç a r

Allah eləməsin, elə demə, Ruz.
Sonra bir qızımız, bir də oğlumuz.
Qız dünya gözəli, oğlan da tufan!
Adını qoyarıq Cahan Pəhləvan.

R u z

(Onu qucaqlayır)

Bu söz bir hikmətdi, sağ ol, Gülaçar,
Yaşasın, ölməsin böyük adamlar.
Adları adlara qoyulsun gərək,
Biz də yaşayarıq, onda ölmərik.
Onda bilirsənmi, xalq da xalq olar.
Bir adı düz min il yaşatmaq olar.

(Pauza)

Gülaçar, bax bu gün biz görüşürük,
Sabah Həmədana yola düşürük.

G ü l a ç a r

Nə var Həmədanda?
Bu xəbər nədir?

R u z

Sabah Qızıl Arslan özü gedəcək,
Taxta çıxmalıdır - bu, ənənədir,
Toğrul bəy sultanlıq elan edəcək.

(Pauza)

Gülaçar, mənim də öz xiffətim var,
Cahan Pəhləvana sədaqətim var.
Onun qoşununa sərkərdə mənəm.
Mən... Qızıl Arslana indi düşmənəm.
Mahmud... Pəhləvanın halal oğludur,
Taxt-tac onunkudur.

G ü l a ç a r

Dəhşətdi bu, Ruz,
Qoy geri çəkilsin sizin ordunuz.
Ruz, sən əl qaldırma Qızıl Arslana,
O da qəhrəmandır, sadiq qal ona.
Onun hünərinə sən baş əyibsən,
Qızıl Arslan deyib fəxr eləyibsən.
Ruz, qayıt bu yoldan!

R u z

Yoxdur faydası.

G ü l a ç a r

İgid oğulların budur vəfası!
Qırır bir-birini igid oğullar,
Qızların yolunu bağlayır onlar.
Ruz, qayıt bu yoldan!

R u z

Gecdi, Gülaçar,
Bir yandan bağlayan, bir yandan açar.

G ü l a ç a r

Sənə and içirəm, Ruz, mənə inan,
Bir imtahan oldu bu əhd-peyman.
Ruz, qayıt bu yoldan!

R u z

(Əsəbi)

Qayıtmaq olmaz;
Sən qayıt, mən getdim... tökülən dolmaz.

G ü l a ç a r

Mən öz ürəyimdə gətirdim səni,
Mən sənin yanında itirdim səni.

(Ağlayır)

R u z

Bu işə doğrudan qol qoydum nahaq,
Açıq xəyanətdi gizli ittifaq.
Məlikə Toğrula badalaq gəlir,
Toğrul Məlikəyə...
Daha vaxt gəlir.

Mənim də taleyim beləymiş əlbət.
Qayıtsam — xəyanət,
Getsəm — xəyanət!
Yaşa, məhəbbətim, yaşa Gülaçar,
Sənə sədaqətlə öləcəyəm mən.
İnan, harda məni xırdalasalar,
Yanına böyüyüb gələcəyəm mən.
Əlvida, Gülaçar!

II PƏRDƏ

I ŞƏKİL

Həmədanda Toğrul bəyin iqamətgahı.

S a l n a m ə ç i

(Daxil olur)

İnanc Xatının düşmən olduğunu bilsələr də, əmirlərin bir qismi bu nəticəyə gəldilər ki, Cahan Pəhləvanın varisi onun doğma qardaşı Qızıl Arslan olmalıdır. Onlar Qızıl Arslana öz sədaqətlərini bildirdilər və xahiş etdilər ki, qoyulmuş qanun-qaydaya görə Həmədana gedib dövləti idarə etməyi öz öhdəsinə götürsün.

Sultan Toğrul bəy isə bütün tərəfdarlarına bildirdi ki, Qızıl Arslanı öz Atabəyi təyin etməyə məcburdur və bu vəzifəyə ancaq onun qoyulması barədə fərmanı göndərmişdir.

B a ğ b a n

(Daxil olur)

Gəlir Qızıl Arslan, ona halaldı,
O da çinar kimi qalxdı, ucaldı.
Görüm ayağına daş toxunmasın,
Duası yollarda bəd oxunmasın.

(Gedir)

T o ğ r u l b ə y

İnancın qəribə bir aləmi var,
Qadın hikkəsi var, kişi zəhmi var.
Ağlasa yollara duman, çən düşər,
Hirslənsə, kainat gözündən düşər.
Məlikə İnanca vəd verdim, görək,
Bizim görüşümüz nə göstərəcək...
Ayəba, Ruz hanı?

A y ə b a

Çox narahatdı,
Bir az əsəbiydi... indi babatdı.
Bəzən hirslənir də əsib-coşaraq.
Başından bir yara almışdı bir vaxt.
Cahan Pəhləvanın Ruz sağ əliydi.

T o ğ r u l b ə y

Yox, gərək Ruza da deyilməliydi,
Gəlir Qızıl Arslan Əbubəkrlə,
İsfahandan gəlir indi məkrlə.
Orda yatızdırıb o, üsyanları,
Gedək, ləngitməyək işləri barı.

(Gedirlər)

B a ğ b a n

(Qayıdır)

Deyirlər, istəmir Toğrul bəy özü,
Atabəy nəslini götürmür gözü.

Y a d a d a m

(Daxil olur)

Qoca, əmirlərdən kim var bu yanda?
Nə gördüm mən gördüm o İsfahanda.
Cahan Pəhləvanın əleyhdarları,
Qaldıra bilmişdi bütün bazarı.
Əllərdə nizələr, bellər, kürəklər.
Orda qarışmışdı tacirlə nökər,
Amma Qızıl Arslan yetişən kimi
Ayağına düşdü xalq kövşən kimi.

(Gedir)

B a ğ b a n

Xeyir xəbər üçün xoşbəxt ol səni,
Burda yatmamışam bütün gecəni -
Atam atasına bağban olubdu,
Atabəy Eldəniz insan olubdu.

Y a d a d a m

Əbuşər, Toğrul bəy görüşən zaman,
Nizəni sancarsan düz arxasından.

Ə b u ş ə r

İsfahandan gəlir, ehtiyat gərək.

Y a d a d a m

Orda öldürübdü, burda öləcək.

(Gedirlər)

B a ğ b a n

Namərdlər, onların məramına bax,
İlahi, kim kimə əl qaldıracaq?!
Onda Həmədanda qalxar bir üsyan,
Nə Toğrul bəy qalar, nə bağ, nə bağban.

(Gedir. Qızıl Arslanın şərəfinə alqış səsləri eşidilir)

Y a d a d a m

(Əbuşərlə kənardan müşahidə edirlər).

Gəlir, Toğrul bəyə təzim edərək.

S ə s l ə r

- Hökmdar!
- Eşq olsun!
- Var ol!
- Mübarək!

Y a d a d a m

Biri fikirlidir, biri mehriban,
Əsl qəhrəmandı o Qızıl Arslan.
Hədiyyə paylayır özü... nə qədər...
Əmirlər, əyanlar, qullar, kənizlər.
Geyinir Toğrul bəy... xələt, zər-ziba.
Daş-qaşdı, qiyməti gəlməz hesaba.

S a l n a m ə ç i

(Daxil olur)

Atabəy Qızıl Arslanla Sultan Toğrul bəyin bu təntənəli görüş mərasimi əslində əmirlərin dövlətə münasibətini aydınlaşdırmaq məqsədi güdürdü.

Y a d a d a m

Onlar qucaqlaşıb indi öpüşür,
Hazırlaş, Əbuşər, bax, məqam düşür.

B a ğ b a n

(Daxil olur)

Saxla əllərini yaramaz alçaq!
Sənə qənim olsun bu su, bu torpaq!

Y a d a d a m

Əbuşər, bağbandı.

B a ğ b a n

Tanıdım, yassar!
Səni Qızıl Arslan dilindən asar!
Bayaq İsfahandan, Qızıl Arslandan
Danışan sən idin...

Y a d a d a m

Danışma, bağban!
Biz də Toğrul bəyin adamlarıyıq,
Məram baş tutmasa...

B a ğ b a n

Dur, zatıqırıq!

(Bağbanı xəncərlə vurmaq istəyir.
Qızıl Arslan Toğrul bəylə daxil olur)

B a ğ b a n

Hökmdar!

Q ı z ı l A r s l a n

(İkimənalı)

Tanıdım, gəl, qoca bağban.

(Əbuşəri tuturlar)

B a ğ b a n

Bir allah saxlasın səni xatadan.

Q ı z ı l A r s l a n

(Kənara)

Sarayda əvəzsiz bir bağban idi,
Mən uşaq olanda o cavan idi.

İndi yerişə bax... ahıllaşıbdı.
Saqqal çallaşıbdı, bığ çallaşıbdı.
Atam çox razıydı sədaqətindən,
Sonra... gileyləndi öz səhhətindən.
Atam Həmədana göndərdi o vaxt,
Sağalıb qayıtsın... Təsadüfə bax!

T o ğ r u l b ə y

(Kənara)

Bağban Naxçıvanın sağ əli idi,
Bağban Həmədanda şübhəli idi.

Q ı z ı l A r s l a n

(Bir az əsəbi)

Hər şeyi bu həyat öyrədir bizə.
Təqiblər ehtiyat öyrədir bizə.
Mənə tanış gəldi o üz, o surət.
Kölgələr hərlənir...

T o ğ r u l b ə y

(heyrətlə)

Burda, xəyanət?!

Q ı z ı l A r s l a n

Səfərə çıxana ehtiyat gərək,
Götür ehtiyatı bir azuqətək.

B a ğ b a n

Atan Eldənizin səxavətindən,
Qardaşın Cahanın şücaətindən
Oğul, bu torpaqda ellər-obalar,
Hələ min il sonra danışacaqlar.
Varsa qoy eşitsin qulağı yerin.

Q ı z ı l A r s l a n

Baba, yaxına gəl.

(Qucaqlayır)

Xələt gətirin.

II ŞƏKİL

Qızıl Arslanın çadırı.

Q ı z ı l A r s l a n

Aran, Azərbaycan, bütün məmləkət
Bir bayraq altında birləşsin, fəqət.
Vətən bölünməsin... hökm qətidir -
Cahan Pəhləvanın vəsiyyətidir.

Ə b u b ə k r

(Daxil olur)

Əsir gətiriblər, hökmdar.

Q ı z ı l A r s l a n

Buyur.

(O gedir)

Məndə Əbubəkr inam doğurur,
Ağlı, düşüncəsi, fikri, zəkası
Yaddan qoruyacaq torpağımızı.
Qılınc döyüşündə çoxdan ad alıb,
Məndən də bir qılınc mükafat alıb.
Lakin İnanc Xatın sarayda hərdən
Şübhəli danışır Əbubəkrdən.
Üzə vurmasa da özü arabir,
Məlikə, görürəm xeyli çəkinir.

Ə b u b ə k r

(Daxil olur)

Gətirin... əsirlər qoy dindirilsin.
Hər şeyi hökmdar qoy özü bilsin.

Q ı z ı l A r s l a n

Əsirlər hardandı, kimdi de görək?

Ə b u b ə k r

Casus daha çoxdu, Şirvandan.

Q ı z ı l A r s l a n

Demək,
Hardasa işləyir yenə əlaltdan
Şirvanşah sarayı... cənab Əhsitan.

Ə b u b ə k r

Casus yalvarır ki, rəhm edəsiniz.

Q ı z ı l A r s l a n

Döyüş meydanında görüşərik biz.
Sonra, Əbubəkr?

Ə b u b ə k r

Şəfailərdi.

Q ı z ı l A r s l a n

Orda ayaq altda qalan şəhərdi.
Mən indi bildim ki, oyaqdı düşmən,
Cahan ölübdüsə, yaşayır Arslan.
İsfahan istəmir atabəyləri,
Babam Eldənizin vaxtından bəri.
İsfahan üsyanı bir təhlükəydi,
Yaxud, Əbuşərin niyyəti nəydi?

(Əbuşəri gətirirlər)

Ovcuna tökdürün onun gözünü,
Əbədi görməsin özü-özünü.

Ə b u ş ə r

Nankoram, hökmdar... əbləhəm, daşam...

Q ı z ı l A r s l a n

Qaldırın o daşı!

Ə b u ş ə r

Mən yanılmışam.

Ə b u b ə k r

Niyə, düz gəlibsən.

Q ı z ı l A r s l a n

Düz gətiriblər.

Ə b u ş ə r

Toğrul bəy, Məlikə... məni bir qədər
Öyrətdi.

Q ı z ı l A r s l a n

Əbuşər, səni bir zaman,
Mən özüm gətirdim Türkmənistandan.
Atabəy yurduna sadiq ol dedim,
Məni vurmaq üçün nizə vermədim.

Ə b u ş ə r

Hökmdar, rəhm edin.

Ə b u b ə k r

Xain, barı sus!
Süfrələr başında yalmanan casus.

Ə b u ş ə r

Hökmdar, məktub var... sizə xəyanət,
Özüm köçürmüşəm üzünü xəlvət.
Məzmunu böyükdü, həcmi çox qısa,
Məni bağışlayın dərgahınıza.
Əfv edin... Qurandan bir ayə deyim.
Ayaqyalın gedim Məkkəyə, şahim!

Q ı z ı l A r s l a n

Xəyanət? Doğrusa bu təzə xəbər,
İnsanda insanlıq tükənə bilər.
Mən bunu əvvəldən duymuşdum... qərəz.
Hərislər toxları aldada bilməz.

S a l n a m ə ç i

(Daxil olub məktubu oxuyur)

"Toğrul bəyə, Ayəbaya, Ruza!
...Adi bir hərəmin oğlu Əbubəkrin mənim oğlumdan artıq olmasını və daha yüksək mövqe tutmasını, sizin ürəyiniz necə götürür?!"

Ə b u b ə k r

(Bərk tutulur)

Şahım... mənim anam, şahım, inanın,
Ən gözəl qızıdır Azərbaycanın.
Anam... Sirdaşıydı atam Cahanın.

Q ı z ı l A r s l a n

(Təmkinli)

Dayan, Əbubəkr, susan aparar,
Sözün hər ağızda bir qiyməti var.
Söz var, o dillərə ağızdan düşür,
Ağız var, söz orda nüfuzdan düşür.

S a l n a m ə ç i

(Davam edir)

"...Məndə elə miqdarda pul, sərvət, dinar və dirhəm var ki, sizi saxlamaq üçün uzun illər kifayət eləyər. Mən istəyirəm siz mənim oğlum Mahmudu bir ata əyləşdirib, özünüz də onunla birlikdə yanıma, saraya gələsiniz. Sizin hamınızı, kim sizinlə birlikdə gəlsə, mən burada yerbəyer eləyərəm və nə qədər lazımdırsa, o qədər pul xərcləyərəm ki, öz ağanız Atabəy Pəhləvanın qoşunlarını Müzəffərəddin Qızıl Arslanın əleyhinə birləşdirəsiniz...

Məlikə İnanc Xatın".

Q ı z ı l A r s l a n

(Fikirli)

Axır bir dərəyə yeraltı sular,
Harda günəş doğur, orda bulud var.

Ə b u ş ə r

Məlikə vermişdi... məktubu hökmən
Təcili çatdıram Toğrul bəyə mən.

Q ı z ı l A r s l a n

Gözünə dəyməyin siz o nankorun,
Bir də görünməsin burda... aparın.

(Əbuşəri aparırlar)

Hazırlaşın yürüşə!

Q ı r a n

Yeni, şanlı döyüşə!

Y ı x a n

Şahım, siz hay desəniz...

S a t m a z

Hay verən bir ordu var.

T u r a l

Xain, namərd üstünə!

A y d o ğ d u

Hər igidin adı var!

Ə b u b ə k r

Aydoğdu, sən qabağa!

Q ı z ı l A r s l a n

Azərbaycan torpağı
Qalxır indi ayağa!

III ŞƏKİL

Toğrul bəyin çadırı. Uzaqdan təbil səsləri,
at kişnərtisi eşidilir.

R u z

(Daxil olur)

Əlimdə bu qılınc, çiynimdə kəfən,
Bir vicdan səsidir məni söylədən.
Kimsə ovsunladı məni elə bil,
Aldandım... Aldanmaq satılmaq deyil.
Özüm məhv elədim öz həyatımı,
Əbədi sındırdım qol-qanadımı.

(Toğrul bəy qulaq asır)

Cahan Pəhləvanın sağ əli ikən,
Uydum Məlikəyə... Ruz, sənə əhsən!
Bu ki, xəyanətdi əsl xəyanət!
Kimin xidmətinə?! Ruz, sənə lənət!

T o ğ r u l b ə y

Gör nələr danışır bu qaradinməz,
O, Qızıl Arslanla döyüşə girməz.

(Gedir)

Ç o b a n b a y a t ı s ı

(Uzaqdan eşidilir)

Dağlara dolu düşdü,
Palıdın qolu düşdü.
Həsrətin güzarına
Yarımın yolu düşdü.

Yarım bir səsə getdi,
Düşdü həvəsə, getdi.
Gəlirəm deyə-deyə,
Gedər-gəlməzə getdi.

Yollara izim düşüb,
Daş altda dizim düşüb.
Eşitmir yarım məni,
Dünyaya səsim düşüb.

R u z

(həyəcanlı)

Ah, könül dildarım, sən harda qaldın?!
Mən burda, sən orda odlarda qaldın.
Sənin sözlərinə məhəl qoymadım,
Sən ürək qoyanda, mən əl qoymadım.
İndi öz cəzamı çəkim mən gərək.
Ölüm, yalnız ölüm!

(Qılıncla özünü vurmaq istəyir. Ayəba daxil olur və biləyindən tutur)

A y ə b a

Tələsmə görək.
Sən ki, Pəhləvanın xidmətindəsən.

R u z

İtil gözlərimdən!

A y ə b a

Ruz, sənə əhsən!..

R u z

Cahan Pəhləvana xəyanət?! Əfsus!
Burda ölməlidir Ayəba və Ruz.
Kimin qapısına sən daş atırsan,
Ağrıyan ürəkdən xəbərin varmı?
Kimin süfrəsinə əl uzadırsan,
Kəsdiyin çörəkdən xəbərin varmı?

A y ə b a

Qoşuna rəhbərlik tapşırıb bizə
Məlikənin özü... hər ikimizə.

R u z

İtil... Qızıl Arslan qalib gələcək.
Burda Ayəba da, Ruz da öləcək.

A y ə b a

Bütün qorxaqları mən xain kimi
Özüm məhv edərdim...

R u z

Qorxaq? O, mənmi?!
Ayəba!

(Qılınclaşırlar)

Qorxursan?

A y ə b a

İndi bərk dayan.

R u z

(İstehza ilə)

Çağır Toğrul bəyi.

A y ə b a

Əsmə qorxudan.

(Toğrul bəy, Mahmud və Yad adam daxil olur)

M a h m u d

Bizim tariximiz ölümdü, qandı,
Öldürən qohumdu, ölən qohumdu.

T o ğ r u l b ə y

Heyf... Ruz qəhrəman, qorxmaz bir ərdi,
İgidlər dönmürlər - bu da hünərdi,
Bu da sədaqətdi... başqa şey deyil,
Heç kəs... bu itgiyə cavabdeh deyil.

(Yad adama işarə edib Mahmudla gedir.
O, Ruzu arxadan vurur.)

R u z

Kəfən əynimdədir, gördün, yaramaz,
Ölünü öldürmək hünər sayılmaz.

(Yıxılır)

A y ə b a

(Daxil olur)

Ruz o cür ölümə layiq deyildir.
Ah, namərd! Bu kimin fitnə-felidir?!
Xain, bu ləkədir şərəfimizə.

(Yad adamı təqib edir)

T o ğ r u l b ə y

Ayəba təhlükə olacaq bizə.

(Dəbilqəli əsgərlər keçir)

S a l n a m ə ç i

(Daxil olur)

Toğrul bəy əmirlərini yaxşı tanıyırdı, başa düşürdü ki, Qızıl Arslana xəyanət etdikləri kimi, bir gün də ona xəyanət edəcəklər. O, Ayəbanı yanına çağırıb Qızıl Arslanın qoşununa hücüm etməyi əmr etdi.

Ayəba əmri yerinə yetirməkdən boyun qaçırdı.

(Gedir)

T o ğ r u l b ə y

(Gələn Mahmuda)

Ayəba hardadı?

M a h m u d

Məyusdur tamam.
Mənə bu barədə demişdi anam.
Sülh vaxtı sakitdi, səngərdə məğrur.
İndi Yad adamı tap! - deyib durur.
Ruzu təntənəylə dəfn edin deyir.
Sizi soruşurdu... görmək istəyir,
Toğrul bəy, düz deyir, məncə, Ayəba
Əsl qəhrəmandır...

T o ğ r u l b ə y

Mahmud, mərhaba!..
Ayəba məğrurdu, biz daha məğrur,
Cəbhədə döyüşmək onun borcudur.

A y ə b a

(Daxil olur)

Toğrul bəy!

T o ğ r u l b ə y

Ayəba!

A y ə b a

Qan yerdə qalmaz!
Toğrul bəy, siz məni eşidin bir az.

T o ğ r u l b ə y

Söhbətə başlasaq düşmən vaxt udar,
Mənim səngərimi o gəlib tutar.

A y ə b a

Mən indi bildim ki, zəmanə pisdir,
Düşmən dediyiniz öz əminizdir!

(Dəbilqəli əsgərlər keçir)

T o ğ r u l b ə y

Ayəba... səngərə!
Sən döyüşçüsən,
Qızıl Arslan ilə üz-üzə gəlsən -
Gərək vuruşasan, tələbim budur!
Cəbhədə tərəddüd şübhə doğurur.

A y ə b a

Mənə şübhələnən hər kimsə, hökmən,
Özü şübhələnsin öz taleyindən.
Xain olmamışam mən, əlahəzrət,
Xainlər içinə düşmüşəm əlbət.
Toğrul bəy, tanıdım... o, Ruzu vuran
Həmin Yad adamdı... gördüm arxadan.
Sizi müşayiət eləyən alçaq,
Tərif edirdiniz... sarayda bir vaxt.

T o ğ r u l b ə y

Sən qisas deyirsən!

A y ə b a

Toğrul bəy, qisas!
İgidin şərəfi yerdə qoyulmaz!

T o ğ r u l b ə y

Taleyi gülmədi Ruza doğrudan,
Səngərdə can qoydu... amma nahaqdan.

A y ə b a

Toğrul bəy, görünür qisməti budur,
Bir də ki, ölümlər səngərsiz olmur.

(Əsəbi gedir)

T o ğ r u l b ə y

(Yad adama)

Nədir, hər sözündə bir şübhə-qərəz,
Cəbhəçi səngərdə belə düşünməz.
Gör Mahmud hardadır, gözümə dəymir.
O da Ayəbanın tərəfindədir.
Onun qürurundan, şücaətindən,
Cahan Pəhləvana sədaqətindən
Əfsanə danışır bayaqdan... qərəz,
Yox, mənim ürəyim daşdı, o bilməz.
Əvvəl Ayəbanı, sonra Mahmudu...
Sənə tapşırıram, qərarım budu!

(Gedir)

Y a d a d a m

(Onun dalınca)

Toğrul bəy, mənim də daşdı ürəyim,
Amma qiymətlənmir hələ əməyim.
Mən iki əmiri, bir şahzədəni,
Öldürsəm... səadət gözləyir səni.

(Çoban bayatısı eşidilir)

Mənim öz nəğməm var, mənim öz havam.

(Ayəba daxil olur)

Aha, ələ düşməz belə bir məqam.

(Onu nişan alır)

A y ə b a

Odur ki, səlcuqlar xanədanından,
Bir həmdəm tapmadı Cahan Pəhləvan.
Mən onun adına gəldim, inandım,
Burda xəyanəti görüb oyandım.

Y a d a d a m

(Kənara)

Xəyanət saxlayır müvazinatı,
Belə dərk edirəm mən də həyatı.

(Mahmud daxil olur)

A y ə b a

Mahmud, öldürdülər qəhrəman Ruzu,
Gör harda baş tutdu xain qurğusu.

Y a d a d a m

(Kənara)

Namərdlər mərdlərə həyatda hər gün
Ehtiyat öyrədir yaşamaq üçün.
Tədbirlə baş işlət, ağıllı tərpən,
Yoxsa birdəfəlik bada gedərsən.
Yox! Hələ bunları Ayəba görmür,
İnsanı insanın gözü götürmür.

M a h m u d

(Kənara)

Mənə Toğrul bəyin səmimiyyəti
Şübhəli görünür... nədir niyyəti?!

A y ə b a

Qaç burdan, yazıqsan... bu dünya şərdi,
Həyatın ölümlə qabaq-qənşərdi!

Y a d a d a m

Onu fəlakətdən qaçırdır, ancaq
Özü fəlakətə düçar olacaq.
Varlıqla yoxluğun arasındadır,
Ayəba ölülər sırasındadır.

(Nişan alır)

A y ə b a

Mən öz kəndirimi əlimlə kəsdim,
Bilsəydim, mən belə səhv eləməzdim.
Harda and içilir, orda yalan var,
Qəsdin - əvvəlində vəfa, etibar,
Qəsdin axırında cinayət durur.
Toğrul bəy hardasa bir hiylə qurur...

(Yad adam vurur)

Namərd!.. Axtarırdım səni, ah, qisas!

B a ğ b a n

(Daxil olur və Yad adamı tanıyıb dalınca qaçır)

Dayan, tanımışam səni, yaramaz!

A y ə b a

(Mahmudun qolları üstə can verir)

Qaç, Mahmud, gözləyir səni fəlakət:
Toğrul bəy namərddi, Məlikə namərd!

IV ŞƏKİL

Birinci şəkildəki vəziyyət.

İ n a n c X a t ı n

(Təkdir)

Yuxuma kəfənsiz ölülər gəlir,
Qorxudan yozmuram, birtəhər gəlir.
Gördüm bir dərə var, qorxunc bir dərə,
Ruz orda yalvarır üzü göylərə,
Ayəba uzanıb yanında çılpaq.
Mahmudu dindirmir... bu nədir, allah!
Qaçır Toğrul bəyin atı yüyənsiz.
Kim isə qışqırır, harayı - səssiz!

B i r i n c i k ə n i z

Xanım, dərd çəkməyin, hər şey düzələr:
Mahmud sağ-salamat qayıdıb gələr.

(Gedir)

İ k i n c i k ə n i z

Sizin hüsnünüzə yaraşmır bu qəm,
Xanım, mən xudaya daxıl* düşmüşəm.

---

* Minnətçi düşmək (*red.*)

Üçüncü kəniz

Mahmud, allah qoysa, yüksələcəkdir,
Cahanın yerinə o gələcəkdir.

İnanc Xatın

Bir falçı çağırın, məni qəm üzdü,
Gördüyüm yuxunu yozsun əlüstü.
Münəccim hardadır, gəlsin o hökmən,
Desin ulduzların vəziyyətindən!

Birinci kəniz

(Daxil olur)

Məlikə, Mahmuddur!

İnanc Xatın

Bir şey var əlbət?!

Birinci kəniz

Yox, gözünüz aydın!

(Mahmud daxil olur)

İnanc Xatın

İlahi rəhm et!

(Oğlunu qucaqlayır)

M a h m u d

Ana... Qızıl Arslan basıldı, ana,
Zərbələr endirir Toğrul bəy ona.

İ n a n c X a t ı n

Bu, xeyir xəbərdi Mahmud, cəbhədən,
Mən amma qorxuram, bilmirəm nədən...

M a h m u d

Ruzu, Ayəbanı vuruşduraraq,
Toğrul bəy aradan götürdü...

İ n a n c X a t ı n

Allah!
Demək, qətl olundu iki qəhrəman?!
Onları sevirdi Cahan Pəhləvan.
Mənim tərəfimə keçdi ki, onlar,
Mahmudum taxt-tacda olsun bərqərar.

M a h m u d

Toğrul bəy fikrini daim dəyişən,
Ölkəyə hakimlik eşqinə düşən
Səlcuq sultanının oğludur, ana.
Sənə deyəcəyim söz budur, ana.
Orda başsız qalıb indi ordular,
Mən qaçıb gəlmişəm... təcili qərar...

(Pauza)

Özün öz əlinlə Qızıl Arslana,
Nə qədər gec deyil, məktub yaz, ana.
Yenidən birləşsin bizim ordular,
Biz özümüz getsək, daha düz olar.

İ n a n c X a t ı n

(Təmkinli)

Toğrul bəy yeridib öz məramını,
Alır atasının intiqamını.
Qoy olsun, o məni aldada bilməz,
Aldanır, aldatmaq istəyən hər kəs!

(Gedirlər)

B i r i n c i k ə n i z

Onun gülüşündə tufan gizlənir,
Qəfəsdə bir dişi pələng bəslənir.

İ k i n c i k ə n i z

Cahan Pəhləvanın yerinə gərək,
Oğlu Mahmud olsun ölkədə mütləq.
Bir də bərk qısqanır Əbubəkrdən,
Böyük mənsəblərə çatar o birdən.
Aran gözəlidir onun anası,
Həm də hərəm olub... budur davası.

Ü ç ü n c ü k ə n i z

Taxt-tac istəyir əslində, qərəz,
Elə inaddır ki, and içdi - dönməz.

İnanc Xatın

(Oğlu ilə daxil olur)

Nə üzlə mən gedim, Mahmud, nə üzlə?
Necə şax yeriyim dərəylə, düzlə?
Saraydan — səngərə,
İstidən — soyuğa...
Nə su, nə kölgə!
Dünyanın ən uzaq yoludur bəlkə?!
Keçilməz tilsimdi - məndən ötəri,
Əslində təslimdi -məndən ötəri.
İndi Məlikəyəm, bir azdan kəniz.
Ağlasın nəslimiz, nəcabətimiz.
Ağlasın rəiyyət indi saraya,
Yox, qadın qürurum qalsın sonraya,
Ölçüb-biçməliyəm sözü-söhbəti:
Deyirlər başqadır kişi ülfəti.
Deyərəm, birləşsin bizim qoşunlar,
Mən desəm, eşidər məni hökmdar.
Nə qədər güclüdür, nə qədər həssas,
Güclü kişilərdə qərəz, kin olmaz.
Qaranlıq işıqdan görünmür heç vaxt,
İşıq qaranlıqdan görünür ancaq.
Bir məktub yazmışam, oxuyar əlbət,
İlahi, rəhm et!

(Gedirlər)

V ŞƏKİL

Dağlarda Qızıl Arslanın çadırı. Dəbilqəli əsgərlər keçir.

Q ı z ı l A r s l a n

Hər qarış torpaqda şəhid olan var,
Cavanşir qalası, Babək qalası!
Cahanın qanından qanımda qan var.
Çalın, bu dağların cəngi susmasın!

(Gedir)

B a ğ b a n

(Daxil olur)

Oğul, nişan verin Qızıl Arslanı,
Hardadı dağların o pəhləvanı?

(Əsgərlər keçir)

Q ı z ı l A r s l a n

Şanlı igidlərim, güc alın yerdən,
Dağ sizə söykənsin, siz dağa hökmən!
Tural, dərədən!
Satmaz, qalx dağa!
Yıxan, qabağa!
Qıran, yolu kəs!
Aydoğdu, tələs!

(Hökmlər verə-verə gəlir)

B a ğ b a n

Oğul, Qızıl Arslan, adına qurban,
Mən qoca bağbanam.

Q ı z ı l A r s l a n

Gəl, qoca bağban.
Baba, necə gəldin, qorxuluydu yol?

B a ğ b a n

Məni gətirdilər, gəlmədim, oğul.

Q ı z ı l A r s l a n

Necə, kim gətirdi... Mən nigaranam.
O kimdi?

B a ğ b a n

Bir satqın, adı Yad adam.
İnanan aldanır həyatda, oğul, —
gərək heç çıxmasın bu yaddan, oğul.
Toğrul bəy namərdlik elədi, əfsus,
Özüm gətirmişəm burdadı casus,
Yalvarıb, yalayır indi torpağı.

Q ı z ı l A r s l a n

Gətirin.

B a ğ b a n

Xainlər çoxdu cahanda.

Q ı z ı l A r s l a n

(Tanıyır)

Əlimdən qaçmışdı o, İsfahanda
Mənə demişdilər belə bir adam
Gizlində işləyir...
Baba, çox şadam.
Dünyanın qəribə təzadları var, —
Kim kimdən qaçarsa, ona tuş olar.

B a ğ b a n

Ruzu, Ayəbanı vurdu arxadan,
Sənə əl qaldırıb əvvəl o nadan.
Biz tutub gətirdik, sonra birtəhər,
Sənin tərəfinə keçdik on nəfər,
Onlar gözləyirlər.

Q ı z ı l A r s l a n

Gəlsinlər, baba.

(Pauza)

Bizə namərd çıxdı Ruzla Ayəba.

Y a d a d a m

(Yerindən)

Peşiman olmuşdu onlar sonradan,
Toğrul bəy dedi ki, götür aradan.

Q ı z ı l A r s l a n

Lakin cəngavəri arxadan vurmaq,
Xainin işidir.

B a ğ b a n

Xaindir alçaq.

Ə b u b ə k r

(Daxil olur)

Şahım, yaralanıb bir cavan əsgər
Qızıl qan içində...

Q ı z ı l A r s l a n

Yoxsa bəd xəbər?..

Ə b u b ə k r

Qoymur yarasını açıb sarıyaq,
Nizə pis dəyibdi.

Q ı z ı l A r s l a n

Nə deyir qoçaq?

Ə b u b ə k r

Sizi tələb edir, görmək istəyir,
Mənim hökmdara sözüm var deyir.
Amma vəziyyəti ağırdı bir az.

Q ı z ı l A r s l a n

Gətirin əsgəri, gözləmək olmaz.

(Bağbana)

Baba, o əsirin açın qolunu

B a ğ b a n

Oğlum, bu düşməndi.

Q ı z ı l A r s l a n

Bilirəm onu,
Burda qanadsızdı, o uça bilməz.

B a ğ b a n

(Kənara)

Mərdlərə can qurban, əvəzedilməz.

(Yaralı əsgəri gətirirlər, sinəsi bağlıdır)

Qızıl Arslan

Açın, sarısınlar...

Yaralı əsgər

Ağırdı yaram,
Məni bağışlayın...

Qızıl Arslan

Nəydi əhdiniz?
Siz deyin, yerinə yetirərik biz.
Köynəyi tərsinə geyibsən, qoçaq?

Yaralı əsgər

Bir əhd eləmişdim mən səngərdə, şah!
Ruza yetişsəydi əllərim mənim,
Köynəyi rastına geyinəsiydim.
O mənə vəd verib qaçdı arxayın...

Bağban

Oğul, o xaini vurdu bu xain!

(Yad adamı nişan verir)

Qızıl Arslan

(Bağbana)

Aparın! Nə desə, özün qulaq as,
Mən olan məclisdə namərd oturmaz.

Yaralı əsgər

Nə, vurdu?
Ruz öldü?
Vəfasız insan!

Qızıl Arslan

Oğlum, adın nədir?

Yaralı əsgər

Ah, Qızıl Arslan!
Sizə əbədi bir sədaqətim var,
Ruza məhəbbətim... adım, Gülaçar!

(Başından dəbilqə düşür, saçları çiyninə dağılır, ölür. Oğlan paltarında qız hamını sarsıdır)

Bağban

Ölən Gülaçardı, qalan bu dağlar,
Göydə günəş sönsün, yerdə ocaqlar.
Qəbristan yeriymiş dünya əzəldən,
Bu necə sirridir, bilməmişəm mən.
Gülaçar, açmadın, bəslədim səni,
Güllərin içində gizlədim səni.
A qızım, əlindən tutan bu əllər,

Tabutunu necə dəfn edə bilər,
Sənə laylay deyən bu dillər, qızım,
İndi ağı deyib inildər, qızım.

Qızıl Arslan

Eşqi güclü oldu sədaqətindən,
Qıza rəhmət deyin - bu eşqə əhsən!
Onu dəfn eləyin oğula layiq:
Yerdən bayraq kimi qaldırmalıyıq.
Bir qəlbin andına şahiddi dağlar,
Var olsun dünyada bizim analar!
Qəhrəman bir xalqı məhv etmək olmaz.
Tarix gələcəyə boylansın bir az!

(Çoban bayatısı eşidilir)

Dağlara dolu düşdü,
Palıdın qolü düşdü.
Həsrətin güzarına
Yarımın yolu düşdü.

Qəm gəldi, sıralandı,
Mən səndən aralandım.
Səni nişan aldılar,
Mən yandım yaralandım.

Fələk, sən darda qoydun,
Gözü yollarda qoydun.
Əlim xınalı qaldı,
Yarımı harda qoydun?!

(Əsgərlər qılınclaşa-qılınclaşa keçirlər)

Ə b u b ə k r

(Daxil olur)

Hökmdar, məktub var İnanc xatından.

Q ı z ı l A r s l a n

(Mənalı)

Hələ çıxarmayıb bizi yadından?!

(Məktubu açıb oxuyur)

Çox gözəl... qoşunlar birləşsin deyir.
Məlikə məni də görmək istəyir.
Amma bir təklifi çox maraqlıdır.

Ə b u b ə k r

Şahım, nə təklifdi?

Q ı z ı l A r s l a n

Bəlkə haqlıdır?
Yazır ki, Toğrul bəy sapdırdı bizi,
Şöhrət düşgünüdür, qadın hərisi.
Bəlkə o düz deyir, birləşsək əgər,
Azalar Vətənə dəyən zərbələr.
Mənim də istəyim bu olub hər vaxt,
Mahmuda rütbə də istəyir ancaq,
Verdiyi şeylərin o, əvəzinə.
Yazır ki, sizindi daş-qaş, xəzinə.

Mənə kəniz olmaq arzusundadır,
gəlişin niyyəti bəlkə bundadır?
Oğul bağışlamaq istəyir mənə,
Qız da bağışlasa pis deyil mənə.
Uşaqsız yaşamaq dünyada qəmdir,
Bəlkə də bu, mənim öz faciəmdir.

Ə b u b ə k r

(Kənara)

Məlikə İnancla?.. Sancdı ürəyim,
Gör harda yanılıb aldanır əmim.

Q ı z ı l A r s l a n

Necə, Əbubəkr, məram baş tutar?

Ə b u b ə k r

Siz hökmdarsınız, sizindi qərar.

Q ı z ı l A r s l a n

Oğlum, mürəkkəbdi dünya əzəldən,
Qaldıran əl gərək düşəni yerdən:
İnanc biz tərəfdə vuruşsa əgər,
Qoşun da, ölkə də tamam birləşər.
Düşmənlər araya təfriqə salmaz,
Bu elə təklifdi, yox demək olmaz.
Bəlkə məhkəməyə verək sonradan?

(Pauza)

Amma şənimizə sığmaz heç zaman.
Cahan Pəhləvanın adı üstədir.
O düşmən olsa da, indi üzdədir.
Axtar Məlikəni, öyrən hardadır?

Ə b u b ə k r

Oğlu Mahmud ilə bir çadırdadır,
İcazə istəyir görüşmək üçün.

Q ı z ı l A r s l a n

De gəlsin,
Gəlsinlər.
Açılsın düyün.

Ə b u b ə k r

(Kənara)

Qədimdən, şah Edip faciəsindən,
Əmim söz düşəndə danışır hərdən.
Deyir bir çobanın səhv hərəkəti,
Törətdi bir evdə min fəlakəti.
Korinf dağılmazdı bəlkə də o vaxt.
Özü Məlikədə yanılır ancaq.
Mən desəm onsuz da eşitməyəcək.
Ürəyi yumşaqdı, rəhm eləyəcək.

(Gedir)

Qızıl Arslan

Məlikə vətəni bölməzdən qabaq,
Qoşunu böldülər... o boyda tamah!

İnanc Xatın

(Əbubəkr və oğlu Mahmudla daxil olur)

Şahım, hasil olsun hər muradınız,
Hörmətə layiqdi sizin adınız.
Gəlmişəm mən sizin ayağınıza,
Gözüm kölgəlidir, dilim lap qısa.
Girov gətirmişəm oğlum Mahmudu,
Cahan Pəhləvanın doğma oğludu.

Qızıl Arslan

Qardaşım oğludur.

İnanc Xatın

Əsirik sizə
Pənah gətirmişik ürəyinizə.

Qızıl Arslan

Mahmud — Əbubəkr versin əl-ələ,
Gedək Pəhləvanın məramı ilə.

(Əbubəkr və Mahmud çıxırlar)

Amma Toğrul bəylə gizli qəsdiniz
Bizə ağır oldu...

İ n a n c X a t ı n

Doğru dediniz,
Bir səhvdi, gəldim ki, rəhm edəsiniz.
Ordu qabağında siz gedəsiniz.
Fələk şərbətimə zəhər qatıbdı,
Özüm oyaq ikən, bəxtim yatıbdı.

Q ı z ı l A r s l a n

Dincəlin, ağırdı bu həyəcanlar.

(Kənara)

Dünyanın qəribə töhfələri var,
Həyatda ən ağır cəzanı bəzən,
Kiminsə yerinə özün çəkirsən.

İ n a n c X a t ı n

Cəzadan ağırdı, şahım, mərhəmət,
Siz də danmazsınız bu hissi əlbət.
Qadını cəbrlə deyil, hökmdar,
Bəzən nəzakətlə məhv etmək olar.
Sizdəki bu qürur ümid doğurur,
Neyləyim, mənim də taleyim budur.
Yola çıxmamışam duzsuz, çörəksiz,
Ürəyim dilsizdi, dilim ürəksiz.
Özüm ağırlıqda şahım, dünyada
İki kirpiyim var... qalxmayır o da.

Qızıl Arslan

Burda nə günahı kirpiyinizin,
Mən ki, xətrinizə dəymədim sizin.

İnanc Xatın

Gərək dəyəydiniz burda, hökmdar,
Zor sevir, güc sevir bütün qadınlar.

Qızıl Arslan

(Kənara)

İnancın məkri var, gözəlliyi var,
Xəzinə üstündə yatır ilanlar.

(Gülümsəyir)

Məncə, bu yalandır.

İnanc Xatın

Həqiqətdi, şah.
Qadına yalan da yaraşır, ancaq
Kişiyə yaraşmır.

Qızıl Arslan

Kişiyə olmaz.
Yoldan gəlibsiniz, dincəlin bir az.

(Pauza)

İ n a n c X a t ı n

Üzüm gətirmişəm... dünyada məşhur
Naxçıvan üzümü.

Q ı z ı l A r s l a n

Sizə təşəkkür.
Şərur düzlərinin dadı, şirəsi.
Ən yaxşı şəfadır adi giləsi.

İ n a n c X a t ı n

İsfahan alması... alın, hökmdar:
Nemətdir, burda da yeməli olar...

(Pauza)

Bu da "Xosrov-Şirin", tanış olun siz,
Bir vaxt özünüz də istəmişdiniz.
Cəbhədə, səngərdə vaxt tapıb hərdən,
Oxuyun sehrli səhifələrdən.
Şair Pəhləvana bağışlamışdı.

Q ı z ı l A r s l a n

Bilirəm, Nizami mənə tanışdı,
Mən sizi bilmirəm, məncə Nizami
Böyük sənətkardı Firdovsi kimi.

İ n a n c X a t ı n

Firdovsi dediniz?

Q ı z ı l A r s l a n

Bir az da artıq,
Biz hələ bu xalqı tanıtmamışıq.
Hələ qabaqdadır ən vacib işlər,
Qatır başımızı hərbi yürüşlər.
Sözü biz qılıncla deyirik, ancaq,
Söz də qılıncımız olacaq bir vaxt.
Sabah tariximiz varaqlanacaq,
Gələcək keçmişlə maraqlanacaq.

İ n a n c X a t ı n

Görünür.
Hər şey öz vaxtında dəyişir, dönür,
Uzaq keçmişini bilməyən bir xalq,
Gözübağlı gedir sabaha ancaq.

Q ı z ı l A r s l a n

Xalqın taleyini düşünən bir ər,
Olmasa, əlbəttə, xalq itə bilər.

İ n a n c X a t ı n

Xəyaldır dünyada sizi yaşadan.

Q ı z ı l A r s l a n

Məncə, müqəvvadır xəyalsız insan.

İnanc Xatın

Xəyalla mənim də qəlbim doludur.
Amma nə olsun ki, qismətim budur.

Qızıl Arslan

Sizdədir gözəllik, hüsn-lətafət,
Hüsnün düşmənidir amma bu xiffət.

İnanc Xatın

Kişi qarşısında bəzən bir əda,
Oyadır qadında qadınlığı da.
Görünür qadında hüsn-lətafət,
Onu siz gördünüz, hökmdar fəqət.

Qızıl Arslan

Bu səngər, bu hücum, bu döyüş hökmən,
Hissimi, duyğumu alır əlimdən.

İnanc Xatın

Sizə kəniz olmaq səadətimdi,
Asan bildiyim şey necə çətindi!

Qızıl Arslan

Zərif qəlbinizi alqışlayıram,
Sizə üzüyümü bağışlayıram.

(Barmağından çıxarıb verir)

Ə b u b ə k r

(Daxil olur)

Toğrul fil göndərib bizi çaşdırır,
Fil üstə güzgülər göz qamaşdırır.

Q ı z ı l A r s l a n

Filin qabağını kəsir piyada,
Şahmat oyununu gətir sən yada.
Çıxart piyadanı, bir məqam axtar.

İ n a n c X a t ı n

Doğru buyurdunuz, böyük hökmdar.

Q ı z ı l A r s l a n

Güzgü şüşədəndi, döyüşçü - almaz,
Almazın ağzına şüşə dayanmaz.

Ə b u b ə k r

Hökmdar, üçkünclü dəmir tikanlar
Yollara tökülüb... qandı o yollar.
Karıxıb düşmənin atı, dəvəsi.

Q ı z ı l A r s l a n

Ən böyük qüvvədir döyüş hiyləsi.

Ə b u b ə k r

(Üzüyü İnanc xatının barmağında görür)

Əmim üzüyünü verib yadigar,
Böyük səhv eləyir böyük, hökmdar.

(Gedir)

M a h m u d

(Daxil olur)

Toğrul bəy təklənib, sərxoşdu murdar,
Söyür, təhqir edir sizi hökmdar.

Q ı z ı l A r s l a n

(Fikirli)

Nəhayət, səngərdə gəldik üz-üzə,
Gəlsin, qılınc çalaq öz kökümüzə.
Qılınclar şimşəkdi, qalxanlar bulud,
İldırım çaxacaq bir azdan, Mahmud.

(Gedir)

M a h m u d

Bizdən Əbubəkr şübhələnibdi,
Elə bil üstünə od ələnibdi.
Bir az əsəbidi, bir az da məhzun.

Toğrula yazılan məktubunuzun
Üzünü xəlvəti köçürüb, ana,
Əbuşər çatdırıb Qızıl Arslana.

İ n a n c X a t ı n

Dəhşət! Halal olsun Qızıl Arslana,
Üzümə vurmadı.

M a h m u d

Mən getdim, ana.
Üz-üzə dayanıb indi ordular,
Qılınc döyüşünə girib hökmdar.

İ n a n c X a t ı n

(Tək)

Qaynayır qanımda yenə bir qisas,
Buza basdırılsam, odum soyumaz.
Qadın dərk eləsə özünü əgər,
Qorxudan bəlkə də özündən hürkər.
Ağrıya dözəndi, təhqirə həssas.
Qoy gəlsin Toğrul bəy... o bunu duymaz.
Məni bağışladı burda hökmdar,
Ah, onun nə böyük mərhəməti var!
Tanrı ürək verib Qızıl Arslana,
Gözəllik, boy-buxun veribdi ona.

(Bağban gəlib qulaq asır)

Toğrul qalib gəlsə, kənizi mənəm,
Toğrul məğlub olsa, ona düşmənəm.
Bir yandan ehtiyat, bir yandan istək,
Sevgim nifrətimlə əkizdir, demək.
Dilimdə sədaqət, ürəyimdə kin,
Nə kinin quluyam, nə sədaqətin.

(Gedir)

B a ğ b a n

Bu qadın bəzəkli ilana bənzər,
Səsində bal ətri, dilində zəhər.
Ən dərin quyudur, qadın qucağı,
Düşdünmü, görünməz ucu-bucağı,
Fars qızı İnancın məkri, niyyəti.
Xaraba qoyacaq bu məmləkəti.

(Gedir)

Ə b u ş ə r

(Daxil olur)

Məlikə İnanca sözüm yox daha,
Gör haraya gəlib... düz qərargaha.
Gözünə görünsəm - yenə tor qurar,
Gözündən yayınsam - gözümdən vurar.

(Pauza)

Əbuşər, məqamdı, hərəkət eylə,
Bir xəncər yarası kifayət eylər...

(Xəncəri siyirib gedir)

İ n a n c X a t ı n

(Daxil olur)

Dayan! Qorxuludur belə cəsarət.
Nə mükafat düşür sənə, nə xələt.
Tələsmə.

Ə b u ş ə r

Geciksəm, indi bir qədər,
Mənə rəhm eləməz o ulu göylər.
Səadət taxtına çıxar fəlakət.

İ n a n c X a t ı n

Fəlakət deyilmi bəs bu cinayət?

Ə b u ş ə r

Sənin gözlərində cinayətdi bu,
Mənim gözümlə bax - bir xidmətdi bu.

İ n a n c X a t ı n

Gör harda qadına əl qaldırırsan?

Ə b u ş ə r

Tək qadın olsaydın, dəyməzdim, inan.

İ n a n c X a t ı n

Əlində titrəyir xəncər elə bil?

Ə b u ş ə r

Titrəyən dünyadır, bu xəncər deyil,
Sənin nəzərində əsir bu həyat,
Mənim nəzərimdə donub o yüz qat.

İ n a n c X a t ı n

Ruza, Ayəbaya qəsd elədilər,
Canını qurtardı Mahmud birtəhər,
Unutdu vədini Toğrul bəy, əfsus.

Ə b u ş ə r

Sən məni çaşdırma!

(hücum edir, İnanc Xatın qışqırır)

M a h m u d

(Daxil olur)

Tərpənmə, casus!
Qılınc sancılacaq murdar sinəndən.

(Əbuşər çaşır, əlindən xəncər düşür, İnanc Xatın götürüb onun köksünə sancır)

İ n a n c X a t ı n

Al!

Ə b u ş ə r

Canım qur...tardı, if...ritə.., səndən.

(Ölür)

T o ğ r u l b ə y

(Daxil olur)

Qılınc zərbəsini dadsın qoy əmim,
Biləyim səngərdə bərkiyir mənim.
Gəlsin, mən səlcuqam, o atabəylər,
Bizim haqqımızda başqadı rəylər.
Bizim torpaqları mən almalıyam,
Atamın yurdunda mən qalmalıyam.
Ona kömək durdu Müctəhid Xalis,
Bağdad qoşununu məhv elədik biz.
İraq hakiminin qəsdi-qərəzi,
Bir də İnanc xatın... qadın hiyləsi!

Q ı z ı l A r s l a n

(Daxil olur)

Mən əl qaldırmazdım bəlkə də heç vaxt.

T o ğ r u l b ə y

Mən tələb edirəm!

Q ı z ı l A r s l a n

Di bərk dur, qoçaq!

T o ğ r u l b ə y

Qılıncın uzundur.

Q ı z ı l A r s l a n

Ömür gödəldir.

T o ğ r u l b ə y

Mənim qılıncımın dəstəyi ləldir.

Q ı z ı l A r s l a n

Dəstəyi hərlədən əl olsun gərək.

T o ğ r u l b ə y

Əl məndə.

(Yıxılır)

Q ı z ı l A r s l a n

Toğrul bəy!

T o ğ r u l b ə y

Dayan!

Q ı z ı l A r s l a n

Qalx görək,
döyüşür səngərdə polad ilə lələ.

(Toğrulun qılıncı düşür)

Lələn sülh istəyir, poladım əcəl!
Cahan Pəhləvandan qalıb yadigar.

(İnanc Xatın qılıncı götürüb Toğrula verir)

T o ğ r u l b ə y

Bu, səlcuq babamdan...

Q ı z ı l A r s l a n

(İnancı göstərir)

Sən ona yalvar.

(Döyüşürlər)

Qılıncı mənə də o verdi, – İnanc,
Sənə də!
Bir əldən hər iki qılınc.

İ n a n c X a t ı n

(Kənara)

İki qılınc ilə vuruşur Arslan,
Sözü də qılıncdır, keçir ortadan.

(Qızıl Arslan Toğrulun qılıncını vurub salır və ayağını qılıncın üstünə qoyur).

Q ı z ı l A r s l a n

Bu qədər qırğınlar, qanlar, ölümlər,
Xəyanət, iftira... Toğrul bəy, yetər!
Xoyu, Urmiyanı, Uşnu, Səlması
Virana qoydunuz... sözün qısası.
Bütöv bir dövləti bölmək, dağıtmaq,
Kim sənə haqq verib?!
Qanunlar, ya xalq?!

M a h m u d

Şahım, vurasıydı məni Yad adam,
o namərd adamla bu namərd adam.

(Toğrul bəyi nişan verir)

İ n a n c X a t ı n

Bəs əhd-peymanın?!

T o ğ r u l b ə y

Barı, sən dayan,
Sən olan torpaqda nə əhd-peyman?!

İ n a n c X a t ı n

Tabe ol, Toğrul bəy, ənənə budur,
Xalının üstünə ayaq bas, buyur!
Baş əy hökmdara!

M a h m u d

(Qılıncını çıxarır)

Biz olan torpaqda?..

Q ı z ı l A r s l a n

Belə yaramaz.
Qəhrəm qalasında qəhr olsun bir az.

(Toğrul bəyi aparırlar)

İndi ləngiməyin, qoşuna elan:
Hədiyyə verilsin mənim adımdan.
Düz qırx gün, qırx gecə məclis qurulsun,
Qoy cəngi çalınsın, keflər durulsun...
Bayraqlar asılsın, bəzənsin ölkə,
Əbədi sülh oldu, dünyada bəlkə.
Sən də Əbubəkr!
Gəncəyə - vali!
Qurub-yaradandı orda əhali.

Səlcuq hökmdarı Məhəmməd Tapar,
Orda qazanmışdı hörmət, etibar.
Ağıllı rəhbərdən bizim torpaqda,
Razılıq eləyib zaman da, xalq da.
Elə ki sözündə bir yalan olub,
Ölkədə ya qırğın, ya talan olub.
Gəncə qapıları...
Fikirləş görək.
Özgə qapılarda qalmasın gərək.

(Bağbana müraciətlə)

Gəncədə bir bağ sal "Bağban" adında,
Min il bu ellərin qalsın yadında.

Ə b u b ə k r

(Cibindən kağız çıxarır)

Hökmdar, zülmdən qurtardı ellər,
Qələbə naminə təbrik edirlər.
Bağdad hakiminin hökmü, qərarı:
Xüsusi qılıncla sultan paltarı!

(Alqışlayırlar)

Çaparlar gəlibdi Çindən, Misirdən,
Hinddən, Suriyadan, Əlcəzairdən.
Buyurun, uzaqdan gələn qonaqlar
Sizə minnətdardı, böyük hökmdar.

(Qızıl Arslana sultan paltarı geydirirlər)

İ n a n c X a t ı n

(kənara)

Çatdı Qızıl Arslan öz niyyətinə,
Bir rütbə vermədi Mahmuda yenə.
Düz başa düşmədi o niyyətimi
Gör harda tapdadı heysiyyətimi.

(Uzaq elli elçilər adətə görə əyilib hökmdarın qarşısında torpağı öpürlər)

Q ı z ı l A r s l a n

Gedək, paytaxtımız gözləyir bizi,
Orda bayram edək qələbəmizi.
Yəqin, İnanc Xatın, bütün Naxçıvan
Səndən nigarandı, məndən nigaran.

(Gedirlər)

B a ğ b a n

(Üzüyü İnanc Xatının barmağında görür)

Qalib hökmdara, ey tanrı, yol aç!
Onu əsir edib aparır İnanc.

III PƏRDƏ

I ŞƏKİL

Atabəylər sarayı. Toy məclisindən qabaq.

S a l n a m ə ç i

(Daxil olur)

Qızıl Arslan İraq səltənətinin təkbaşına hakimi oldu. O, Azərbaycanı, Aranı, Həmədanı, İsfahanı hakimiyyətinə qatdı, bütün vilayətlərilə birlikdə Reyə yiyələndi. Farsın və Xuzistanın hakimləri də öz növbəsində ona tabe idilər.

Məlikə İnanc Xatın Qızıl Arslandan narazı olanların hamısını əvvəlcədən ələ almaq niyyətinə düşdü. O dedi ki, biz Toğrul bəyə qarşı vuruşmaqda haqsızlıq eləmişik. İndi heç kəs daha bizə inanmaz. Qibleyi-aləm Qızıl Arslanın özü bizimlə əlaqəsini kəsənə qədər biz onunla əlaqəni kəsməliyik. O artıq müxtəlif dövlət vəzifələrində bizim adamları öz adamları ilə əvəz etməyə başlayıb.

(Gedir)

İ n a n c X a t ı n

(Mahmudla daxil olur)

Mən sənə dedim ki, əmin yad deyil,
Amma taleyindən narahat deyil.
Axırda o tamam unutdu səni,
Yenə Əbubəkr aldı Gəncəni.
Aran torpağında o hakim oldu,
Əvvəli kim idi, sonu kim oldu.

Gəldilər, qalxdılar, dövlət oldular,
Şanını itirdi şanlı ordular.
Sənin ata baban qul idi, ağ qul,
Şəmsəddin Eldəniz... o ac və yoxsul!
Satın alıbdılar qul bazarından,
Qurtarıb dünyanın dərd-azarından.
Mömünə xatını aldığı gündən,
Səlcuqlar çəkindi Atabəylərdən.
Qoy olsun, başqadır hökmü həyatın,
O Mömünə Xatın... Mən İnanc Xatın!
Fars qızı İnancam, qanım tərtəmiz,
Əslimiz, nəslimiz, nəcabətimiz!
Sənin ata baban ana babamı
Öldürüb... Qoymaram yerdə bu qanı.

M a h m u d

Əmimlə toyunuz başlayır, ana,
Gedib xəbər çatar Qızıl Arslana.

İ n a n c X a t ı n

Qəhrəm qalasına... indi birbaşa.
Ayağın yollarda dəyməsin daşa.
Götür.

(Pul kisəsi verir)

Ver, sonradan istə açarı,
Özün bu məktubu apar içəri.
De ki, darıxmasın... get dediyimtək,
Əmindən görmədik, Toğruldan görək.

M a h m u d

(Gedə-gedə)

Toğrul bəy öldürtmək istədi məni,
Mənim öz taleyim gözlədi məni.
İndi ərə gedir əmimə anam,
Ona məktub yazır...
Heç baş açmıram.

İ n a n c X a t ı n

(Tək)

Mən indi qayıdıb bəzənəcəyəm,
İndi mən hamıya küsənəcəyəm.
Cavahir yanacaq barmaqlarımda,
İpək sürünəcək ayaqlarımda.
Ətir bədənimi, sürmə gözümü...
Gərək tanımayım özüm-özümü.
Tanınsa adidir... tez sınar qadın,
Tanınmaz olanda tanınar qadın.
Əkiz bacıdılar qadınla torpaq,
Qadın uşaq doğur,
Hər şeydən qabaq
Qadın doğmalıdır öz-özünü də,
Gözəl cəmalını, öz hüsnünü də.

(Barmağındakı üzüyünü göstərir)

Üzüyün oduna gizli yanmışam,
Ayaqdan yox, əldən qandallanmışam.

1 - c i k ə n i z

Məlikə, hökmdar soruşur sizi.

2 - c i k ə n i z

Gözləyir mübarək qədəminizi.

B a ğ b a n

(Daxil olur)

Toyuna çağırıb məni hökmdar,
Ondan hörmət gördüm, bir də etibar.
Gərək heç bu nikah baş tutmayaydı,
Cahanın ruhunu unutmayaydı.
Cır tutla xar tutun peyvəndi tutmaz,
Qartal yuvasından qarğa uçurtmaz.
İgid könül versə namərdə əgər,
Axırda qılıncı özünə dəyər.
Burda ya Cahanın vəsiyyəti var,
Ya Qızıl Arslanın öz niyyəti var.
Ya başqa bir düyün... bir də məsəldir,
Tac başda olsa da, saxlayan əldir.
Məlikə İnancın toyuna ancaq,
İkinci dəfədir gəlirəm, allah!
Üçüncü toyuna ya İnanc, ya mən!
Ürək gözdən çəkir, göz gördüyündən.

İ n a n c X a t ı n

Hə... Gərək bu gecə, bu gecə hökmən,
Məhbəsdə görüşəm Toğrul bəylə mən.

(Gedir. Rəqqasələr gəlirlər. Rəqs.
Bir azdan Qızıl Arslan və İnanc Xatın daxil olurlar.
Şərbət verilir).

O z a n

(Onları qarşılayır)

Torpağının altı vardı,
Üstü dövlət, bəhrə-bardı.
Eldənizdən yadigardı
Atabəylər dövlətimiz.

Cahan Pəhləvan - Arslandı,
Qızıl Arslan - Pəhləvandı,
Əbubəkr - qəhrəmandı.
Var olsun bu qeyrətimiz,
Atabəylər dövlətimiz!

Azərbaycan, Gəncəbasar,
Ozan deyər, tarix yazar,
Zaman bizə qulaq asar,
Unudulmaz xidmətimiz,
Atabəylər dövlətimiz
Azərbaycan dövlətimiz.

Q ı z ı l A r s l a n

Bu böyük sənətə heyranam, düzü
Ozan ovsunlayır hər adi sözü.

Ə c ə m i

Kimin sinəsində belə nəfəs var?!
Nə belə nəğmə var, nə belə səs var.

B a ğ b a n

Mən də bir söz deyim şahın yanında,
Günəşin odu var onun qanında.

Q ı z ı l A r s l a n

Buyur, qoca bağban, söz sənindir.

B a ğ b a n

Mən indi gördüm ki, ömür ikidir -
Biri sağlığında, biri sonradan.
Gərək çıxarmasın heç səni yaddan
Bütün Azərbaycan, Aran torpağı;
Sönmədi bu yurdun odu-ocağı.
Demişdin bağ salım "Bağban" adında
Min il bu ellərin qalsın yadında.
Su içib göyərdi torpaq əlindən,
Oğul, bağ sənindi, bağbanı sənsən.

(Alqışlayırlar)

İ n a n c X a t ı n

(Kənizlərə müraciətlə)

Şirin şərab verin əlahəzrətə,
O heyran qalıbdı sözə, sənətə.

1 - c i k ə n i z

Qibleyi-aləmə göz qoyuram mən,
Piyalə bayaqdan düşmür əlindən.

2 - c i k ə n i z

Məlikə içirdir... gərək az içsin.

3 - c ü k ə n i z

Yenə bir düyün var sarayda yəqin.

1 - c i k ə n i z

Məlikə düyündü başdan-ayağa,
Yüz il azlıq edər onu açmağa.

2 - c i k ə n i z

Yəqin bəyənmədi Ozan babanı.

Ə c ə m i

(Onu eşidir)

Hər ürək dərk etməz sazda havanı.
Doğma ananı da duymaq üçün sən,
Gərək süd əməsən onun döşündən.
Ana laylasına yatasan gərək,
Ata nəfəsinə oyandığıntək.
Dilimiz yaranır süddən, sümükdən,
Bunsuz öz-özünə möhtacdır vətən.

Q ı z ı l A r s l a n

Nizami hardadır, gözümə dəymir?

Ə b u b ə k r

Xəstədir, hökmdar, o gələ bilmir.
Deyir bağışlasın şanlı hökmdar,
Bir qəzəl göndərib, qoy oxusunlar.

O z a n

"Ay üzlü nigarım, kimə mehman olacaqsan?
Bir söylə, kimin şəninə şayan olacaqsan?
Şahlıq çətiri var başın üstündə bu axşam,
Ənbər çətirinlə kimə sultan olacaqsan?
Şəkkər demirəm mən sənə, ondan da şirinsən,
Dilbər, necə bir bəxtəvərə can olacaqsan?
Zülmət gecə, sən nurlu çıraq, bəd gözə gəlmə,
Ey abi-həyat, sən kimə canan olacaqsan?
Getdin, necə bəs tab eləsin hicrə Nizami,
O xəstə ikən, sən kimə dərman olacaqsan?"

Q ı z ı l A r s l a n

Nə qədər incədir sözü, rübabı,
O sual verirsə, yoxdur cavabı.
Onsuz da Gəncəyə səfərimiz var,
Orda görüşərik, ona xoş olar.
Burda Əcəmini görürəm, əhsən!
Bizi sən türbəylə sehrləmisən.
Anamız Mömünə Xatının adı,
Sənin sənətinlə tarixdə qaldı.

Əcəmi... Nizami... dövrün məşəli!
Sən quran əlisən, o yazan əli.
Bu iki sənətkar burda doğuldu,
Daşımız, sözümüz qimyətli oldu.

(Hamı baş əyir, musiqi çalınır)

İ n a n c X a t ı n

(Qızıl Arslana şərab verir)

Bizi bağışlasın məclisdəkilər,
Dincəlmək istəyir şahım bir qədər.
Görünür çox içib, yatsa ayılar.

Ə c ə m i

Gecəniz xeyrə...

(Dağılışırlar)

İ n a n c X a t ı n

Xeyir-dualar.

(Hökmdar yatağa gedir, işıq sönür)

Q ı z ı l A r s l a n

(Qaranlıq səhnədə)

Oğul bağışlamaq niyyətindəsən,
Bu mənim arzumdu, Məlikə, əhsən!

Öz qanım, öz səsim, öz adım olsun
Mənim məndən sonra həyatım olsun.
Uşaqsız bir otaq, bir ev dünyada
Boşdur,
O nə qədər zəngin olsa da.
Lakin bir istək var, bir də namus, ar.
Namusa səsləyib bizi babalar.
Yox, Cahan Pəhləvan, şanlı hökmdar,
Tökülüb ələnsin üstümə dağlar,
Qürbət ölkələrə düşsün güzarım,
Ayaqlar altında qalsın məzarım,
Sənin qadınına toxunsa əlim.
Sənin qılıncındı əlimdə mənim.
Bu nikah bambaşqa bir nikah idi -
Vətəni birliyə çağırmaq idi.

II ŞƏKİL

H ə b s x a n a

T o ğ r u l b ə y

Burda tərsinədir qayda-qanunlar,
Gecə ayılırlar, gündüz yatırlar.
Dünya bir dənizdir, məhbəs bir ada.

(İstehza ilə)

Məni qoruyurlar məhbəsxanada.
Yəqin azadlıqda öldürərdilər?!

(Əli ilə dörd divara işarə edir)

Əmimin qayğısı mənə... bu qədər!
O boyda səlcuqlar səltənətindən
Mənə məhbəs boyda bu yerdi düşən.
Budur Toğrul bəyin tənha qəbiri -
Həyatda ölüyəm, qəbirdə diri!
Yox... Hələ özüməm küllü-ixtiyar,
Tac Səlcuq babamdan qalıb yadigar.

İ n a n c X a t ı n

(Daxil olur)

Gəldim mən, Toğrul bəy, adın dilimdə,
Həyatım, ölümüm sənin əlində.

Orda yatızdırdım Qızıl Arslanı,
Burda oyatmışam bir pəhləvanı.
Orda əsir idim, burda da əsir.
Əsirlik sənինlə necə gözəldir.
Kaş dünya əbədi məhbəs olaydı,
Ya məhbəs dünyayla əvəz olaydı.
Toğrul bəy...

T o ğ r u l b ə y

Məlikə, bu, möcüzədir.

İ n a n c X a t ı n

Qadın olan yerdə möcüzə nədir!
Gözündə şübhə var, görünmür sonu.
Qadından şübhələn, amma sev onu,
Şübhə doğurmursa o, qadın deyil,
Qadınsız bir həyat həyatın deyil.

(Pauza)

Sənin qollarının arası hökmən,
Genişdi səlcuqlar ərazisindən.
Aç, orda dincəlim, yoxdu qərarım!
İsti yatağım ol, soyuq məzarım!
Daş-qaşı payladım, aldılar, Toğrul.
Yeganə sərvətim sənindi... Cəld ol!

(Sinəsini açıb onun qolları üstə yıxılır)

T o ğ r u l b ə y

(Kənara)

Məlikə istəyir taxt ilə tacı,
Lakin Qızıl Arslan qoymaz İnancı.
Məlikə səlcuqlar tərfindədir,
Onda da bilirəm məramı nədir.

İ n a n c X a t ı n

Mahmuda verdiyin sözü unutma,
Qalxanda budaqdan tək əlli tutma.
Sabah Qızıl Arslan səfər üstədir,
Özü yox, taleyi yəhər üstədir.
Onun çadırında görüşməliyik,
Biz ya qalxmalıyıq, ya düşməliyik.

T o ğ r u l b ə y

(Onu qucaqlayır)

Heyranam, ilahi, mən bu xilqətə,
Həm eşqə çağırır, həm xəyanətə!

III ŞƏKİL

Aran torpağında Qızıl Arslanın çadırı.

Q ı z ı l A r s l a n

Açın Azərbaycan xəritəsini,
Duyduqca torpağın yaz nəfəsini,
Deyirəm, xoş gəlir bu yurda bahar.
Mənim arzularım, diləklərim var,
Arxlar — səhralara, zəmilər — düzə,
Həyat insan kimi qoy gülsün üzə.

İ n a n c X a t ı n

Qəlbi fərəhlənib uşaq qəlbitək,
Ən xoşbəxt çağıdır Azərbaycanın.

Q ı z ı l A r s l a n

Qızıl sikkələrə həkk olsun gərək,
İndi Qızıl dövrü Azərbaycanın.
Oğlum, Əbubəkr, töhfə et bizə.
Şairi dəvət et məclisimizə.
Gəncədə, biz onun torpağındayıq,
Çoxdan Nizaminin sorağındayıq.

Ə b u b ə k r

Baş üstə, dəvəti çatdırar çapar,
Bu görüş şairə daha xoş olar.

(Çapar göndərirlər)

Q ı z ı l A r s l a n

Gəncədən nə xəbər?

Ə b u b ə k r

Şanlı hökmdar,
Sizə duaçıdır ellər-obalar.
Sizdəki bu ürək, bu qayğı, hünər
Aran torpağının dilində əzbər!
Şahım, üzə gülür indi küçələr,
Qırmızı kərpiclə bəzənir şəhər.
Tikilir Gəncədə Yeni Gəncəmiz,
Dağa yol çəkirik, şəhərə kəhriz.
Ayrıca bir şahmat mədrəsəmiz var,
Güllərdən, otlardan dərmanxanalar.
Şahım, əlyazması toplayır şəhər,
Pompeyin vaxtından bu vaxta qədər.
Əziz oğlu kimi sevirlər Sizi,
tarixə yazırıq taleyimizi.

Q ı z ı l A r s l a n

Vergili, Romalı böyük sənətkar
Arazdan bəhs edib... onu da axtar.
Məncə, Əbubəkr, Naxçıvan gərək
Kərpicdən tikilsin Gəncədəkitək.
Şəhər tamamlansın bu gündən belə,
Mömünə Xatının məqbərəsilə.

Ə b u b ə k r

Əcəmi bizə də qol-qanad verib,
Gəncə xalısına tərtibat verib.
Şahım, Əcəmidən xahişimiz var, -
Bir abidə tiksin Gəncədə memar.

Q ı z ı l A r s l a n

Əcəmi bəyənər niyyətinizi,
Ona çatdıraram dəvətinizi.
Gəncə xalısı da abidənizdir.

Ə b u b ə k r

Hökmdar, bu sizin xidmətinizdir.

Q ı z ı l A r s l a n

Böyük sənətkardı, heyranam ona.
Gəlin məqbərənin açılışına.
Gəlin, ləngiməyin, siz də Gəncədən,
Ustad Əcəmiyə söz vermişəm mən.
Yaxşı, Əbubəkr, necədi bağban?

Ə b u b ə k r

Bağına ad qoyub o, "Qızıl Arslan".

(Pauza)

Şahım, bir şeyi də çatdırım sizə -
Qasid göndərmişdim özüm Tiflisə.
Gəncə qapıları qalır o vaxtdan.

Q ı z ı l A r s l a n

(Fikirli)

Gəncə zəlzələsi baş verən zaman,
Gəlib, camaata qəsd eləyiblər,
Bir matəm nəğməsi bəstələyiblər.
Daş-qaş, cavahirat axtarıbdılar,
Gəncədə var-dövlət axtarıbdılar.
Nə xahiş, nə minnət, nə yalvar-yaxar,
Gedəndə qapını aparıbdılar.

Ə b u b ə k r

Şahım, bir hekayət nəql elədilər,
Batıb zəlzələdən o gecə şəhər.
Ordular Gəncədən qayıdan zaman,
Bir gənc əl çəkməyib o darvazadan.
Arada şəhərin zəlzələsindən,
Möhkəm zədə alıb o, sinəsindən.
Qanı axa-axa qalxıb ayağa,
Təzədən yıxıblar onu torpağa...

Q ı z ı l A r s l a n

(Bərk tutulur)

Danışıq aparın qonşularla siz,
Gərək tapdanmasın heysiyyətimız.
Hörmət, mədəniyyət xətrinə gərək,
Kiməsə baş əyib, təzim etməyək.
Yaşayır dünyada xeyir də, şər də,
Hikmətlə uyuşmur heç vaxt ədavət.

Tarixə hörmət var həyatda, bir də
Hörmətə tarixi bir münasibət.
Amma qonşularla gərək dil tapaq.
Nifaq yox, ittifaq —
hər şeydən qabaq!

(Keşikçi içəri girir və Əbubəkrə nə isə deyir.)

Ə b u b ə k r

Hökmdar, Nizami təşrif buyurur.

Q ı z ı l A r s l a n

Taleyin ən böyük töhfəsi budur,
Aran görüşümüz hər şeyə dəyər,
Bir az sakit olsun məclisdəkilər.
Nə kef, nə musiqi, nə şərab, nə səs,
Böyük Nizaminin başı götürməz.

(Şair ozanla birlikdə daxil olur)

Şairlə bir görüş, ya adi söhbət,
Allaha xidmətdi, bəndəyə hörmət.

(Pauza. Nizaminin öz şeirindən deyir)

"Bir ürəkdə olsa iki sevgili.
İkiürəklinin düz olmaz dili.
İki bürclü olsa, Ütarid yanar,
Günəşsən, günəşin bircə bürcü var..."

N i z a m i

Mən də duaçıyam sizə, hökmdar,
"Qapında sütundu saraylı şahlar".

İ n a n c X a t ı n

Şairə ehtiram adətimizdi,
Hər sözü — sözümüz, söhbətimizdi.
Buyurun, əyləşin.

Q ı z ı l A r s l a n

Nizami, buyur.
Cahan Pəhləvanın fərmanı durur.
Onu, böyük şair, gətirmişəm mən,
Burda təqdim edim özünə, şəxsən.

(Fərmanı gətirirlər)

Həmdünyan adında bu kənd, bu xələt,
Sənə məhəbbətdi, əsərə qiymət.
"Xosrov-Şirin" üçün mükafatındır.
Zamanın şöhrəti, sənin adındır.
Səngərdə oxudum əlyazmasını,
Duydum mən ürəyin eşq havasını.
Kəlamlar işləyir iliyə, qana.

İ n a n c X a t ı n

Mən onu apardım Qızıl Arslana.
Məndən istəmişdi oxuyum deyə,
Cahandan yadigar, sizdən hədiyyə.

N i z a m i

Hökmdar, böyükdür səxavətiniz,
Ən böyük dövlətdir bu hörmətiniz.
Sizdəki hünəri, qüdrəti gərək,
Biz sənət dililə göstərə bilək.

Q ı z ı l A r s l a n

Onda... yaratdığın yeni əsərdən,
Bizə parça oxu, sevinsin vətən.
Şairin dilindən şer eşitmək,
Əvəzsiz bir nemət sayılsın gərək.

N i z a m i

(Oxuyur)

"Ey könül, böyüklük almadan ələ,
Böyüklər yanında oturma hələ.
Dindirən olmasa, danışma hədər,
Kəsəri yavaş vur, sınmasın gövhər.
Gözsüzə yaramaz göstərmək çıraq,
Görməyən bir gözə nə piltə, nə yağ?!
Ey inci, üzə çıx söz dənizindən,
Sultanın tacında get elə məskən.
Yerlərə, göylərə odur can verən,
Böyük Cahangirdir, düşmən devirən.
Cahan Pəhləvandır, Nüsrətəddindir,
Hökmü düşmənlərə qılınc təkindir.
Şahlıq et, verilmiş sənə ölkələr,
Kömək et xalqlara, ədalət göstər.

Şahdan bir diləyim var mənim ancaq,
Mənim dastanıma nəzər salaraq,
Sönük bir əfsanə görərsə, artıq,
Üstünə nə kölgə salsın, nə işıq.
Rast gəlsə dalğalı inci, gövhərə,
Başımı ucaltsın uca göylərə.
Qaralsın yağının ağzı dağ kimi,
Yansın düşmən dillər bir çıraq kimi.
Uca dövlət kimi qonsun eyvana,
Nizami afərin oxusun ona".

(Alqışlayırlar)

Qızıl Arslan

(Fikirli)

Qılıncda güc olur, qələmdə hikmət,
Birləşsə, basılmaz bu iki qüvvət.
Hökmdarda qılınc, şairdə qələm...

Nizami

Böyük fəzilətdir, qibleyi-aləm!

Qızıl Arslan

Şairsiz millətin əlacı yoxdur,
Demək o millətin dilmancı yoxdur.
Sözün qiymətini verə bilməyən
Baş varsa, o başı rədd edirəm mən.

İ n a n c X a t ı n

İsfahan məşhurdu sözdə, sənətdə.

Q ı z ı l A r s l a n

O da Nizamiyə borcludur hətta,
Bizim dilimizin şəhdi, şirəsi -
Nizami şerində sənət zirvəsi.
Laylamız, yasımız dilimizdədir,
Gözəl rəvayətlər, məncə, bizdədir.

N i z a m i

Şahım, qoy bir şeyi mən xatırladım, -
Mən də fars dilində yazdım, yaratdım.
Ona hörmətimiz, sədaqətimiz,
Ustad Firdovsinin dilidi, şəksiz.
Şifahi danışıq, göstəriş, filan,
Yazıya köçmürsə, yaşatmır zaman.
Farsın dilindədi dəftərxanalar,
Ana dilimizdə bir yazı axtar?
Yoxdur.
Soruşacaq tarix bir zaman,
Bizə mat qalacaq bizi oxuyan.
Sizin vaxtınızda öz diliniz yox,
Fars dili yayıldı, çiçəkləndi, şah!
Gedib söz soruşsan birindən əgər,
Yalnız fars dilində cavab verirlər.
Nə qan qaraldıram, qibleyi-aləm,
Nə qanım qaralır... guşənişinəm.

Qızıl Arslan

(Fikirli)

Şair, inanıram bir gün gələcək,
Azərbaycan dili çiçəklənəcək.
Yeganə sərvətdi bu dövlət, bu var -
Nəsildən-nəsilə qalıb yadigar.
Öz böyük oğlunu yetirəcək xalq,
Biz də gələcəyik dünyaya o vaxt.
Nizami, ölməzdir sənin sənətin,
Canlı bir oğlusan o səltənətin.
Başqadır şairin eşqi, ürəyi,
Çatan əsrlərə sözün səsidir.
Vətən, vətən deyən şair ürəyi,
Vətənin ən böyük ərazisidir.
Demə bu söhbətim bir təsəllidir,
Tarixdən misallar sənə bəllidir.

İnanc Xatın

Hökmdar, elçilər gələcək hökmən,
Çindən, Hindistandan, bir də Yəməndən.
Şair də xoş gəlib məclisimizə,
Şahım, dincəlmək də lazımdır sizə.

Qızıl Arslan

Sizi yola salım.

Nizami

Böyük hökmdar,
Özümüz gedərik.

(Gedirlər)

Qızıl Arslan

Böyük sənətkar...
Bəlkə unudacaq məni gələcək...
Bəlkə bu görüşüm yada düşəcək?!
Şairin öz səsi, öz aləmi var.
Qəlbinə gah isti, gah şaxta düşür.
Nə vaxt yetişirsə böyük sənətkar,
Hər xalqın şöhrəti o vaxta düşür.

İnanc Xatın

(Pauza)

Sizin yanınızda, şahım, sizsizəm,
Nə bilim, bəlkə də mən səbirsizəm.
Görürəm get-gedə artır işiniz,
Azalır əvvəlki nəvazişiniz.
Mən gözə dəymirəm göz qabağında,
İtirəm sarayın əl-ayağında.
Sıxır mənliyimi şərəfim, həyam,
Məlikə olsam da, şahım, qadınam, -
Kişi nəfəsinə ehtiyacım var,
Sizə deyiləsi ağrım-acım var.
Sığal istəyirəm sizdən ər kimi,
Adi qadın kimi, bir bəşər kimi,
Şahım, bağışlayın, birtəhər olur,
Qadın - zəiflikdən hiyləgər olur.
Yeganə gücü var - göz yaşındadır.
Yenə tufanları öz başındadır.

Q ı z ı l A r s l a n

Məlikə, gözəldir səni dinləmək,
Gözəldir - qadında qadını görmək.
Qadınla əylənmək özü sənətdir,
Ailə ayrıca bir cəmiyyətdir.
Onun da ayrıca öz qanunları,
Sən indi anlatdın mənə bunları.
Lakin... görüləsi çox işimiz var,
O ulu tanrıdan xahişimiz var,
Gərək şöhrətimiz gəzsin hər yanı,
Zəkamız tanıtsın Azərbaycanı.
Bütün ölkələrlə artsın ticarət,
Ticarət - ən böyük bir mədəniyyət!
Adamlar seçirəm... sabahdan gərək
Şərq ilə Qərbə biz elçi göndərək.
Əlaqə yaradaq gərək bu ara,
Başlayaq siyasi yazışmalara.
Azərbaycan dili - ana dilimiz,
Dünyanın ən gözəl dilidi, şəksiz.
Döyüşdə, sevgidə, siyasətdə də
Bu dil əvəzsizdi,
Nazakətdə də.
Mən gedim dincəlim.

İ n a n c X a t ı n

Şanlı hökmdar,
Arzunuz böyükdür, hökmünüz də var.

(Qızıl Arslan gedir)

Məni də bu dillə siz aldatdınız,
Əvvəl nigahlayıb, sonra atdınız.
Əliniz dəymədi mənə, hökmdar,
Qadını nigahla əsir almazlar.
İcazə vermişdi sizə şəriət.
Siz namus əsiri, mən eşq, məhəbbət!
Bunu bir mən bildim, bir siz, bir Allah.
Lakin qisasını İnanc alacaq!

(Pauza)

İndi nə hissi var, nə həyəcanı,
O, sevir məni yox, Azərbaycanı.
Nə sığal gördüm mən, nə öpüş, nə ər,
Bu şərtdə uduzur bütün kişilər.
Xəlvət gizləmişəm burda xəncəri,
İlahi, özün sal məni içəri.
Özün əlimdən tut, mənə kömək ol,
Gərək gecikməsin Mahmudla Toğrul.

(Gedir)

M a h m u d

(Daxil olur)

Elçilər gəldilər... Toğrul bəy və mən,
Çindən, Hindistandan, bir də Yəməndən.
Aldatdım bir təhər keşikçiləri.

(İstehza ilə gülür)

Qoy indi Toğrul bəy gəlsin içəri.
Bizim taleyimiz həll olunacaq,
Əbədi sönəcək indi bu ocaq.

T o ğ r u l b ə y

(Daxil olur)

Qəhrəm qalasında mən idim yatan,
Çadırda o yatır.
Oyağam, oyan!
Bu görüş əbədi bir ayrılıqdı,
Hökmdar, bu qılıq başqa qılıqdı!

(Fikirli)

Mahmud, heç qalxmayır əlim yuxarı,
Əmimin gör harda yetib axırı?
Məni həbs eləyib o, öldürmədi,
Bəlkə də özünə rəva bilmədi.
Onun ürəyinə bələdəm... bu, düz!
İnanc Xatın ilə sözdü-sözümüz!
Gərək mən öskürəm...
Mahmud, hazırlaş!

Q ı z ı l A r s l a n

(Hövlank çıxır)

Toğrul bəy?!

T o ğ r u l b ə y

Hökmdar...

Q ı z ı l A r s l a n

Bu nədir, İnanc?!

(Toğrulun əli qalxmır. İnanc Xatın arxadan bir neçə dəfə xəncərlə vurur)

Ah, İnanc!
Ah, Toğrul!
Ah, Mahmud!
Dayan!..
Mənə arxa duran vurdu arxadan.

(Yıxılır)

(İnanc Xatın və Toğrul bəy gedirlər)

M a h m u d

(Tək)

Atamın yurdunda təkəm indi mən,
Biz qisas alarıq Əbubəkrdən.
Keçdi əlimizə indi taxt-tac,
Yaşasın, Toğrul bəy!
Məlikə İnanc!

S ə s

(Məlikə İnancın səsi. Mahmud dinləyir)

Yetər arxalandın doğma vətənə,
Vətən arxalansın qoy indi sənə.
Cahanın taxtında sən özün əyləş,
Qanuni oğlusan...
Mahmud, fikirləş!

İ n a n c X a t ı n

(Daxil olur)

Qaç, Mahmud! Qaç qurtar indi birtəhər,
Toğrul fərman verdi - həbs eləsinlər.
Götür bu xəncəri, tələb edirəm,
Toğrulun qanına boyansın aləm!

M a h m u d

(Tərəddüd edir)

Ana, Toğrul bəyin verdiyi vədi?

İ n a n c X a t ı n

Vədələr, ümidlər yalnız tələdi!
Tez Mahmud! O səni bərk hədələdi!

(Mahmud xəncəri siyirib gedir)

Elə bil ayıldı Toğrul sonradan,
Sarsılıb soruşdu Qızıl Arslanı.
O tələb elədi gözlərində qan,
Mənim əllərimdə görəndə qanı.

T o ğ r u l b ə y

(Daxil olur. İnanc Xatının barmağında Qızıl Arslanın üzüyünü görür)

Üzük barmağında bulaşmış qana,
Qızıl yalan satdın Qızıl Arslana!
Mənə evlənməyi təklif elədin,
Al bu, üzağlığın... tanıdın yəqin?

İ n a n c X a t ı n

Ah, Mahmud! Ah, Mahmud!

T o ğ r u l b ə y

Al, sənin olsun!
Bu qanlı köynəyi kəfənin olsun!
Üstümə göndərdin əlində xəncər,
O hücum etsə də, çaşmışdı... ləçər!
Günəşin odunu külək soyutmaz,
Bəbirlə tülkünün oyunu tutmaz!
Sən təhrik elədin...

İ n a n c X a t ı n

Ah, Mahmud, oğul!

(Qanlı köynəyini boğazına dolayır və dəli vəziyyətdə özünü boğur)

S a l n a m ə ç i

(Daxil olur)

Nəhayət, oğlunun qanında boğul!

(Tamaşaçılara)

Oğul istəyirdi şah, Məlikədən,
Oğlunu itirdi axırda vətən.
Mömünə Xatından İnanc Xatına,
Bir ölkə mat qaldı iki qadına.
Bir qadın eşqilə qurulan dövlət:
Bir qadın məkrilə uçdu, nəhayət.

Ə c ə m i

(Nizami ilə daxil olur)

Zəmanə xatırlar Qızıl Arslanı,
Şöhrətə çatdırdı Azərbaycanı.
Öz böyük oğlunu itirirsə xalq -
Özü başsız qalır hər şeydən qabaq.

N i z a m i

Millətin şüuru oyansın gərək,
Qorusun vətəni göz bəbəyitək.

B a ğ b a n

Çıxıb Əbubəkr ağ yolun üstə,
Gəncədən yeriyir Toğrulun üstə!

(Əbubəkr və döyüşçülər siyirməqılınc səhnəyə daxil olurlar. Birinci şəkildə olduğu kimi, Salnaməçi və sağ qalan personajlar qayıdıb Mömünə xatın türbəsinin qapılarından içəri keçirlər)

S o n

Bakı-Zaqatala

1981

Azərbaycan Respublikası Prezidenti
cənab İlham Əliyevin
Naxçıvan Muxtar Respublikasına səfərinin

P R O Q R A M I

Naxçıvan
12-14 may 2004 il

**Azərbaycan Respublikasının Prezidenti
Cənab İlham Əliyev və xanımı Mehriban Əliyeva
Naxçıvan Muxtar Respublikasının
80 illiyi ilə əlaqədar Naxçıvana səfərləri zamanı
Nəriman Həsənzadənin "Atabəylər" pyesinə
tamaşa etmişlər (2004).**

Azərbaycan Respublikası Prezidenti
cənab İlham Əliyevin
Naxçıvan Muxtar Respublikasına səfərinin
PROQRAMI
(Naxçıvan, 12-14 may 2004 il)

14 may, Cümə

12.00	- Naxçıvan Muxtar Respublikasının 80 illiyinə həsr edilmiş yubiley tədbirləri
13.30	- N. Həsənzadənin "Atabəylər" tarixi dram əsərinin tamaşası C. Məmmədquluzadə adına Naxçıvan Dövlət Dram teatrı
17.00-19.00	- Rəsmi ziyafət Qonaq evi



Şəkildə: Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov (soldan 5-ci) C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Dram Teatrında Muxtar Respublikamın 80 illik yubileyi münasibətilə ikinci dəfə yenidən uğurla tamaşaya qoyulmuş mənzum "Atabəylər" pyesinin müəllifi N.Həsənzadəni, əsərin quruluşçu rejissoru M.Fərzəlibəylini və teatrın truppasını təbrik edir, onlara xoş arzularını bildirir (2004-cü il).

Naxçıvan MR. 2004-cü il. N.Həsənzadə: "Atabəylər" mənzum pyesi.
(Naxçıvan aktyorlarının iştirakilə).

N.Həsənzadənin Naxçıvan Muxtar Respublikasına Bakıdan getmiş tamaşaçı dostları və qohumları

Naxçıvan MR. "Atabəylər" mənzum pyesindən bir səhnə



Şəkildə Naxçıvan teatrı. "Atabəylər".
Azərbaycan Respublikası Xalq artisti Kamran Quliyev
Qızıl Arslan rolunda. 1999

Şəkildə Naxçıvan teatrı. "Atabəylər" tamaşasından səhnə

Naxçıvan tamaşaçıları dramaturqu (N.Həsənzadə), rejissoru (M.Fərzəlibəyli) və aktyorları gül-çiçəklə alqışlayırlar

Азәрбајчан ССР Мәдәнијјәт Назирлији

М. Әзизбәјов адына
Ленин орденли вә Гырмызы Әмәк Бајрағы орденли
АЗӘРБАЈЧАН ДӨВЛӘТ
АКАДЕМИК ДРАМ ТЕАТРЫ

БУ КҮН

Нәриман ҺӘСӘНЗАДӘ

АТАБӘЈЛӘР

ИКИ ҺИССӘЛИ МӘНЗУМ ДРАМ

Гурулушчу режиссор — Мәрһум **ФӘРЗӘЛИБӘЈОВ** (Азәрб. ССР әмәкдар инчәсәнәт хадими)

Рәссам — **Фуад ГАФАРОВ**

Бәстәкар — **Ариф МӘЛИКОВ** (Азәрб. ССР халг артисти)

Елми мәсләһәтчи:

Академик—Зија **БҮНЈАДОВ**

1983/1984-чү илләр мөвсүмү

И Ш Т И Р А К Е Д И Р Л Ə Р:

Н И З А М И	— **Һамлет Ханызадә** (Азәрб. ССР әмәкдар артисти, Республика Дөвләт мүкафаты лауреаты)
Ә Ч Ә М И	— **Ағшин Вәлиханов** **Садыг Ибраһимов**
Г Ы З Ы Л А Р С Л А Н	— **Камал Худавердијев** (Азәрб. ССР әмәкдар артисти)
И Н А Н Ч Х А Т Ы Н	— **Вәфа Фәтуллајева** (Азәрб. ССР әмәкдар артисти, Республика Дөвләт мүкафаты лауреаты) **Сәфурә Ибраһимова** (Азәрб. ССР әмәкдар артисти, Республика Дөвләт мүкафаты лауреаты)
Т О Г Р Ү Л Б Ә Й	— **Рамиз Мәликов** (Азәрб. ССР әмәкдар артисти, Республика Дөвләт мүкафаты лауреаты)
Ә Б Ү Б Ә К Р	— **Илһам Әскәров**
М А Һ М Ү Д	— **Пәрвиз Бағыров**
Р Ү З	— **Нурәддин Гулијев**
Л Ә Б А	— **Рамиз Новрузов**
К Ү Л А Ч Л А Р	— **Елмира Һашымзадә** (Азәрб. ССР әмәкдар артисти)
Б А Ғ Б А Н	— **Мустафа Сүлејманов**
Ә Б Ү Ш Ә Р	— **Мәчнун Һачыбәјов**
Л А Д А Д А М	— **Һачы Исмајылов** (Республика Дөвләт мүкафаты лауреаты)
Б А Ш К Ө Н Ү З	— **Зөһрә Ширинова**
К Ө Н Ү З Л Ә Р	— **Земфира Нәриманова** **Сәидә Гулијева** **Лалә Бағырова** **Мәтанәт Атакишијева**
А Л Д О Ғ Д У	— **Әлвида Чәфәров**
Т У Р А Л	— **Салеһ Бабајев**
С А Т М А З	— **Мирзә Ағајев**
Г Ы Р А Н	— **Елхан Гулијев**
Л Ы Х А Н	— **Ифтихар Пиријев**
С Ө Р К Ә Р Д Ә Л Ә Р	— **Рүстәм Әлијев** **Аббас Гәһрәманов**

Azərbaycan Akademik Milli Teatrı.
"Atabəylər" mənzum pyesindən bir səhnə.
Şəkildə: Əməkdar artist Vəfa Fətullayeva - İnanc xatun,
Xalq artisti Ramiz Məlikov - Toğrul rollarında.



Azərbaycan Akademik Milli Teatrı.
"Atabəylər" mənzum pyesindən bir səhnə.
Şəkildə: Əməkdar artist Vəfa Fətullayeva - İnanc xatun,
Xalq artistləri Kamal Xudaverdiyev - Qızıl Arslan,
Hamlet Xanızadə - Nizami Gəncəvi rollarında.



N.Həsənzadə. "Atabəylər".
Qızıl Arslan - Kamal Xudaverdiyev,
Əcəmi - Aqşin Vəlixanlı, Bağban - Mustafa Süleymanov
(foto Rasimindir)

**Azərbaycan
Akademik Milli Teatrı.
"Atabəylər" mənzum
pyesindən bir səhnə.**

**Şəkildə:
Elmira Haşımova - Gülaçar,
Nurəddin Quliyev - Ruz
rollarında.**

НАХЧЫВАН МР МӘДӘНИЈЈӘТ НАЗИРЛИЈИ

Чәлил Мәммәдгулузадә адына Нахчыван Дөвләт мусигили драм театры Нахчыван Мухтар Республикасынын 75 иллијинә һәср олунур

Нәриман Һәсәнзадә

А Т А Б Ә Ј Л Ә Р

2-һиссә 12 шәкилдә тарихи драм

Гурулушчу режиссор – **Мәраһим Фәрзәлибәјов**
Азәрбајҹан Рес. инчәсәнәт хадими

Мәсләһәтчи – **Иса Һәбиббәјли**
Нахчыван Дөвләт университетинин ректору елмләр доктору, профессор

Режиссор – **Камран Гулијев**
Азәрбајҹан Рес. халг артисти

Гурулушчу рәссам – **Әбүлфәз Ахундов**

Мусиги тәртибатчысы – **Әдаләт Јунусов**
Чаһанкир Әлијев

1999-чу ил театр мөвсүмү.

Иштирак едирләр:

Низами – Һәсән Ағајев (Азәрбајчан Республикасы Халг артисти)

Әҹәми – Хәлил Һүсејнов (Нахчыван МР Әмәкдар артисти)

Гызыл Арслан – Камран Гулијев (Азәрбајчан Республикасы Халг артисти)

Инанч Хатын – Хураман Һачыјева (Азәрбајчан Республикасы Халг артисти)

Тоғрул бәј – Рза Худијев

Әбубәкир – Дамәт Хәлилов

Маһмуд – Сәмәд Чанбахшыјев

Ајәба – Рөвшән Һүсејнов (Азәрбајчан Республикасы Әмәкдар артисти)

Руз – Бәһруз Һагвердијев

Күлачар – Елмира Кәримова

Абушәр – Ширзад Абуталыбов (Азәрбајчан Республикасы Әмәкдар артисти)

Јад адам – Тофиг Мөвләви (Азәрбајчан Республикасы Әмәкдар артисти)

Бағбан – Јусиф Аллаһвердијев (Нахчыван МР Әмәкдар артисти)

Кәниз – Күнај Гурбанова

Рәгасә – Кәклик Новрузова

Елми мәсләһәтчи – Академик Зија Бүнјадов

Әдәби һиссә мүдири – Чәлил Вәзиров
(Азәрбајчан Республикасы Әмәкдар мәдәнијјәт ишчиси)

Гурулушчу һиссә мүдири – Камал Исфәндијаров

Труппа мүдири – Рөвшән Һүсејнов
(Азәрбајчан Республикасы Әмәкдар артисти)

Мусиги һиссә рәһбәри – Јусиф Әскәров

Тамашаны идарә едир – Ширзад Абуталыбов
(Азәрбајчан Республикасы Әмәкдар артисти)

Баш инзибатчы – Ибраһим Бәнәнијарлы
(Азәрбајчан Республикасы Әмәкдар артисти)

Театрын директору – Мәммәд Һүмбәтов

АЗӘРБАЈЧАН ССР МӘДӘНИЈЈӘТ НАЗИРЛИЈИ

Ч. Чаббарлы адына
Гырмызы Әмәк Бајрағы орденли
КИРОВАБАД ДӨВЛӘТ ДРАМ ТЕАТРЫ

ЈЕНИ ТАМАША

Нәриман ҺӘСӘНЗАДӘ

АТАБӘЈЛӘР

(ИКИ ҺИССӘЛИ МӘНЗУМ ДРАМ)

Гурулушчу режиссор — Һилал ҺӘСӘНОВ

Р ә с с а м — Набат ГУРБАНОВА

Б ә с т ә к а р — Ајдын ӘЗИМОВ

Режиссор ассистенти — Зүлфүгар БАРАТЗАДӘ
(Азәрб. ССР халг артисти)

1984/1985-чи илләр мөвсүмү

РОЛЛАРЫ ИФА ЕДИРЛӘР:

Н И З А М И	— **Әләддин Аббасов** (Азәрб. ССР халг артисти)
Ә Ч Ә М И	— **Гурбан Аббасов** (Азәрб. ССР әмәкдар артисти) **Рза Надиров** (Азәрб. ССР әмәкдар артисти)
АТАБӘЈ ГЫЗЫЛ АРСЛАН	— **Әличан Әзизов**
ИНАНЧ ХАТЫН	— **Пәрванә Гурбанова** **Фүзуләт Рзајева**
ТОҒРУЛ БӘЈ	— **Алим Мәммәдов** (Азәрб. ССР әмәкдар артисти)
Ә Б У Б Ә Қ Р	— **Салим Исмајылов**
М А Һ М У Д	— **Назим Мәммәдов**
А Ј Ә Б А	— **Елдәниз Тағыјев**
Р У З	— **Гулам Әһмәдов**
ҚҮЛАЧАР	— **Күшвәр Шәрифова** **Јасәмән Мәммәдова**
Ә Б У Ш Ә Р	— **Зүлфүгар Баратзадә** Азәрб. ССР халг артисти)
ЈАД АДАМ	— **Әли Аллаһвердијев** Азәрб. ССР халг артисти)
САЛНАМӘЧИ	— **Мәммәдәли Балајев**
Б А Ғ Б А Н	— **Мәммәд Бурчәлијев** **Азәрб. ССР халг артисти)**
О З А Н	— **Әли Ғасымов**
БАШ ҚӘНИЗ	— **Айнур Тәмирова**

POMPEYİN QAFQAZA YÜRÜŞÜ

(Dramatik xronika)

– 1997 –

İŞTİRAK EDİRLƏR:

Çar Uruz	–	Alban çarı
Çar Artak	–	İberiya knyazı
Qasid	–	Alban çarının qardaşı, sərkərdə
İlkcan	–	Qasidin nişanlısı
Məlikə Aydan	–	Çar Uruzun anası və məsləhətçisi
Çapar	–	Cəngavər
Qney Pompey	–	Roma sərkərdəsi, baş komandan
Feofan	–	Pompeyin tarixçisi
II Tiqran	–	Ermənistan çarı
Şahzadə Tiqran	–	Ermənistan çarının oğlu

Əsgərlər, elçilər, Roma əsgəri, erməni bələdçisi, qladiatorlar.
Hadisələr e.ə. I əsrin 66-62-ci illərində Qafqazda baş verir.

Qədimdə, Roma senatının qərarı ilə böyük sərkərdə Qney Pompey qırx-qırx iki yaşlarında (e.ə. l06-cı ildə doğulmuşdur) bizim eradan qabaq birinci əsrin 66-62-ci illərində Qafqaza güclü qoşun yeridir. Məqsədi "Böyük Ermənistan" deyilən dövləti işğal etmək, əslində isə Pont hökmdarı Mitridatı aradan götürmək idi. Mitridat II Tiqranın qaynatası idi. Roma imperiyasının da barışmaz düşməniydi.

Adətən Pompeyin adı qullar dünyasında həmişə Yuli Sezarla, Krassla yanaşı çəkilmiş və onların arasında birincilik uğrunda gizli rəqabət getmişdir.

Pompey Krassla birlikdə məşhur Spartak hərəkatını amansızcasına yatırdıqdan (*müasirləri Krassın üstünlüyünü xüsusi qeyd edirlər* – H.N.) cəmi bir neçə il sonra Qafqaza gəlir.

Hücumun ilk günlərindən Ermənistan şahzadəsi gənc Tiqran Pompeyə bələdçilik edir, atası II Böyük Tiqran isə taxt-tacından ehtiyat edərək, Pompeyin hərbi düşərgəsinə gedir, tacını onun ayaqlarına atır, qeydsiz-şərtsiz təslim olduğunu bildirir. Pont hökmdarı Mitridat yaxın müttəfiqi və kürəkəni II Tiqran tərəfindən başına külli miqdarda pul ayrıldığını eşidərkən Kolxidaya qaçır. Pompey onu təqib edir; Azərbaycanın indiki Qazax və Ağstafa bölgələrində Kür çayını keçmək istədikdə Alban və İberiya çarlıqlarının böyük müqavimətinə rast gəlir.

Albanlar və iberlər Pompeyə girov versələr də, Ermənistan kimi Romanın vassalına çevrilmir, Alban çarı Uruzun və İberiya knyazı Artakın sarsılmaz dostluğu sayəsində müstəqil dövlətçiliklərini saxlayırlar.

Hadisələri doğru-düzgün işıqlandıran antik və müasir tədqiqatçı alimlərin, yazıçıların, tarixçilərin verdikləri yığcam məlumat belədir.

MÜƏLLİF

* * *

…Qazın bu torpağı, hər qatı qandı,
hər uçuq başdaşı bir qəhrəmandı…
…Hər qaya üstündə bir yazı qaldı,
El köçdü... hər toyun bir yası qaldı…

* * *

I HİSSƏ

I şəkil

Qaranlıq səhnədə əllərində məşəl tutan adamlar keçir.
Onlardan biri — Çapar tamaşaçılara müraciət edir.

ÇAPAR

Qazın bu torpağı, hər qatı qandı,
Hər uçuq baş daşı bir qəhrəmandı.
Döyüşlər, qırğınlar adiləşdilər,
Ot üstən ot bitdi... vidalaşdılar.
Hər qaya üstündə bir yazı qaldı,
El köçdü... hər toyun bir yası qaldı.
Burda haray çəkən Prometeydi, -
Qafqaz tanımadı Qafqaz oğlunu.
Qanla yazılsa da, tarix gileydi,
Çarmıxa çəkdilər gör harda onu?
Dağlar - ilk insanın mağarasıymış,
Kür çayı - Daşqının son məcrasıymış.
Tufanda burdaymış Nuhun gəmisi,
Qafqaz hey?! Dünyanın ilk möcüzəsi.

(*pauza*)

Roma hədələyir Kürreyi-ərzi,
Dünyanı tutmaqdı qəsdi-qərəzi.
Qafqaza göndərib Pompeyi Senat,
Romaya düşməndi Pontda Mitridat.
Tiqran şah əksinə, bir məqam güdür,
Pompeylə görüşə hazırlıq görür.

Uzaqdan şeypur səsləri eşidilir. Pompey svitası ilə daxil olur. Çapar gizlənib qulaq asır.

POMPEY

Ordumuz hünərlə keçdi Arazı,
Roma fəth eləyir vəhşi Qafqazı.
Qayada şimşək var, buludda tufan,

(yanında şahzadə Tiqranı göstərir)

Bizə bələdçidir şahzadə Tiqran.
Gözəl qarşıladı Pompeyi Qafqaz,
Burda çadır qurun, dincələk bir az.
Dünyanın ən uzaq nöqtəsindəyik,
dünyanın ən uca zirvəsindəyik.
Burda qartalların isti yuvası,
bəbir çalası var, şir mağarası.

FEOFAN

(daxil olur)

Görüşə gəlibdi, böyük hökmdar, —
İkinci şah Tiqran, küllü-ixtiyar.

POMPEY

Birbaşa çadıra, belə lap qəfil?..

FEOFAN

Dedi ki, saraydı, bu çadır deyil.
Çadır orda qaldı taxtı-tac ilə,
Saraya gəlmişəm ehtiyac ilə.

(Pompeylə şahzadə Tiqran heyrətlə baxışırlar. Şahzadə narazıdır).

Dedim hökmdarsan, dəyişdi tamam,
Hökmdar Pompeydi, dedi mən qulam.

POMPEY

Böyük Ermənistan, ya qarlı Qafqaz,
Hərbi düşərgədə çadıra sığmaz.
Qoy gəlsin, onsuz da görüşməliydik,
İkinci Tiqranla döyüşməliydik.

(Feofan çıxır, İkinci böyük Tiqran daxil olur, Pompeyin ayaqlarına baş əyir)

POMPEY

Qalx qoca, bu qədər əyilməz insan,
Böyük Ermənistan, İkinci Tiqran!

İKİNCİ TİQRAN

Sənin hüzuruna gəlib baş əymək,
Başın ucalığı sayılsın gərək.

POMPEY

Romada Tiqranı tanıyır Senat.

(*pauza*)

Pontdan deyirlər ki, qaçıb Mitridat?

İKİNCİ TİQRAN

Mənim qaynatamdı Pont hökmdarı,
Gizli axtarıram mən o qəddarı.
Romaya təhlükə törədə bilməz,
O başqa şahları öyrədə bilməz.

(əlində tutduğu qızıl tacı Pompeyə təqdim edir)

Bu tac hədiyyədir, Tiqran şah əsir,
Sarayım günahkar, özüm müqəssir.
Sənə qul oluram bu gündən belə,
yanına şah gəlib qul xahişilə.
Qılınc gətirmişəm mən hələ, Pompey,
boynumu vursunlar, əmr elə, Pompey.

(əyilir, onu qaldırırlar. Gətirdiyi hədiyyələri bir-bir təqdim edir)

ÇAPAR

(*kənara*)

Gəlib işğalçıya qul oldu Tiqran,
yəqin, şah taxtında qulmuş oturan?

İKİNCİ TİQRAN

Üzük ululardan qalıb yadigar,
üzük səndə olsa, daha xoş olar.
Qızıl kəmərimdə başqa bir ovsun,
atın yəhərində üzəngin olsun.
Qılınc qurşamağı tərgitdim, inan,
sənin hüzuruna gəldiyim andan.

Sarayı qorumur daha bir əsgər,
Pompey hifz eləsə, kifayət edər.
heç kim deyə bilməz Pompeyə, kimsən?
mən taxt sahibiyəm, sən sahibimsən.
Dövlət qərar tutub bir xəzinədə,
qıfılı məndədir, açarı səndə.
Sənə tale verib bu səxavəti,
Pompey əbədidir, biz müvəqqəti.
Sənin hünərinlə susdu Spartak,
qulları qətl etdin neçə il qabaq.
Tutdun Afrikanı, Avropanı sən,
çadırın — senatdı, düşərgən vətən.

(yenidən Pompeyin ayağına əyilir)

POMPEY

Yox, yox əyilməsin gərək hökmdar.

İKİNCİ TİQRAN

Pompey hökmdardı, Tiqran günahkar.

POMPEY

Böyük Ermənistan ümid doğurur,

İKİNCİ TİQRAN

Sən ayaq basdınsa, o böyük olur.

ÇAPAR

(kənara)

Verdi bir ölkənin nəyi varsa, şah,
taxtını Pompeydən satın alacaq.

POMPEY

Bəyəndim mən səni bu gündən belə,
özün öz ölkənə hakimlik elə.
Ayrılsın qoşuna yeddi min talant,
hər seçmə ilxıdan xüsusi bir at.
Sonra, hər əsgərə ayrıca maaş,
sənin ərazində dayansın savaş.
Mənim bələdçimdi Şahzadə Tiqran,
o da Sofenaya yeni hökmran!

(sağında və solunda İkinci Tiqranla Şahzadə Tiqranı əyləşdirir və salona müraciət edir)

Biri bələdçimdi, o biri məhrəm,
hansına tac düşür?

(tacı əlində oynadır)

Sahibi mənəm.
Didir bir-birini atayla oğul,
hökmdar bir quldu, Şahzadə bir qul.
İnsanın çiynində baş özu tacdı,
niyə o xəbisdi, o gözüacdı?!

Bunun ölümünə o rəvac verir,
onun ölümunə bu daş-qaş verir.
Ulu sarayların iç üzü budur.

(pauza)

Lakin Uruz məğrur, Artak da məğrur.

(tacı şahın başına qoyur, Şahzadə narazı qalır)

İKİNCİ TİQRAN

Sənə itaətdi bütün həyatım,
bütün Ermənistan, əslim, soyadım.
İtaət eləyib insan həmişə,
batan günəşə yox,—

(özünü göstərir)

Çıxan günəşə.

(Pompeyi göstərir)

BƏLƏDÇİ

(kənara)

Şah burda Pompeyə təzim eləyir,
orda da Uruza qardaşam deyir.
Pompeyi aldadır İkinci Tiqran,
hərbi müqavilə istəyir ondan:
qalib bir ölkəylə məğlub bir ölkə?!
Albana, İberə qarşıdı bəlkə.
Roma, Ermənistan... udan uduzur,
Şahzadə deyinir, Tiqran şah susur.
Xəyanət toxumu səpir torpağa,
xəyanət bitəcək bu yerdən daha.

(işıq sönür və yanır)

II ŞƏKİL

Qədim dövr Azərbaycan. Kür çayının sahili.
Bulaq başında Günəşi qarşılayan qızların şərqisi.

Var ol, ey ulu qüvvət,
Sən ey ulu məhəbbət.
Gün doğar, aydınlıq olar,
obaşdan oyan, ay gəlin.
Yuyun şəfəqlər içində,
Günəşə boylan, ay gəlin.

QASİD

(daxil olur, şərqiyə qulaq asır)

Göyün nemətisən, yerin sərvəti,
ey Günəş, sən qurdun bütün xilqəti.
Yerdə natəmizlik içində insan,
təmizik istəyir ulu Tanrıdan.
Dərk edə bilsəydi özünü bəşər,
nə hiylə qalardı insanda, nə şər.

İLKCAN

(daxil olur)

Günəş də Qasidə məsləhət verir,
göy ruzu paylayır, yer nemət verir.
ey Günəş, ey Tanrı...

QASİD

İlkcan, bir dayan,
Günəşlə görüşə çıxmışdım, inan.
Sən bir az gecikdin.

İLKCAN

Gecikmək olmaz?

QASİD

Qızlarda iki dil, bir ürək olmaz.
Qızlar, qadınlar da istəsə əgər,
Kişidə bir gücü iki güc eylər.

İLKCAN

Səni sevdiyimdən çox sevirəm mən,
Eh, dilim dolaşır.

QASİD

Xoşdur nə desən.

İLKCAN

Qasid, nədir məhəbbət?

QASİD

Əsən meh, durulan su,
körpə kəkliyin səsi.
Zirvədə Qara quşun
qəfil qıyya çəkməsi.

Bir az küsüb deyinmək,
sonra doyunca gülmək.
Divar kimi hörülmək,
tikiş kimi sökülmək.
Bir də nərgiz qarışıq
saçlarına bükülmək.
Yanında səndən ötrü
yanıb, yanıb tökülmək.

İLKCAN

(kənara)

İlahi, gör nələr var
hər sözün mənasında.
İlkcan, get bax özünə,
o qəlbin aynasında.

QASİD

İlkcan, nədir məhəbbət?

İLKCAN

Şir görən maral kimi,
səni görəndə çaşmaq.
Sirrimi səndən sənə,
öz içimdə danışmaq.
Böyük kimi dinləmək,
uşaq kimi dözməmək.
Arzusu - yarı görmək,
adəti - yol gözləmək.
Dindirsən - hey küsülü,
amma heç vaxt küsməmək.

Kimdi əvəzsiz olan,
ya da ən əziz olan? -
adını qoyan, yaxud
adını çəkən oğlan?!

QASİD

İlkcan, əzizim mənim,
ən əvəzsizim mənim.
Uçub qonduq budağa
biz iki bülbül kimi.
İki nəğmə oxuduq,
amma bir könül kimi.

(Qasid öpmək istəyir, İlkcan qaçır)

Ovçu qovar, ceyran qaçar,
qovan qovar, qaçan qaçar.
Qaç, tutum.

İLKCAN

Nə çoxdu çöllərdə ceyran,
qaç tut, cəngavərsən.

(qaçmaq istəyir, Qasid tutur)

QASİD

Sən lira çalan.
Zərif barmaqların şirin dili var,
dənizin nə özü, nə sahili var,
ləpələr yanımda pıçıldaşırlar,
Ceyranlar Qasiddən qorxub qaçırlar.

Tutdum ceyranların ən gözəlini,
Sarayın həm qızı, həm də gəlini.
Mənim göbəkkəsməm... südün təmizdir,
Atropat dövründən adətimizdir.

İLKCAN

(fikirli)

Qasid, ürəyimə damıb elə bil,
bu sevinc elə bil mənimki deyil.

QASİD

Sən lap darıxıbsan.

İLKCAN

Qasid, nə bilim,
bütün qadınların - deyir ki, babam -
guya ağzı faldı, ürəyi tilsim.
Qadın fəlakəti qabaqca duyur,
alna yazılanı qadın oxuyur.

QASİD

Qadınlar... qızlar da istəsə əgər,
kişidə bir gücü iki güc eylər.

(İlkcan sevinir və səs gələn tərəfə boylanırlar)

Məlikə Aydandı, anam, deyəsən,
İlkcan, doyunca gül, bax belə, əhsən.

MƏLİKƏ AYDAN

(*daxil olur*)

Sabah toyunuzdu, gözəl sabahlar,
çarlar, şahzadələr, əziz qonaqlar
Alban sarayına buyuracaqdı.
Ay, Günəş Allahdı, torpaq ocaqdı.
Dilim duaçıdı, nəfəsim ovsun,
Çar Uruz taxtında bərqərar olsun.

ÇAPAR

(daxil olur, kənara)

Çarın qardaşıdı Qasid, mehriban,
əsl cəngavərdi, qorxmaz qəhrəman.
Ağıllı İlkcanın nişanlısıdı,
Qasid xoşbəxt olsun...
Saray qızıdı.

MƏLİKƏ AYDAN

Çar Uruz ovdadı, indi qayıdar,
gərək gecikməsin bu gün qonaqlar.
Qonşu Gürcüstandan, Ermənistandan,
Çar Artak gələcək, Şahzadə Tiqran.
Gərək xeyir işi çıxardaq əldən,
şər gəlir həmişə gözlənilmədən.

İ ş ı q s ö n ü r

III ŞƏKİL

Alban sarayı. Məlikə Aydan, çar Uruz, çar Artak, onların şəxsi xidmətçiləri daxil olurlar.

MƏLİKƏ AYDAN

Gəlib yetişmədi şahzadə Tiqran,
saray narahatdı, Uruz nigaran.

ÇAR URUZ

(təmkinli)

Şahzadə incikdi şah atasından,
əl çəkmir taxt-tac iddiasından.

ÇAR ARTAK

Şahzadə şahanə söz verməliydi,
qapıdan birinci o girməliydi.

MƏLİKƏ AYDAN

Çar Artak — Uruzun əziz qardaşı,
iki çiyin kimi durun yanaşı.

(Qızıl-gümüş kasalarda və naxışlı təkə buynuzlarında şərbət gətirirlər, qədəhləri qaldırırlar. İlkcan lira çalır).

ÇAR ARTAK

(*zarafatyana*)

Barmaqlar ovsunlu, tilsimli dastan,
Qasid, könül verib, könül alıbsan.

MƏLİKƏ AYDAN

(*ərkyana*)

Çarlar toya gəlib, oynasın gərək,
Qasid də oynasın.

ÇAR URUZ

Qasid, mübarək.

ÇAR ARTAK

Qasid, ağbirçəklər cəhrə əyirər,
ipliyi, saplığı yerbəyer eylər.
Bizim dağlarda da nazik çığırlar,
ip təki uzanıb yola çıxırlar.
İlkcan gəlnimizdi, Qasid bəyimiz,
Çar Uruz, bizim də bir təklifimiz:

(pauza)

Keçsin Gürcüstana toyun davamı,
orda da keçirək gözəl bayramı.
Gürcu adətilə dolsun qədəhlər,
sarayda rəqs etsin qızlar-gəlinlər.
Oğullar düzülsün çiyin-çiyinə,
atalar qayıtsın ilk gəncliyinə.
Orda fişəng ataq, orda at çapaq,
bu eşqin oduna biz də qızınaq.
Kür çayı uzanıb keçir aradan,
biz onu lent kimi kəsək yarıdan.
Gedişin-gəlişin açılsın yolu,
Çar Uruz Qafqazın qəhrəman oğlu.

(alqış sədaları)

ÇAR URUZ

Bu elə təklifdi, yox demək olmaz,
bu elə görüşdü, gözlətmək olmaz.
Qasidin həyatı sevdalı olsun,
İlkcanın ayağı sayalı olsun.
Kür — Ozan babadı, çalıb-oxuyur,
bir ana dilini iki xalq duyur.
Bizə mehribandı səsi-sədası,
Qafqaz qartalıdır İber knyazı.

(alqış qopur, yenidən rəqs havaları. Çapar daxil olur. Çar Uruz və Məlikə Aydan onu görüb bir az kənara çəkilirlər ki, Çaparla ayrıca görüşsünlər).

ÇAR ARTAK

Qasid, ağbirçəklər cəhrə əyirər,
ipliyi, saplığı yerbəyer eylər.
Bizim dağlarda da nazik cığırlar,
ip təki uzanıb yola çıxırlar.
Mən də cığırları o cəhrəsayaq,
əyirdim, sarıdım toyundan qabaq.
Doladım atımın ayaqlarına,
dörd dükcə gətirdim qardaş toyuna.

ÇAR URUZ

Qasid, tapmacanı tapan qoçaqdı.

QASİD

(pauza)

Atın dırnaqları, dördü də ağdı,
dörd dükcə kimidir.

ÇAR URUZ

Nə deyir, Artak?

ÇAR ARTAK

(alqışlayır)

İndi ki, belədir, gərək oynayaq.

(rəqs edirlər)

ÇAPAR

(*çar Uruza)*

Roma orduları keçib sərhəddi,
dağıdır yollarda bərəni-bəndi.
Qaçıb şah Mitridat, şah adamları,
qırıb xəstələri, yaralıları.
Zəhər paylayıbdı özü sonradan,
hər kim əsir düşsə, içsin o zaman.
Otuz min piyada qılınc oynadan,
on iki min atlı qaçıb qabaqdan.
Bələdçilik edir şahzadə Tiqran,
taxt-tac istəyir şah atasından.

ÇAR URUZ

(*təəccüblə)*

Necə?! bir də danış, bələdçi kimdi?

ÇAPAR

Şahzadə Tiqran...

ÇAR URUZ

Şahzadə bu qədər korafəhimdi?.
O ki, xain çıxır Ermənistana,
hələ bizim saray qalsın bir yana.

ÇAPAR

Şahzadə göstərib bizim yolları,
qızışıb romanın vəhşi qulları.

Pompeylə birləşib İkinci Tiqran,
Pompey də razılıq eləyib ondan.
Sonra pul ayırıb şah özü şəxsən,
Sofen şahlığının xəzinəsindən:
Pompey ordusunu yemləmək üçün,
dəyən ziyanları ödəmək üçün.
Şahzadə dözməyib, təhqir eləyib,
Şahlıq və xəzinə mənimdir, deyib.
Şahzadə deyib ki, mən də hər nəyəm,
başqa romalıya xidmət edərəm.

ÇAR ARTAK

Atası Tiqranla şahzadə Tiqran
əslində düşməndi, mən tanıyandan.

ÇAR URUZ

(təmkinlə)

Sarayda gözlədik biz şahzadəni,
o öz vətənində satdı vətəni.
Həyatı şübhəli, andı xəyanət,
necə xəlq edibdi onu təbiət?

(təmkinli)

Troya ən böyük bir dövlət idi,
orda da şahzadə xəyanət etdi.
Bir ölkə dağıldı bir qeyrət üstə.

(pauza)

Yüz hiylə qurulur bir niyyət üstə.
Tiqran bələdçidir... oğul və ata.
Cavab verəcəklər min il sonra da.
Gedib istədiyin bir yeri qazsan,
görürsən üstü kül, altı soxulcan.
Torpaqda sürünən kərtənkələlər,
hər fəsil dəyişib bir rəngə girər.
Amma xəyanətin yoxdur əsası,
insanda qalmayır insan qisası.

ÇAPAR

(kənara)

Uruz bu sevdadan pərişan çıxıb,
kimə dost demışdi, o düşmən çıxıb.

ÇAR ARTAK

İber çarlığıdı Kürün o tayı,
Kürün bu tayında Alban sarayı.
Taledir səsləyən üzüküləyə ,
əl-ələ qardaşlar, kürək-kürəyə
Bütün İberiya, bütün Gürcüstan,
səfərbərlik edir günü sabahdan.
Alban ordusuyla İber ordusu,
elə ki, birləşdi, yoxdu qorxusu.

MƏLİKƏ AYDAN

Ulu babaları unutmaq olmaz,
and için, bir anda möhtacdı Qafqaz.
Dağ dağa söykənsə, sel yuya bilməz,
ayrılsa, el-eli qoruya bilməz.
Sizin dostluğunuz, qardaşlığınız,
Sizin gücünüzdü, bizim arxamız.

(Uruzla Artak xəncərlərini çıxarıb biləklərini çərtir və bir-birinə yapışdırırlar. Qanları bir-birlərinin damarlarına axır. Onları alqışlayırlar.)

ÇAR URUZ

(təmkinli)

Demişdim hər yanda yansın məşəllər,
söndürün, Pompeyi qovana qədər.
Zülməti zülmətlə biz qarşılayaq,
bizim gözümüzə işıqdı torpaq.
Məlikə, dəyişmir amma qərarım,
məclisə xoş gəlib mənim dostlarım.
İlkcanın gözünə qəm ələnməsin,
Qasidin ürəyi zədələnməsin.
Bu gün toy çalınsın, sabah da şeypur,
ordu qabağında Çar Uruz durur.

(hamı alqışlayır)

İşıq sönür və yanır. Şeypur səsi. Pompey svitası ilə daxil olur.

POMPEY

(Çapar kənardan qulaq asır)

Gecə Kolxidaya qaçıb Mitridat,
evində gizlədir onu camaat.
Pontdan – dəstəsilə Ermənistana,
sonra İberiya yol verib ona.

(yanındakılara göstəriş verir)

Elçilər ayırın iki-üç nəfər,
saraya göndərin, geçikməsinlər.
Çar Uruz... icazə versin o bizə,
Alban torpağından keçək.

FEOFAN

İcazə?

POMPEY

Hərbi güzəştdi bu, etikamız var,
sonra nə eləsək, tam haqqımız var.
Albanlar buraya yəqin bir zaman,
Romadan köçüblər, İtaliyadan,
Alban şəhərindən... əcdadlarımız...

FEOFAN

Yox, Pompey, adları oxşardı yalnız.
Gəmilər göndərib bir vaxt İsgəndər,
bir yanı Kür çayı, bir yanı Xəzər,
böyük Albaniya — silsilə dağlar,
Patroklun iri bir xəritəsi var.

POMPEY

İsgəndər görmədi onda Qafqazı.

FEOFAN

Sənə minnətdardı Ellin dünyası.
Pompey, Albanların çarıdı Uruz,
deyirlər məğrurdu.

POMPEY

Yəqin qorxdunuz.
Burda deyirlərsə, bəd xəbər deyil,
bu çarlar Kir deyil, İsgəndər deyil.
Onlar teatrda çar ola bilər,
çarların əksidir, əsli deyillər.

(yanındakılara göstəriş verir)

Yollarda, izlərdə keşikçi dursun,
çaşsın kəşfiyyatı gərək Uruzun.
Nə qədər çalışıb düşsə də əldən,
kəşfiyyat baş açmaz hərbi hiylədən.

FEOFAN

Düşmənin üstünü qəfildən almaq,
Pompeyin kəşfidir hücumdan qabaq.

POMPEY

Qaf dağı... Esxilin yazdığı əsər,
burda Prometeyi zəncirləyiblər.
Mələklər, iblislər burda görüşür,
burda qar ərimir, qara qurd düşür.

Deyirlər qədimdən burda yer yanır,
torpaq buxarlanır, su alovlanır.
Qayalar yaxındır Aya, Ulduza,
indi biz yaxınıq – Roma – Qafqaza.
Keçdim mən yürüşlə Arazdan bəri,
əzdim tayfaları, qəbilələri.
Arı sürüsüydü üstümə gələn,
çalırdı, sancırdı hər bir tərəfdən.
Bir ara vermirdi o gecə-gündüz.

(pauza)

Hünərsiz bir ölkə məhkumdu, sözsüz.

İ ş ı q s ö n ü r

IV ŞƏKİL

(Çaparın Pompeylə görüşü. Kürün sahilində mağaraya bənzər bir yer.)

ÇAPAR

(*daxil olur, kənara*)

Pompey, Yuli Sezar, bir də ki, Krass,—
üç sütun durduqca Roma basılmaz.
Pompey yer üzünə meydan oxuyur,
abad şəhərləri xəraba qoyur.
Deyirlər Pompeytək bəxti gətirən,
nə sərkərdə olub, nə başqa tiran.
Krass Spartakı vurub arxadan.
Pompey şərik çıxıb ona sonradan.
Ona "Böyük Maqn" Roma ad qoyub,
amma atasına lənət oxuyub.
Qorxduğu — bəlkə də Pontda Mitridat.—
Pompey əsəbidir, Roma narahat.

(Pompey svitası ilə daxil olur)

POMPEY

(Çaparı nəzərdə tutaraq)

Yəqin bələdçisən.

ÇAPAR

Bələdçi?.. çətin...
Cəzası ağırdı o xəyanətin.
Bizdə bir misal var: böyük adamlar
bələdçi axtarmaz, bələdçi olar.

POMPEY

Burda düşmənimdi Pont hökmdarı,
onun nə haqqı var, nə ixtiyarı.

ÇAPAR

Qafqazda albanlar, bir də iberlər,
dostdurlar qədimdən indiyə qədər.
Bax, bu qayalara, uca dağlara,
təbiət xasiyyət verib onlara?
Gizlənir Pompeydən Pont hökmdarı,
gecəli-gündüzlü yoxdu qərarı.

POMPEY

Bəs Tiqran, bəs böyük bir Ermənistan?!

ÇAPAR

Bizə xain çıxıb o binə-başdan.
Qafqazda yer tapıb yaşasalar da,
Qafqaz xasiyyəti yoxdur onlarda.
Bizim yanımızda bizə dost deyir,
yadelli gələndə ona baş əyir.

(*pauza*)

Pompey, hər xörəyin bir kəfi olar,
xörəyin özü yox, kəfidir onlar.
Satqındı, qorxaqdı, yaltaqdı Tiqran,
Pompeyə, Romaya dost olmaz ondan.

POMPEY

Böyük dövlətlərə dost gərək deyil,
qorxu kifayətdi...

(pauza)

Tiqran tək deyil.

ÇAPAR

Biz də tək deyilik, Pompey, şübhəsiz,
azsaylı olsaq da, çoxdu çəkimiz.
Pompey də böyükdü, birinci əsgər!
Böyüklük göstərsin gərək böyüklər.

POMPEY

Böyüklük?!

ÇAPAR

Qafqazdan çək qoşunları,
dağlarda qıracaq Qafqaz onları.

POMPEY

Albanlar, İberlər qorxub qaçarlar!
Bu əldəqayırma, balaca çarlar!
Pompeyin Qafqaza yürüşü bir vaxt,
Qafqaz tarixində xatırlanacaq.

ÇAPAR

Düşməni — mərdlərin qılıncı ilə,
Dostu — at belində yapıncı ilə.
Belədir əzəldən dağlı adəti,
dağlar özü verib bu təbiəti.

POMPEY

Bəs hanı qılıncın, bir hünər göstər.

ÇAPAR

Hünəri qılıncsız göstəribdilər.

POMPEY

Bir də təkrar elə sən bu kəlamı,
qılıncsız, qalxansız hünər olarmı?!
Bu fikir təzədir məndən ötəri,
qılınclar qoruyur qalib əsgəri.

ÇAPAR

Gedir bu dunyadan qılınc yarası,
getmir söz yarası...

POMPEY

Nədir mənası?.

ÇAPAR

Pompey, bir insan var, bir heyvan olur, –
sözdən yaralanan, söz qanan olur.
Pələngə, ya şirə söz kar eləməz...

(iki mənalı)

Pompey dediyimi inkar eləməz!

POMPEY

(kənara)

Dünyadan nə qədər daş-qaş gətirdim,
gecə tapdığımı gündüz itirdim.
Orduya payladım var-dövlətimi,
göstərdim dünyaya öz qüdrətimi.
Adi bir albanın dediyi kəlam,
burda heyran qoydu, məni, danmıram.
Qafqazı tanıtdı, bələdçim oldu,
ancaq heç bilmədim özü kim oldu.

ÇAPAR

Burda oğullar var, Pompey, oğullar,
təkbətək orduyla üz-üzə durar.

POMPEY

Onun biri mənəm, yəqin biri sən.

ÇAPAR

Mən kiməm, nə gəlir mənim əlimdən!
Tutub yer üzünü şöhrətin, adın,
ölkələr fəth etdin, şəhərlər aldın.
Çıxdı pişvazına tağlı saraylar,
ağır qərarını dinlədi şahlar.
Yerdə bilmədilər, gələn gurultu,
göydə ildırımdı, ya vəhşi ordu?.
Məğrurlar önündə məğrur səs oldun,
sən əydin, sən özün əyilməz oldun.
Lakin, bu kainat tək sənin deyil,
dünya Allahındı, bəndənin deyil.
Meşədə yaşayır bayquşla bülbül,
şir, ceyran, ya qartal min il, milyon il.
Niyə heyvanların dili yox ikən,
dil tapıb yaşayır belə qədimdən?
İnsan öz əslinə oxşaya bilmir,
dili var, dil tapıb yaşaya bilmir?.
Səmada Günəş var, ulduz var, Ay var,
göydən üstümüzə tökülmür onlar.
Orda da bir mizan, bir qayda-qanun,
Dostudur Ay oğlu, Günəş oğlunun.
Niyə bu yerdə də nüfuz olmasın,
niyə Pompey olsun, Uruz olmasın?
Niyə senat qalxsın, elan eləsin,
Pompey Mitridata divan eləsin?
Yaşaya bilməzmi başqa ölkələr,
niyə bir başçıya baş əysin bəşər?

POMPEY

(təmkinli)

İnsan cilidində insan olmayan
nə qədər canlı var, yerdə yaşayan.
Hələ çox fərmanlar yazılmalıdır,
onlar ölməlidir, asılmalıdır.
Cəmiyyət — bir göldü, qoşun bir külək,
O külək əsməsə, göl kiflənəcək.
Bağban ağacları darayır tamam,
kəsməsə, bilir ki, quruyar tamam.
Yox, Çapar... ən qədim fəlsəfi fikir,
Sənin sözlərini təkzib eləyir.

ÇAPAR

Demək, gələcəkdə, bundan sonra da,
İnsan qırılacaq hələ dünyada?
İnsanlar yaxşıdır, münasibət var,
yüz il yaşasa da, bir axirət var.

(pauza)

POMPEY

Gələcək ölçüdür, mizan-tərəzi,
Misqalla çəkəcək qəsdi-qərəzi.
Mənim xidmətimi o inkar etməz,
Qılınc qurşayana qanun kar etməz.

İ ş ı q s ö n ü r

V ŞƏKİL

(Köhnə qəbristan)

BƏLƏDÇİ

Axber, gəl əyləşib dincələk bir az,
ölüdən diriyə xata toxunmaz.
Qoy orda vuruşsun Pompeylə Uruz,
Uruz düşmənimiz, Pompey dostumuz.
Gəl, eşək, qəbirlər dövlətdi-vardı,
Heyif, pis qazıblar, divarı dardı.

ƏSGƏR

Biz də öləcəyik yəqin bir zaman.

BƏLƏDÇİ

Sən də öləcəksən, nə darıxırsan?

ƏSGƏR

Yəni qəbristanda adi bir qəbir?

BƏLƏDÇİ

Qəbir olacaqsan, dünya belədir.

ƏSGƏR

Bizi də udacaq bu qara torpaq.

BƏLƏDÇİ

Səni də udacaq, darıxma ancaq.

ƏSGƏR

İnsanın axırı gör nədi, dəhşət.

BƏLƏDÇİ

Sənin də axırın beləymiş əlbət.

ƏSGƏR

Əbədi gedirik: cənnət, cəhənnəm.

BƏLƏDÇİ

Sən get cəhənnəmə, mən sonra gəlləm.
Sən orda cənnətin yolunu öyrən,
burda bələdçi mən, axirətdə sən.

ƏSGƏR

(qəbri nizə ilə eşələyir və qorxub çəkilir.)

Baş daşı elə bil boynunu burub,
hər qəbir üstündə keşikçi durub.
Gör harda salıblar qəbristanlığı,
cığırlar — soyulmuş ilan qabığı.

BƏLƏDÇİ

Bir evin başçısı ölürsə əgər,
nəyi var, özüylə dəfn eləyirlər.
Qızılı, daş-qaşı, varı, dövləti.

ƏSGƏR

İlişdi deyəsən.

BƏLƏDÇİ

Qəbrin qiyməti
insanın özündən qiymətli olur.

ƏSGƏR

Bizim əvvəl-axır sonumuz budur.

BƏLƏDÇİ

Burda filosofluq eləmə, axmaq,
onlar göyə baxdı, sən qəbirə bax.

ƏSGƏR

İlişdi deyəsən.

BƏLƏDÇİ

Küpədir, dayan,
qızılla doludur, sən sındırarsan.

ƏSGƏR

Mən tapdım, mənimdir hamısı tamam,
burdan qayıdanda bir mülk alaram:
içində hovuzu, bağçası, bağı…

BƏLƏDÇİ

(kənarda Çaparı görür)

O kimdi, tökülüb qaşı-qabağı?
Var-dövlət axtarır yəqin o hərif,
bizim gözümüzdən orda gizlənib.

ÇAPAR

(*daxil olur)*

Bizə babalardan qalıb bu torpaq,
biz də... ölənəcən gərək qoruyaq.

BƏLƏDÇİ

Ey, orda sən kimsən?

ÇAPAR

Dağlıyam, burdan.

BƏLƏDÇİ

Qızıl axtaransan?

ÇAPAR

Yox, qəbir qazan.

(kənara)

Biri ermənidi, biri romalı,
bu da havalıdı, o da havalı.
Bələdçilik edir ona binamus.

(kənara)

Böyük Ermənistan... Çapar, hələ sus.

(ucadan)

Ölumüz düşübdü, qəbir qazıram,
bizim tayfamızın başçısı, babam.

BƏLƏDÇİ

Qızılı, daş-qaşı, yəqin nəyi var,
özüylə bərabər basdıracaqlar?

(kənara)

Kasıbın nə dostu, nə qohumu var,
dostu ağız büzər, qohumu danar.

ÇAPAR

Qızılla doludu burda qəbirlər,
çəkir keşiyini şirlər, bəbirlər.

BƏLƏDÇİ

Şirlər, ya bəbirlər qoruya bilər?

ÇAPAR

Vəhşidən qoruyur onu vəhşilər.

ƏSGƏR

Tamam təmizlədim böyür-başını,
nə dərin basdırıb o daş-qaşını.
Nə böyük küpədir, ağzı bağlıdır.
Qoy açım, qoy açım...

BƏLƏDÇİ

(əyilib qəbirin içinə baxır)

İki tağlıdır.
Üstündə yazı var, oxumaq olmur,
yəqin ölülərin varlısı budur?

(Romalı əsgər küpənin ağzını açır və bərk qucaqlayır. Qəhqəhə ilə gülür, gülə-gülə də keçinir.)

ÇAPAR

Əqrəblər sancdılar.

BƏLƏDÇİ

Nələr?

ÇAPAR

Əqrəblər.

BƏLƏDÇİ

Bəs niyə gülürdü, belə bir təhər?.

ÇAPAR

Əqrəblər sancanda karıxır insan,
gülür, ağlamağı çıxır yadından.

BƏLƏDÇİ

Əqrəblər qoruyur varı-dövləti?

ÇAPAR

Əqrəblər tanıyır bu məmləkəti,
O da öz borcunu ödədi bu gun,
Bir yağı öldürdü — qansız və düşgün,

(oxla onu nişan alır)

Tərpənmə, yaramaz!

BƏLƏDÇİ

Nə?... Qəbirqazan?...

ÇAPAR

Küpü də özünlə çıxart məzardan.

BƏLƏDÇİ

Mən axı, mən axı... burda nəçiyəm?.

ÇAPAR

Sən xain, goreşən...

BƏLƏDÇİ

Mən... bələdçiyəm.

ÇAPAR

Doldur öz əlinlə, boş küpə dolsun,
torpaq ye, qarnın yox, gözün tox olsun.

(Bələdçi səhnə boyu fırlanır, vurnuxur, küpəni doldurur və torpaqdan yeməyə başlayır)

BƏLƏDÇİ

Zəhərdi, mən necə yeyim zəhəri?

ÇAPAR

O baldan şirindi bizdən ötəri.
Taxılı, bostanı, bağı, meyvəsi,
yoxdu yer üzündə onun əvəzi.
Sağ ikən yemləyər bizi sərasər,
ölsək, üstümüzü yorğantək örtər.
Romadan Pompeyi göndərir senat,
sən adamyeyənsən.

(bir ovuc torpaq götürür)

Torpaq ye, cəllad.

BƏLƏDÇİ

Mənə rəhmin gəlsin, bir insanam mən.

ÇAPAR

Mən çörək yeyənəm, sən torpaq yeyən.

BƏLƏDÇİ

Boğuldum, zəhrimar... boynum düz qalıb.

ÇAPAR

Niyə, zəhrimarda gözünüz qalıb?.
Düşmənə bələdçi, qonşuya düşmən,
şahzadə Tiqranın gəlsin gözündən.
Nə üzü bilinir, nə də astarı,
dünyanın ən kinli hiyləbazları.

BƏLƏDÇİ

Su, su... boğuluram...

ÇAPAR

İndi necəsən?
Qaniçən su içməz, sən qaniçənsən.
Səni torpaqda yox, əksinə gərək,
torpağı mən səndə basdıram, köpək.

İ ş ı q s ö n ü r

VI ŞƏKİL

(Alban sarayı)

ÇAR URUZ

(*daxil olur*)

Ordu səfərbərdi, ölkə narahat,
Çapar danışdı ki, qaçıb Mitridat.
Şaha yox deyibdi qohumu Tiqran,
şah kömək istəyib, qaçıb arxadan.
Tutub göndərdiyi elçilərini,
Pompeyə bildirib onun yerini.
Mitridat sülh deyib sonra Pompeyə,
o da rədd eləyib, — təslim ol, — deyə.

(*pauza*)

MƏLİKƏ AYDAN

(daxil olur)

Pompey hiyləgərdi, izn istəyir,
yəni, torpağını mənə ver deyir.
Çar Uruz, taxt-tacda oturan heç kəs,
sonuncu fikrini əvvəlcə deməz.
Tələsmə, tədbirlə görülən işdən,
insan iki dəfə sevinir hökmən.
Əvvəl biləndə ki, yanılmayıbdı,
sonra bəhrəsini gördüyü zaman.
Sənə kömək olsun ulu yaradan,
Həqiqət heç yerdə danılmayıbdı.

Əl işdə görünüb, daş hörgü üstə,
yüz budaq doğranıb bir kötük üstə.

ÇAR URUZ

Pompey keçmək üçün ərazimizdən,
izn istəyəcək əvvəlcə bizdən.
Hakim dövlətlərin təcrübəsi var,
izn istəyirlər əvvəlcə onlar.
Deyirlər köməyik, yardım əliyik...
sonra, tələbini ödəməliyik.
Pompey Kür üstündə çadır quracaq,
Milli bayramıdır onların sabah.
Üç yerə bölübdü bütün qoşunu,
qəfildən hücumdu bu qəsdin sonu.

ÇAPAR

(*daxil olur*)

Bir elçi gəlibdi, xoşdur niyyəti,
Elçidə Pompeyin səlahiyyəti.

ÇAR URUZ

Qoy gəlsin.

(elçi daxil olur, təzim edir)

Elçiyə hörmət, ehtiram.

FEOFAN

Sülhdür məramımız.

ÇAR URUZ

Qulaq asıram.

FEOFAN

Çar, böyük Pompeydən məktub var sənə,
hörmətdi bu çarlıq şərafətinə.

(məktubu verir)

Dağların qoynuna qaçıb Mitridat,
onu gizlədibdi vəhşi camaat.
İcazə istəyir Pompey, çar Uruz,
Alban torpağından keçsin ordumuz.
Basılmaz qüvvədir, bizim qoşunlar,
yəqin sarayda da rəy müsbət olar.
Təəssüf eləsə Pompey bir qədər,
nə sənə, nə bizə xeyiri dəyər.

MƏLİKƏ AYDAN

(kənara)

Ağırlıq eləməz bir baş heç kəsə,
bir baş ikibaşlı söz işlətməsə.

(ucadan)

İcazə istəyir, Pompey əmr edir?

FEOFAN

Qalib sərkərdənin dili belədir.

MƏLİKƏ AYDAN

Quşu dimdiyindən tanıyırıq biz,
uşağı bələkdən... çoxdu səbrimiz.
Elçilər görmüşük biz qonaq kimi,
gərək danışmasın elçi şah kimi.
Qürurla açılmaz bağlı qapılar,
səbrlə axtarsan, itən tapılar.
Ağız tərəzidi, dil orda pərsəng,
söz əvvəl ağızda çəkilsin gərək.
Ağırı, yüngülü onda bilinər.

(pauza)

Çar yəqin təmkinli sözünü deyər,
Çarın öz cavabı əsasdı.

FEOFAN

Əsas.
Çar razılıq versə, nahaq qan axmaz.
Böyük Ermənistan, Tiqran şahənşah,
bizə müttəfiqdi, şahiddir Allah.

ÇAR URUZ

Bunu eşitmişik... səni bir qədər,
xəbər göndərməkdə ləngidibdilər.
Cənub qonşumuzdu bizim Mitridat,
Pompey yadellidir, bilir camaat.

Bu torpaq vətəndi, vətən torpağı,
ona dəyə bilməz düşmən ayağı.
Romada yarışsın Roma atları,
Alban sarayının budur qərarı.
Sən vəhşi dediyin dinc camaatdır,
vəhşi qoşunlardan o narahatdır.
Pompey təəssüf ki, tövbə eləsin.

(pauza)

Elçini ötürün, qoy ləngiməsin.

(*Feofanı yola salırlar)*

Şahzadə danırmış nədir niyyəti,
Dərk edə bilmirəm bu xəyanəti.

MƏLİKƏ AYDAN

Lukull gələndə də, Pompeydən qabaq,
şahzadə Tiqranı gizlətdin o vaxt.
Lukull dağıtmışdı Tiqrankerti,
şahdan şahzadəni tələb edirdi.
Atası qəddardı, heç nahaq yerə,
Şah Tiqran özünü bənzədir Kirə.
Deyir varisiyəm böyük Daranın,
hikkəsi sonsuzdu qoca Tiqranın.
İgid ölümdən yox, qorxsun ləkədən,
sağlığında ölür ləkə götürən.

ÇAR URUZ

İndi Ermənistan satılıb hökmən,
şah Tiqran düşməndir, şahzadə düşmən.
Pompey söz veribdi yəqin Tiqrana,
Alban torpağından yer versin ona.
Roma ordusuyla birlikdə yəqin,
hücumu gözlənir ermənilərin.
Pompey keçmək üçün ərazimizdən,
icazə istəyir əvvəlcə bizdən.
İcazə istəməz qoşunla gələn.

(pauza)

Tiqran Çar Artakdan göruş istəyib,
o mənə Uruzdan yaxındır deyib.
İstəyir Artakdan razılıq alsın,
bizim aramıza təfriqə salsın.
Görünür, Artakdan yoxdu xəbəri,
Gürcüstan əyilməz şahdan ötəri.

ÇAPAR

(*kənara*)

O, indi mənəvi əziyyət çəkir,
bu köhnə yollarda təzə xətt çəkir.
Döyüş meydanıdı bir başın içi,
qulaqlar — keşikçi, gözlər — xəbərçi.
Baş — zireh, fikirlər qoşun kimidir,
zirehli qoşundur əslində fikir.
Beynində vuruşur səngərdən qabaq,
burda qalib gəlsə, orda udacaq.

(hamı alqışlayır, şeypur çalınır.)

İ ş ı q s ö n ü r

VII ŞƏKİL

(İberiya knyazlığı. Artakla II Tiqranın görüşü)

ARTAK

(*svitası ilə daxil olur)*

Bu gün gəlməlidir yanıma Tiqran,
xəbər göndəribdi adamlarıynan.
O məni təklikdə görmək istəyir,
yəqin bir sözü var, demək istəyir.
hərbi ittifaqdı bəlkə niyyəti?
Döyüşür meydanda İber dövləti.
Pompey hədələyir bütün Qafqazı,
üstəlik, Tiqranın xeyir-duası.
Böyük Ermənistan, ya böyük Tiqran,
ayağa qalxmadı əlində qalxan.
Əksinə, Qafqazdan Qafqaz istədi,
xaqan sözü deyib, məqam gözlədi.
Lakin qorxuludur gəldiyi qərar,
Qafqaz onun olsun, o da hökmdar?!
Romaya güvənir Qafqazda Tiqran,
Qafqaz oğulları çıxır yadından.

(pauza)

Birləşə bilsəydik birinci gündən,
biz qova bilərdik Pompeyi hökmən.
Böyük Ermənistan eşqilə Tiqran.
xəcalət çəkməyir satqınlığından.
Bunu gözəl bilir, o uşaq deyil,
görkəm o görkəmdi, şah o şah deyil.

(*pauza*)

Onu qəbul etsəm, bir Xaqan kimi,
tarix bağışlamaz mənim səhvimi.

(keşikçi daxil olur, II Tiqranın gəldiyini xəbər verir. Artak onu pişvaza çıxır. Kənara)

Qonaq qarşılamaq adətimizdi,
xalqın niyyəti pak, ruhu təmizdi.

II TİQRAN

(*daxil olur, görüşub əyləşirlər*)

Gəldim qonşu kimi, müsafir kimi,
qalacaq bu söhbət burda sirr kimi.
Bu görüş çoxdankı bir arzum idi,
mən səni bilmirəm, bu lazım idi.
Meydan görməyənlər meydan oxuyur,
Pompey xeyirxahdı, o bizi duyur.

ARTAK

(sözünü kəsir)

Pompey xeyirxahdı?

II TİQRAN

Xeyirxah, inad.
Lukull cəllad idi.

ARTAK

Bu, daha cəllad.
Hələ Spartakın meyidi üstə,
quzğunlar süzürdü dəstəbədəstə,
Altı min qul seçdi üsyançılardan,
çarmıxa çəkdirdi Pompey sonradan...

(pauza)

Bəlkə bu gəlişin, hörmətli Xaqan,
Pompeyin əmridi belə, nagahan?

II TİQRAN

Yox, buna Pompeyin yox ehtiyacı,
o mənə qaytardı taxt ilə tacı.

ARTAK

Getdin ayağına sən də Pompeyin.

II TİQRAN

Artak, əsassızdı məncə, gileyin.

ARTAK

Yox, Tiqran, hökmdar?.. düşmən ayağı?.
fikrimi deyirəm gürcüsayağı.
İranın ən ulu sülalələri,
sənin əcdadındı zat-aliləri?
Özün fəxr edirsən — əhəmənilər.
Mənə çox danışıb gələn elçilər.

İran ənənəsi və siyasəti,
Tiqran sarayının ilk ana xətti.
Daranın varisi, ya Kserksin,
gərək öz sözünü mərdanə desin.
Dara baş əymədi İsgəndər şaha,
burda sən... bilmirəm nə deyim daha.
Pompey hədələyir bütün Qafqazı,
bəli, qorxuludur bunun sonrası.
O qoşun yeridib Ermənistana,
istəyir ölkələr baş əysin ona.

II TİQRAN

Yox, Pompey istəyir ona dost olaq,
gələn təhlükədən tamam qurtulaq.
O deyir qoy qalsın dağlı ölkələr,
silah götürməsin ancaq bir nəfər.
Mənə tabe olsun... ilk şərti budur,
O, İsgəndər kimi qanunlar qoyur:
Kim tabe olursa, dostumdu deyir,
tabe olmayanı o məhv eləyir.
Uruz da vuruşur Pompeyə qarşı,
sərçə bir qartala, bir leyə qarşı...

ARTAK

(sözünü kəsir)

Yox, yox qardaşımdı, qorxmazdı Uruz,
o əsl qartaldı, birdi yolumuz.
Onun siyasəti, ağlı, zəkası,
məni heyran qoyur sözün qısası.

II TİQRAN

Saxlaya bilərmi Uruz Qafqazı?

ARTAK

Uruz qəhrəmandı, Qafqaz arxası.

II TİQRAN

Onun arxasında bir Roma durur.

ARTAK

Bunun öz varlığı şücaət, qürur.

II TİQRAN

Pompey sərkərdədir.

ARTAK

Uruz hökmdar.

II TİQRAN

Pompey xeyirxahdı.

ARTAK

Uruz inadkar.

II TİQRAN

Pompey istəyir ki, gəlib obaşdan,
keçsin Kolxidaya İberiyadan.
Alban sarayına elçi göndərib,
Pompey xahiş edib, Uruz yox deyib.

ARTAK

Qoşun çəkə bilməz bizim torpağa,
albanlar, iberlər qalxıb ayağa.

II TİQRAN

Pompey Mitridatı axtarır.

ARTAK

Nahaq,
o şaşqın, bu məğrur... hardan tapacaq?
Yayılıb Romaya artıq hünəri,
sən ki, qohumusan, – qızının əri.

(iki mənalı)

Kim kəsib gətirsə başını əgər,
mükafat alacaq səndən, — deyirlər.

II TİQRAN

Mitridat?.. O kimdir, nəçidir, nədir?
onun beyni-başı dolu hiylədir.

ARTAK

Yox, Tiqran, qafqazlı bir ağsaqqalın,
adına yaraşmır sənin sualın.
Mitridat... qüdrətli Pont hökmdarı,
indi nə hökmü var, nə ixtiyarı.
Pompeyin Qafqaza gəldiyi gündən,
qoşunu, ölkəsi çıxıb əlindən.

II TİQRAN

Mitridat düşməndi mənim taxtıma.

ARTAK

Bir düşmən kimi də o, mərddir amma.

II TİQRAN

İndi Mitridatın başını kəsən,
düşmən olsa belə, deyərəm əhsən.

ARTAK

Baş kəsən kimdirsə, əslinə baxsan,
O dost olsa belə, düşməndir inan.

(pauza)

Hələ Spartaka gizli fal açan,
əvvəldə haqq alıb, axırda qaçan.
Kili... kiyalılar məhvə aparmış,
Onlar da erməni tayfalarıymış.

II TİQRAN

(ümidsiz halda ayağa qalxır)

Görüş alınsa da, qoy qalsın, Artak,
söhbət alınmadı.

ARTAK

Alınmayacaq.

(kənara)

Buyursun Tiqran şah.

II TİQRAN

Artak buyursun.

ARTAK

Yox, yox sən qonaqsan, buyur.

II TİQRAN

Qoy olsun.

(Ayrılırlar. Artak fikirli və məğrur görkəmdə qayıdır)

ARTAK

(kənara)

Qoy getsin, Pompeydi onun arxası,
hələ tanımayıb Roma Qafqazı.
Qonub qayalara igid oğullar,
gözüaçıq yatır şir kimi onlar.
Qartal yuvasıdır baxsan hər yana,
dağ-dağa söykənir, Pompey Tiqrana.
Çiyin-çiyinədir Artakla Uruz,
ən qədim, ən yaxın ocaq qonşumuz.
Əl-ələ, qardaşlar, yalnız əl-ələ.

(Əl-ələ verən saray adamları səhnəyə çıxır, "Yallı" havasına bənzər bir yerişlə gedirlər)

Bax, belə, qardaşlar, yalnız bax, belə.
Qafqazda baş əyən, diz çökən heç kəs,
heç zaman qafqazlı sayıla bilməz.

İ ş ı q s ö n ü r.

VIII ŞƏKİL

(Kür qırağı, meşəlik bir yer)

URUZ

(daxil olur)

ÇAPAR

(kənara)

İcazə istəməz qoşunla gələn,
o hücum edəndi, bu sinə gərən.
Üz-üzə gəlməmiş bizim ordumuz,
üz-üzə gəlibdi Pompeylə Uruz.
Biri nişan alan, biri nişangah,
yer göydən xəbərsiz, göy yerdən agah.

(Pompey svitası ilə daxil olur)

URUZ

Böyük Maqn Pompey.

POMPEY

Uruz hökmdar.

(pauza)

Sirli-sehirlidir burdakı dağlar,
bizdə də Vezuvi, bir yanar dağdı,
dünya soyuyacaq, o yanacaqdı.

URUZ

Yanır Qafqazda da kükürdlü sular,
içindən od çıxan dərin quyular.

ÇAPAR

(kənara)

Əvvəl körpü salır onlar haqq üçün,
fikirdən fikirə addamaq üçün.
Ən böyük sözünü son sözə qədər,
xahiş edə bilməz, qalib bir əsgər.
Böyük imperiya əyilməz, sınar,
Pompey qəsbkardı, Uruz inadkar.

POMPEY

Bu görüş olsa da gizli, şah Uruz,
gərək bu torpaqdan keçsin ordumuz.
Yerlə yeksan olsun gərək Kolxida,
qaçıb gizlənibdi orda Mitridat.

URUZ

(təmkinlə)

Pənah gətirənə, Pompey, aman ver,
bir qaçan vardısa, bir də qovan var.
Qovan da, qaçan da kömək istəyir.

ÇAPAR

(kənara)

Qaçanı saxlamaq ürək istəyir.

URUZ

(təmkinli)

Pompey – Romanyanın baş sərkərdəsi
bir şəxsin dalınca belə düşməsi,
Ordu yeritməsi… gülünc görünür,
səni kiçildirsə, onu böyüdür.
Tiqrana bənzəmir sözsüz, Mitridat,
onda tac həvəsi, bunda etiqad.
qohum olsalar da, düşməndi onlar.

POMPEY

Tiqran müttəfiqdi... Uruz hökmdar.

ÇAPAR

(kənara)

Pompey pələng kimi düşüb qəfəsə,
çırpınır, Uruzla nəfəs-nəfəsə.
Gör necə seçilir vəhşi, yırtıcı,
bu yol ayrıcıdı, tale ayrıcı.

URUZ

Müttəfiq sanırdı Tiqranı Qafqaz,
bütün Kür-Araz.
Bütün el-elatın müttəfiqiydi,
Tiqran Mitridatın müttəfiqiydi.
Başqa cür baxırıq biz müttəfiqə,
ya əsl müttəfiq, ya da təfriqə.
Şərqin təfəkkürü başqadır tamam,

(iki mənalı)

Əxlaqla ölçülür hətta ehtiram…

POMPEY

(onun sözünü kəsərək)

Şərt deyil sevməsi, ya dost olması,
şərtdi müttəfiqin səndən qorxması.
Bu gün müttəfiqdi dünənki düşmən,
Qafqaz – dost axtarır, Qərb – kömək edən.
Yaramaz Tiqrandan belə incimək,
ölkələr nümunə götürsün gərək.

URUZ

(təmkinlə)

Qafqaz dost axtarır, Qərb kömək edən,
bax, burda ayrılır Qafqaz da Qərbdən.

Hələ "Avesta"dan, Zərdüştdən bəri,
döyüşən görmüşük Xeyirlə Şəri.
Ana kitabımız, ilk dinimizdi,
qədim fəlsəfəmiz, ayinimizdi.
Zülmlə ədalət, Gecəylə Gündüz,
daim vuruşubdu… Əhriman, Hürmüz.
İşıq qaranlıqla… Pompey, barışmaz
İşığa səsləyir Qərbi də Qafqaz.

POMPEY

İsgəndər yandırdı "Zend Avesta"nı,
böyük qüvvə pozdu böyük dastanı.
O vaxt dağıdıldı Atəşgədələr,
yanıldı, bəlkə də böyük İsgəndər?!

(pauza)

Əbədi şəhərdi Roma dünyada,
Qafqaz balacadı amma dünyada.
Qafqaz arxalansın Romaya gərək,
İndi… torpağından izin ver keçək.
Mən gizli gəldim ki, açıq danışaq…

ÇAPAR

(kənara)

Başçılar vuruşur ordudan qabaq.
Əsl müharibə meydanı budur,
Pompey hər addımda istehkam qurur.

Uruz qılıncla yox, yenə bu dəfə,
vurur siyasətlə eyni hədəfə.

URUZ

Vətən ululardan qalıb yadigar,
burdan keçə bilməz özgə ordular.
Buna nəsil-nəsil biz and içmişik,
torpağa can verib, candan keçmişik.
Mən icazə versəm, pozular bu and, –
andı mən olaram birinci pozan?
Pompey, andı pozmaq xəyanət olur,
Şəhid – hökmdarla bərabər durur.
Bizim hüququmuz eynidir, fəqət,
yer altı, yer üstü… fərq budur, əlbət.
Biz yad ordulara icazə versək,
Şəhidlər yer altda tapdanır demək.
Yox, Pompey, Qafqazda bu mümkün deyil,
bunu izah etmək heç düzgün deyil.

POMPEY

Deməli, barışmır xeyir ilə şər,
bu yol ayrıcında çaşıbdı bəşər.
Gedib Kolxidanı mən tutmalıyam,
ya bütün Qafqazı dağıtmalıyam.

(İşıq sönür.
Tiqran qaranlıqda peyda olur)

II TİQRAN

(kənara, fikirli)

Uruzdan Artakı ayırmaq olmur,
onları ayırıb buyurmaq olmur.
Artakın canında bu gürcü qanı,
Həzm edə bilmədi Ermənistanı.
O vaxt ki, Asiya, bütün Midiya,
Hələ Sisiliya, ya Kilikiya,
Mesopotamiya… başqa ölkələr,
Tiqranın tacına tac əyirdilər,
Dünya vassalıydı Ermənistanın,
Onda da məndəydi gözü Romanın.
Mənim qohumumdu qanlı Mitridat,
Parfiya xaqanı başqa bir qohum.
Birindən qız aldım, dəyişdi həyat,
birinin qızıyla evləndi oğlum.
Mənimlə yaxınlıq bir hadisəydi,
qohumluq – o yeni bir vərəsəydi.

(pauza)

Gərək Alban çarı, İber knyazı
etibar edəydi mənə Qafqazı.
Gərək mən Pompeylə görüşən zaman,
söhbət aparaydım Qafqaz adından.
Bu çarlar, knyazlar daimi qalmaz,
Dənizdən dənizə bizimdi Qafqaz.
Qoy yazsın erməni tarixçiləri,
sübuta yetirsin, qədimdən bəri

Tarixi – şahların istədiyitək,
Tarixçilər yazır – belədi gerçək.
Bu mənim müqəddəs bir niyyətimdi,
gələcək nəsilə vəsiyyətimdi.

ÇAPAR

(kənara)

Qafqaz – çətin oldu bu ilk imtahan,
Pompey – toppuzdursa, Uruz da – qalxan!
Qalxan yox, qayadır, nəhəng bir qaya,
Qafqazı tanıdır indi dünyaya.

(Pompeylə Uruz Çapardan aralanırlar)

İ ş ı q s ö n ü r.

I hissənin sonu.

I I HİSSƏ

IX ŞƏKİL

(Qladiatorların döyüş səhnəsi)

POMPEY

Feofan, meydanda döyüşdən qabaq,
bilmirdim mən hansı qalib çıxacaq.
Xəncərlər, qalxanlar düşəndə işə,
başqa məna verdim mən bu gedişə.
Dedim biri mənəm, biri Mitridat,
görək kimə verir axırda həyat?
Mən onu öldürdüm… vuruşda demək,
Pompey orduları qalib gələcək.
Mitridat nə qədər qaçsa da uzaq,
beləcə, əlimdə o məhv olacaq.

FEOFAN

Siseron nə deyir, Pompey, dostumuz,
alın yazısıdır hünər və namus.
Bütün döyüşlərdə, harda olmusan,
qələbə ardınca gəlib doğrudan.
Sənin xidmətini unutmaq olmaz, –
Afrika, Avropa, Asiya…

(pauza)

Qafqaz!

POMPEY

İsgəndər Darayla vuruşan zaman,
görür iki kəklik, dimdiyi al qan,
didib bir-birinin tükünü yolur,
dünyanın işinə şah heyran olur.
Onda da İsgəndər baxıb onlara,
deyib biri mənəm, o biri Dara.
Sonda qalib gəlir kəklik İsgəndər,
Mən indi gördüm ki, basılmaz hünər.

FEOFAN

İsgəndər vuruşdu Axilles kimi,
Pompey İsgəndərin özü deyilmi?!
Krass – təhlükəli səhv eləmişdi:
ordu yaranmışdı – atlı, piyada.
Pompey, ləngisəydin İspaniyada,
Spartak Senatı məhv eləmişdi.
Romaya tökmüşdü ac qullarını,
bir də Frakiya yoxsullarını…
Kim əsil romalı sayıla bilər? –
Pompey, bilirsənmi kim ola bilər?

(pauza)

Kim şöhrət qazanıb, bir ad alırsa,
kim vətən yolunda alovlanırsa,
əsl romalıdır o, əsl insan.
Şair Vergilidir bunları yazan.
Dəbilqə gizlədir ağ saçımızı,
təki sərrast çalaq qılıncımızı.
Nizami orduyla yürüşə çıxan,
Pompey romalıdır, böyük qəhrəman.

Vətənə xidmətdi sənin həyatın,
vəhşi Afrikanı sən necə aldın!
İsgəndər – İkinci Filippin oğlu,
Ellin dünyasında Gün kimi doğdu.
Ölkədən ölkəyə çapdı atını,
xalqlar əzbərlədi onun adını.
Doğma vətənində hətta o xalqlar,
atının adına şəhər saldılar.
İsgəndər keçmədi daşqın Arazı.
Roma tarixinə saldın Qafqazı.
İlk hərbi düşərgən Kür qırağıydı,
Dillərə düşmüşdü Pompey hünəri.
İsgəndər – axırda İran şahıydı,
sən – şanlı general, Roma əsgəri,
Pompey kəşf elədi: Mil var, Muğan var,
Günbatan tərəfdə bir gündoğan var.

POMPEY

Yaz, dostum Feofan, bu günləri yaz,
Sən yazsan, tarix də bizi unutmaz.

İşıq sönür.

X ŞƏKİL

(Alban sarayı)

İLKCANIN MAHNISI

Mən Qasidi soruşdum, –
görənlər mənə dedi:
Ağ atın belindədi.
Qasid yıxılmaz atdan.
Ağ at, sən aparıbsan,
Ağ at, qaytar Qasidi.

Mən Qasidi soruşdum, –
dedilər səngərdədi,
ən uzaq səfərdədi.
Qasid, harda, hardasan?
Ağ at, sən tanıyırsan,
Ağ at, qurtar Qasidi.

Mən Qasidi soruşdum, –
əsir düşüb dedilər,
tək döyüşüb dedilər,
ağırdı, qan itirib,
Ağ at, İlkcan itirib,
Ağ at, axtar Qasidi.

MƏLİKƏ AYDAN

(gəlib İlkcanı qucaqlayır)

Səsin də, nəğmən də gözəldi, İlkcan.

İLKCAN

Sənə minnətdaram Məlikə Aydan.

MƏLİKƏ AYDAN

Çal, çal qoy fikirin dağılsın bir az,
Həmişə qayğılı yaşamaq olmaz.

(İlkcanın əllərini öz sinəsinə qoyur)

Ürəyim çırpınır burda sərasər,
ürək yox, atlardı, təpik döyürlər.
Yerə yox, sinəmə dəyir ayaqlar,
gəlib burdan keçir o qanlı yollar.
Səbr – ləyaqətdi, daim ayıq ol,
qəm gəlsə üstünə, qəmə layiq ol.
Səadət – daş altda dustaqdı, qızım.
Fəlakət – yol üstə oyaqdı, qızım.
Mən qorxdum simlərin fəryad səsindən,
Sən qorxma atların kişnəməsindən.

İLKCAN

(fikirli)

Hələ xəbər yoxdur Kür qırağından,
nə Qarayazıdan, nə Sac dağından.

MƏLİKƏ AYDAN

Kömək etməliydi Oğuztayfalar,
Kürü keçməliydi bizim ordular.
Damcılı tərəfdən Daşsilahlılar,*
xəbər gətirməyib hələ ki, Çapar.
Göz yolda olanda, ağırdı dözmək,
ürəyə şər gəlsə, xeyirə yozmaq
özü də insana bir təsəllidir.
Dünya bir olsa da, dörd fəsillidir.
Gah yağar, gah əsər, gah isti, gah qar,
Beləcə, görərsən il başa çatar.

(kənara)

Atasız böyütdüm oğlum Uruzu,
mənə əziz oldu vətən namusu.
Həm ana əvəzi, həm ata oldum,
sarayda olmadım, qovğada oldum.
Çətindi qadının kişi yerişi,
insanın ağılı, bir də vərdişi
üz-üzə gələndə başqadır tamam,
kişi əl gözləyir, qadın ehtiram.
Qadında sədaqət, kişidə mərdlik,
birində zəriflik, birində sərtlik.
Uruz hökmdardı, cavandı ancaq,
görək bu davadan necə çıxacaq?
Bilmirəm İlkcana təsəllim nədir,
özüm nigaranam, bir Allah bilir.

(pauza)

---

* Şair Daşsalahlıları nəzərdə tutur (*red.*).

Gözəldi İlkcanın ağlı, diqqəti,
Tanrım, özün yaşat bu məhəbbəti.
Qasidə həm qadın, həm sirdaş olsun,
bir canda düşünən iki baş olsun.
Onda sarayın da artar nüfuzu,
bir inam yaşadar eli, ulusu.
Onda deyərlər ki, Məlikə, əhsən,
İlkcan su içibdi sənin əlindən.

İLKCAN

Məlikə, qəmlənmə belə bu qədər,
Səni sarsıtmasın bu üzüntülər.
Alban torpağına müjdə gələcək,
Qasid qayıdacaq, saray güləcək.
Uruzun baxtına doğacaq səhər,
burda yığılacaq qonşu ölkələr,
Qol-boyun gedəcək Artakla Uruz,
yarımçıq qalmışdı bizim toyumuz.
Yenə yanımızda Məlikə olsun.
O necə zərifdi, necə də məğrur,
qürur gözəlliklə yanaşı durur.
Bəsdir, bircə dəfə Məlikə demək,
nə qədər çətindi sənə bənzəmək…

(kənara)

Bizdə də göz yaşı, gülüş, qəm, fikir –
insan ürəyi də dörd fəsillidir.

İşıq sönür.

XI ŞƏKİL

(Kür üstündə Pompeyin hərbi düşərgəsi.
Hərbi məşq gedir)

POMPEY

(daxil olur)

Dayandırın məşqləri, hazırlaşın yürüşə,
Kolxidaya bir başa, Mitridatla döyüşə.

FEOFAN

Mitridat çox qəliz insandı, Pompey,
o özü-özünə loğmandı, Pompey.
İlanlar, əqrəblər onu çalıbdı,
ilanlar ölübdü, o sağ qalıbdı.
Şahı öldürməyib içdiyi zəhər,
əqrəbi öldürüb, – belə deyirlər.
Onun beşiyinə düşüb ildırım,
amma beşiyi yox, əsgi yandırıb.

POMPEY

Özgə nə deyirlər, dostum Feofan?
Onu tutanadək sən danış ondan.

FEOFAN

Ellin təhsili var, fars tərbiyəsi,
Selevklər nəslindən ulu nənəsi.
Babası olubdu Arziabarzan,
Birinci Daranın adamlarından.
Yaşayır sarayda İran adəti,
bir də Yunanıstan mədəniyyəti.
Romaya nifrətdi bütün həyatı.

POMPEY

(əda ilə)

Rəğbətə çağırrıq biz Mitridatı.

FEOFAN

At, ceyran və öküz… onlar biqərar,
şahın qapısında yatır axşamlar.
Gələn təhlükədən onu qoruyur,
insanın qəsdini heyvanlar duyur.

POMPEY

(zarafatla)

Orduya çağrılsın bütün heyvanat,
Çadırda tək qalsın gərək Mitridat.

FEOFAN

Qərbdə Spartakdır, Şərqdə Mitridat.

POMEY

Mənim qismətimə çıxardıb həyat.
Amma o qul idi, bu şah, hökmdar,
onlara sən ayrı bir təşbeh axtar.
Gərək od ələnsin daşa, torpağa,
burda su doldurun on min tuluğa.
Qoşun da, atlı da su içsin gərək,
yanan səhralardan yanıb keçməyək.

(pauza)

Arxada diz çöküb piyada dursun,
pusquda – qalxanın dalında dursun.
Keçsin irəliyə atlı qoşunlar,
düşmənin gözünə görünsün onlar.
Albanlar qovanda, atlılar qaçsın,
dalda, piyadanın üstə yol açsın.

(pauza)

Azadlıq istəyir xırda ölkələr,
quşlar azadlıqda məhv ola bilər.
Qəfəsdə yaşasa, təhlükəsizdir,
qəfəs azadlığı onlara bəsdir.

(gedirlər)

İşıq sönür.

XII ŞƏKİL

(Alban sarayı, gecə yarı)

MƏLİKƏ AYDAN

(daxil olur)

On min əsir düşüb, düz on min nəfər,
doqquz min qırılıb igid gürcülər.
Girov göndəribdi Artak oğlunu,
Pompeylə vuruşlar sarsıdıb onu.
Nəzarət qoyulub bu yola, izə,
ağız qan qoxuyur, dil Roma desə.

(Çar Uruz daxil olur)

Hökmdar.

ÇAR URUZ

Oyaqsan, Məlikə Aydan?

MƏLİKƏ AYDAN

Çar Uruz, keçibdi gecə yarıdan,
yorğun görünürsən, get dincəl bir az,
insan açıq gözlə səhəri açmaz.

ÇAR URUZ

Məlikə…

MƏLİKƏ AYDAN

Çar Uruz, halaldır südüm,
Alban çarlığını ölməyib gördüm.
26 dildə danışsalar da,
tayfalar birləşib doğma diyarda.
Bir yanı Kür çayı, bir yanı Xəzər,
Aran torpağıdır Araza qədər.
Sənə arxa durur İber çarlığı,
sarayın arxası, elin dayağı.
Fikirli dəyirsən gözümə yaman,
nədir ürəyində belə dolanan?

ÇAR URUZ

Məktub, Mitridatdan…

MƏLİKƏ AYDAN

Kömək istəyir?

ÇAR URUZ

Yox, kömək istəmir, başqa söz deyir.
İtib Mitridatın vəzni, vüqarı,
ona xain çıxıb silahdaşları.
Doğma oğlanları, Mahir və Farnak,
biri vəliəhdi, biri yarımşah.

MƏLİKƏ AYDAN

İçindən yeməsə qurd bir ağacı,
min il ömr eləyər dəmir ağacı.
Keçib ehtiyatla dağdan, qayadan,
düz yola çıxanda yıxılır insan.
Onun taleyi yox, xasiyyətidir,
şahı hər addımda təqib eləyir.

ÇAR URUZ

Birliyə çağırır.

MƏLİKƏ AYDAN

Özü hardadır?

ÇAR URUZ

Yerini göstərmir, yəqin dardadır.
Şah deyir birləşək, əl-ələ verək?
Roma yer üzündə tək qalsın gərək.

QASİD

(daxil olur)

Hökmdar, yeriyir düşmən ordusu.

ÇAR URUZ

Vaxtı düz seçibdi tale oğrusu.

QASİD

Təzə bir xəbər də: Kür qırağından,
torpaq tələb edir ikinci Tiqran.
Köhnə oymaqlara təzə ad verir,
Pompeyə o yalan məlumat verir.

ÇAR URUZ

Ata-babamızın daş qəbirləri,
meşələr, bulaqlar, əkin-yerləri,
qayada şəkillər, daşda yazılar…
Tarix bizimkidir.

(pauza)

Donqar tazılar.
Pompey qoşununa qahmar çıxıbdı,
tülkü yuvasından şahmar çıxıbdı.
Sarayda hamını qaldır ayağa.

MƏLİKƏ AYDAN

Günəş çox görməsin səni torpağa.
Gərək gürcülərlə əl-ələ verək,
Məktub yaz Artaka, çaşmasın gərək.

(Qasid, İlkcan və b. saray adamları daxil olurlar)

ÇAR URUZ

(fikirli və təmkinli)

Qasid – baş sərkərdə, qoşuna rəhbər.

(pauza)

QASİD

Təslim olmayacaq düşmənə bu yer!
Uruz, minnətdaram etimad üçün,
həyatım girovdu təmiz ad üçün.

ÇAR URUZ

(Qardaşı Qasidə yaxın gəlir, onu qucaqlayıb sükut edir, fikirli görünür)

Səhər açılmamış, dan qaranlığı,
özün yarmalısan bu dumanlığı.
Ən çətin imtahan gözləyir səni,
bəlkə də… ölüm-qan gözləyir səni.

(Məlikə Aydan tutulur, kövrəlir).

(pauza)

Pompey hiyləgərdi, Tiqran yırtıcı,
qolunda qandal var, başında tacı.
O burda Romadan məsləhət alır,
bizi hər addımda bir tora salır.
Arxadan, qabaqdan, soldan və sağdan,
Hər yerdə Pompey var, hər yerdə Tiqran.
Qonşu bələdçidir, düşmən qəsbkar,
belə ittifaqda cəbhə yarılar.

(pauza)

Xəyanət elədi Qafqaza Tiqran,
Böyük Ermənistan deyir hər zaman.
İşğalçı ordular gəldiyi gündən,
Romaya dost oldu, Qafqaza düşmən.

MƏLİKƏ AYDAN

İran hədələdi bir vaxt Qafqazı,
Qafqaz düşmənlərin ölüm yuvası.
Yunanlar orduyla axıb gəldilər,
burda sona çatdı müharibələr.
Pompey sala bilməz Qafqazı bəndə,
ağız qan qoxuyur Roma deyəndə.

URUZ

Sülhdü məramımız, sülhü pozsalar,
burda baş daşı yox, başları qalar.
And olsun içilən andlara bir də,
Prometey can verən odlara bir də.
Albanlar, iberlər verib əl-ələ,
Gedir bu qardaşlıq məramı ilə.
Gərək dar məqamda biz sarsılmayaq,
düşmənlər oyaqdı, Saray da oyaq.
Qasid – nəslimizin gənc cəngavəri,
ordunun dilində gəzir hünəri.
Bir yerdə olarsa, hünər, sədaqət, -
basılmaz meydanda bu iki qüvvət.

QASİD

Səngərə səsləyir bu etimadın,
qələbə rəmzidir sənin pak adın.

(onu qucaqlayır)

MƏLİKƏ AYDAN

Qasid, sən böyüyüb cəngavər oldun,
dünyaya gələli xoş xəbər oldun;
Qoşun qabağında ağ atın üstə.

(pauza)

İndi şər yeriyir həyatın üstə.
Tələsmə, tələssən, düşmənin duyar,
gecikmə, gecikssən, əlin soyuyar.
Oğlum, kölgəndən də hələ şübhələn,
sənin yox, düşmənin olar o birdən?!
Düşmən yaralasa, döyüş sən yenə,
yaralı şir kimi atıl üstünə.
Arxanda Uruz var, saray var, oğlum,
sonuncu arxadı oğullar, oğlum.
Yıxıldın, ayağa qalxmağı bacar,
namərd – qabağından qaçmasan, qaçar.
Düşmən yarasının bir qəmi yoxdu,
vətən yaralansa, məlhəmi yoxdu.

(kənara)

Yox, yox, ürəyimdə bir sıxıntı var,
ana ağrısını analar duyar.
İlahi, yüz yerə gedir xəyalım,
nə qədər köyrəkdi bu qəhrəmanım.
Beşikdən səngərə bir addım imiş,
Övladlar necə də tez böyüyərmiş.

(ucadan)

Qasid, səni yorar bu düşüncələr,
artıq gecə keçir, açılır səhər.

QASİD

Bu xeyir-dualar – ruhi dayağım –
yolda – azuqəmdi, çöldə – yarağım.

(Qasid Məlikəni, Uruz hər ikisini qucaqlayır.
Göy guruldayır, şimşək çaxır.
İlkcanla Qasid baxışırlar. Lal səhnə. İşıq sönür, yanır.)

İLKCAN

Gəldim ki, su səpim, Qasid, yoluna,
dağlar kömək olsun dağlar oğluna.
Su da aydınlıqdı adətimizcə,
günəşli gün olsun, aydınlıq gecə.
Taxtına dəyməsin Allah Uruzun,
Onun sarayında səni qorusun.
Sənə göz dikibdi bütün məmləkət,
davaya gedirsən, Qasid, nəhayət.

(tutulur)

QASİD

Gərək o dağlara ilk ayaq qoyam,
səni mən burda yox, orda qoruyam.
Gərək soyumasın isti yuvalar,
namus davasıdı bütün davalar.

İLKCAN

(bir az fikirli)

Dava oyun deyil, oyuncaq deyil,
Pompey də düşməndir, o uşaq deyil.
Deyirlər, çəyirtkə sürüsü kimi
üstümüzə gəlir Pompey, eləmi?
Günün qabağını kəsib kölgəsi,
göydə təbəqəsi, yerdə ləkəsi.

QASİD

(gülümsəmiş)

Mən də qızılquşam, arıyeyənəm,
çəyirtkə nədir ki, qənimi mənəm.

(pauza)

Yox, İlkcan, görürəm titrəyir səsin?

İLKCAN

Allah eləməsin…

QASİD

Allah neyləsin?
Allah uzaqdadır, yoxdur xəbəri,
elə bil qorxursan, məndən ötəri?
Tək yola salmırsan onsuz da məni,
sevir Məlikə də, Uruz da məni.
Ürəyimdə sənin məhəbbətin var.

İLKCAN

(təmkinli və utancaq)

Qasid… sənin məndə əmanətin var.
iki nəfəs alır bir canda İlkcan.

QASİD

(sevinir, onu qucaqlayır)

Bu da bir müjdədir Allah-taladan.
Bəs niyə susurdun indiyə kimi?
Bütün saray bilsin bu sevincimi,
Dünyaya gələcək mənim əvəzim!

İLKCAN

Yox, sən əvəzsizsən.

QASİD

(onu bir də qucaqlayır)

Mənim əzizim.

(kənara, fikirli)

Mənim məhəbbətim safdı, təmizdi,
bu dünya yuxulu rəfiqəmizdi.
O elə divdi ki, oyatmaq olmaz,
verdiyi zəhərə bal qatmaq olmaz.
Hamıyla rəftarı xoşdur əzəldən,
əvvəlcə dost olur, axırda düşmən.

İLKCAN

Qasid, qalib qayıt… bir az geciksən,
biz də gələcəyik dalınca hökmən.
Biz də… ikilikdə…

QASİD

(bir az həyəcanlı)

Darıxma, İlkcan,
ölsəm də, qələbə mənimdir inan.
Mənə qalib qayıt deyir, doğrusu, -
Gətirib arxamca səpdiyin bu su.
Qoluma qüdrətdi, canıma qüvvət,
sən ey ulu Tanrım, ey ilk məhəbbət. –
Mənim köməyim ol, tanıt düşməni,
orda döyüşlərə çağırır məni,
burda eşitdiyim bu mehriban səs,
bir canda yaşayan bu iki nəfəs.

(İşıq sönür, yanır)

İLKCAN

Nə qədər ağırdı qadın yaranmaq,
qayğını gizlədib, ağrını danmaq.
Qadınlar əvvəlcə dözən olurlar,
sonra payız vurur, xəzan olurlar.
Getsə, alovların qoynuna girər,
İstəsə, qoynunda ona yer verər.

MƏLİKƏ AYDAN

(daxil olur)

Qızım, baxışından görürəm, sənin
gözündə döyünür bu dəfə qəlbin.
Kirpiklər nədir bəs? – gözün nəbzidir,
Tanrı, darıxanı özü hifz edir.

Təzəcə olubdu qızım, toyunuz,
orda rəqs elədi Artakla Uruz.
Ailə qurdunuz ailəmizdə,
qalxdınız, sarayda, öz əlimizdə.
Qızım, sən yeganə saray qızısan,
Mən getsəm… Məlikə sən olasısan.
Qasidin adı var üstündə sənin,
Qasid – gücün olsun, Məlikə – səbrin.
Kimdi düşməninin əlindən gələn? –
içində sızlayıb, üzündə gülən.

İLKCAN

(Məlikə Aydana sıxılır
və birdən vahimələnib, ətrafa baxır)

Elə bil Qasiddi məni çağıran,
sən məni bağışla, Məlikə Aydan.
Yatıram, görürəm girib yuxuma,
qalxıram, çağırır…

MƏLİKƏ AYDAN

Çağırsa, qorxma.
Məni çağırardı həmişə o səs,
indi İlkcan deyir… qorxmağa dəyməz.
Qadına məhəbbət, anaya hörmət,
qədimdən indiyə belədir əlbət.
Bu dünya əvvəldən əvəz-əvəzdi,
insanı yaşadan bir doğma səsdi.

İşıq sönür.

XIII ŞƏKİL

(Ermənistan. II Tiqranın sarayı)

II TİQRAN

(daxil olur, həyəcanlıdır)

Bir yandan Artakdı, bir yandan Uruz,
kəsilib dağlardan enən yolumuz.
Yerdə doğulublar, göyə çıxıblar,
Elə bil Qafqaza yiyə çıxıblar…

(pauza)

Pompey ordusuyla keçdi Arazı
Tiqran fəth edəcək bütün Qafqazı.
O zaman Uruzun yanında Artak,
Tiqran şahlığına vassal olacaq.
Taxta göz dikibdir şahzadə Tiqran,
Şikayət eləyir öz tanrısından.
Bir başı saxlaya bilməyən quldur,
ölkəni saxlamaq qəsdinə durur.
Qohumu Parfiya hökmdarından,
qoşun istəyibdi, vursun arxadan.

QAPIÇI

(daxil olur)

Hüzura gəlibdir Şahzadə Tiqran,
icazə istəyir şah atasından.
Deyir dəvət edib qibleyi-aləm.

(sükut)

Zati-aliləri, zati-möhtərəm…

(II Tiqran işarə edir ki, gəlsin. Qapıçı çıxır)

II TİQRAN

Dəvət etməmişəm,

(əda ilə)

Saraya dəvət?
Orda müharibə, burda ədavət.
Bütün varlığına nifrət etmişəm,
adam göndərmişdi, mən rədd etmişəm.
Bilirdim gələcək axırda özü,
Onun ya dirisi, ya da ölüsü.

(Şahzadə Tiqran daxil olur, təzim edir)

Bəxtimə çıxmışdın sən oğul kimi,
qabağıma çıxdın indi qul kimi.
Sənin borcun idi taxtı qorumaq,
Taxta xain çıxdın düşməndən qabaq.
Mənim tacım varsa, qoşunum da var,
Hələ rəiyyətim… onu qoruyar.
Sənin nə qoşunun, nə rəiyyətin,
Tacı qorumağa nəyin var sənin?

ŞAHZADƏ TİQRAN

Mən gəldim deyəm ki, Tacından əl çək,
Gəlmədim, Tac üstə söz güləşdirək.

II TİQRAN

(əda ilə)

Tiqrandan törəyən Tiqrana bir bax.

ŞAHZADƏ TİQRAN

Tiqranın taxtına Tiqran çıxacaq.
Bütün Qalatiya, Suriya, Sofen,
bütün Finikiya çıxdı əlindən.
Qoruya bilmədin Ermənistanı,
təzədən başladı Nuhun tufanı.
Sən dünən Lukulla, bu gün Pompeyə
gedib boyun əydin mütiyəm deyə.
Düz söz eşitmədim sənin dilindən,
Hamıya sən dostsan, hamıya düşmən.

II TİQRAN

Mənim hüzurumda belə cəsarət?
Beşiyə, məzara, Taxta xəyanət.
Lukull məclislərdə ömrünü sürdü,
Pompey məni gördü, səni də gördü.
Lukull – təcavüzkar, Pompey – xilaskar,
mənə dediyini özündə axtar.

ŞAHZADƏ TİQRAN

Kömək istəmişdi səndən Mitridat,
başını kəsənə dedin mükafat.
Ona qahmar çıxdı Artakla Uruz,
başda sən durmuşdun, ortada namus.

(II Tiqran ürəyini tutub sarsılır)

Ordular önünə çıxan hökmdar,
şahzadə önündə belə sarsılar?
Hünərə çağırmaq azdı milləti,
Hünər göstərməkdi şahın xidməti.
Bir də Şahzadəyə əl qaldırırsan,
baxıb düşmən gülür, yatıbsan, oyan.
Axırda onsuz da səni yad əllər,
Taxtdan taxta üstə endirəcəklər,
bir taxta tabuta – orda rahatdı,
daş-taxta rahatdı, Taxt narahatdı.

II TİQRAN

(kənara)

Mən indi bildim ki, bələdçi buymuş,
saray təhlükədə, tac qorxuluymuş.
Şah qoymaz, Şahzadə burda şah olsun,
mənim niyyətimdən qoy agah olsun.
Birləşib Parfiya hökmdarıyla,
üsyan qaldırıbmış bəd qərarıyla.
Ona qoşun verib qayınatası,
qalsın qiyamətə bunun qisası.
Taledir, üz-üzə gətirdi bizi,
sınaqdan keçirdi hər ikimizi.

(ucadan)

Yıxılan görmüşəm, ayaq üstədir,
sən də yıxılmısan… tale…

ŞAHZADƏ TİQRAN

O nədir?

II TİQRAN

Tale – insanların öz əməlləri,
yaxşı əməlləri, pis əməlləri.
Çıxır qabağına yüz il sonra da,
nə borc qalır, nə də borclu dünyada.
Təbiət şeytandı, insan oyuncaq,
bizi şirnikdirib o, aldadacaq.
Günün biri şərbət, o biri zəhər,
sonra zəhər qusur şərbət içənlər.

(Şahzadə Tiqran qəfildən geri dönür və atası II Tiqranın yaxasından yapışıb boğmaq istəyir)

II TİQRAN

(təəccüb və həyəcanla)

Taca, taxta xəyanət!
Mənimdi hakimiyyət!
Qovun, tutun, aparın!

(çarpışırlar)

Bu əlləri qoparın.
Saraya qəsd, mənə qəsd!

ŞAHZADƏ TİQRAN

Fikri, niyyəti şikəst,
Ölkəsindən bixəbər,
ətrafı qızıl çəpər.

Ortada paslı dəmir
tamam çürümədədir.

II TİQRAN

(hücum çəkərək)

Sus, xain, satqın, alçaq.
Şahzadə şah olacaq?!

(saray adamları şahzadənin üstünə düşür)

Vurun, döyün, tüpürün.
Zibil kimi süpürün,
atın çölə saraydan.

ÇAPAR

(kənara)

Bir tac, lakin iki baş.
Sarayda qırğın, savaş.
Ölkə çıxıbdı yaddan.

(Şahzadəni döyə-döyə aparırlar)

II TİQRAN

Qurun dar ağacını.
Ermənistan tacını
qoruyun belə şərdən
bütün ermənilərdən,
qoruyun hətta xalqdan.
Yaşasın ulu Tiqran!
Pompey mənə dost deyir,

Roma məni istəyir,
Durur arxamda Senat.
Silah istəsəm verər,
qoşun desəm, göndərər.
Sevinməsin Mitridat.
Sarayda şah olacaq?!
Şahzadə qanlı maymaq!
İşləyirmiş əlaltdan,
Ölməyib hələ Tiqran!

ÇAPAR

(kənara)

Roma nəhəng bir dəniz,
qoşunları sahilsiz.
Saray kiçik bir gəmi,
aldadandı görkəmi.
İçində Tiqran dəli,
Şahzadə ondan dəli.
Belə getsə batacaq,
gəmi tamam yatacaq.
Sarayda dava-dalaş,
bir tac
bir taxt,
iki baş…

İ ş ı q s ö n ü r

XIV ŞƏKİL

(Səngər. Uzaqdan İlkcanın səsi eşidilir: "Qasid!!!" Səhnədən düşmən əsgərləri keçir. Qasid Pompeylə döyüşə-döyüşə daxil olur)

POMPEY

Pompeylə döyüşə? Cəsarətə bax.
Bu, hünər istəyir.

QASİD

Hünərdən qabaq
ədalət olsaydı, olmazdı hünər,
ədalət üstündə gedir döyüşlər.

POMPEY

Ədalət istəyir zəif olanlar,
mən güc istəyirəm, ədalət axtar.
Bərk dur, tutan yoxdu indi büdrəsən.

QASİD

Mən öz vətənimdə, sən qürbətdəsən.

POMPEY

Vətən?

(qılınc ilə yerdə xətt cızır)

Qəbir boyda, vətən bu qədər,
öz boyun ölçüdə kifayət edər.
Qürbət vətən olar məndən ötəri,
sənin vətənini qürbət edərəm.

QASİD

İşğalçı, qatil.
Cani, quldurbaşı, gözümdən itil.
Al, Pompey, al bir də…

(dalbadal zərbələr endirir. Pompey səndələyir, lakin yıxılmır. Qasidin qılıncı əlindən düşür.)

POMPEY

Vəhşi, de kimsən?
Mənə ölüm yoxdur.

QASİD

Zireh geymisən.

POMPEY

Qaldır poladını, çəkil qırağa,
mən özüm poladam başdan-ayağa.

QASİD

(qılınc götürüb yenidən hücum edir)

Döyüşə girməmiş qorxmusan demək,
Kəfən gətirəydin özünlə gərək.

POMPEY

İndi kəfən biçir qılıncım mənim,
sənə geydirərəm mən o kəfəni.
Mən zireh, sən kəfən.

(vurur, Qasid yıxılır)

Vəhşi yaramaz!

(Pompey gedir, alban əsgərləri daxil olur və Qasidi aparırlar)

QASİD

Yaram… ağrımaz.
Pompey zireh geyib, deyin siz Çara,
piyada qəfildən çıxdı yollara.
Çaparı göndərin Dindi dağına,
Çar çıxsın Pompeyin öz qabağına.
Düşmən üstümüzü alıb qəfildən,
deyin ki, Çar Uruz… deyin siz…hökmən.

(keçinir, aparırlar)

İLKCAN

(daxil olur)

Qaasiid! – Ürəyimə dammışdı mənim,
demişdim yarımçıq qalacaq əhdim.

(səhnədən gah Alban, gah da Roma əsgərləri keçir)

ƏSGƏR

Yəqin amazonka qızları budur,
Həm cəngavər olur, həm gözəl olur.

(İlkcanı qucaqlamaq istəyir)

İLKCAN

Burax qollarımı.

(Uzaqdan səs eşidilir.)

Dayan! Yaramaz!
Tərpənmə, qadına kişi əl atmaz.

ƏSGƏR

Öpüm dodağından mən bu gözəlin.

İLKCAN

Yaramaz! Əlimə dəyməsin əlin.

Cəbhə. Səngər.

İLKCAN

Mən alban sarayının
qızıydım, gəliniydim.
Gəlinlərin gözəli,
qızların güləniydim.
Bir ana əvəziydi
Məlikə – ömrüm, canım.
Gözümün ilk ovuydu
Qasidim, qəhrəmanım.
Hələ Uruz hökmdar,
Onun xeyir-duası.
Gör harda sındırıldı
ürəyimin aynası.
Pompey, dəymə Qasidə,
Pompey, əlin qurusun.
Qoşun, axtar Qasidi, –
əmridir şah Uruzun.

Qasidin ürəyində
bir torpaq qeyrəti var.
Ah, Məlikə… Qasidin
məndə əmanəti var.
Tanrım, göstər Qasidi,
son ayaqda görüm mən.
Qasidin qolu üstə
Yaşayım mən, ölüm mən.
Ötən bulud, uçan quş.
Siz də deyin, görsəniz, –
gözlə demişdi Qasid,
mən gözlədim səbirsiz…

(pauza)

Sinəm qalxan, özüm ox;
ya ox sancılsın mənə,
ya ox kimi sancılım
Pompeyin sinəsinə…

(getmək istəyərkən Roma əsgərləri daxil olur, "Amazonka" deyə qışqırırlar və İlkcanı tutub üst-başını cırmağa başlayırlar. İşıq sönür.)

ƏSGƏR

Qadın istəyirəm belə, ağ alban.

İLKCAN

Binamus kişinin haqqı yox, dayan!

ƏSGƏR

(İlkcanın paltarını cırır)

Əsil Amazonka! Of, zərif çiçək!

(öpmək istəyir)

Səngərdə tər bədən.

İLKCAN

Ah, vəhşi, əl çək!
Qasid, sən hardasan?! Üzünü göstər!

ƏSGƏR

Sizə tabe olur sizin kişilər!

İLKCAN

Hökmən!
Biz kişi doğuruq o kişilərdən.
Gedib qadınlara sataşmır onlar,
qadın düşgünüdür bic doğulanlar.

POMPEY

(daxil olur. Əsgərlər çəkilir. İlkcana diqqətlə tamaşa edir)

Qadın namusuna toxunmaq olmaz,
iti bıçaq olur o dəmdə Qafqaz.
Gözəl alban qızı, əsl zadəgan,
hüsnün qarşısında sarsılır insan.
Açır səngərdə də zərif bir çiçək,
ona nə meh dəysin, nə əsən külək.
Səxavət göstərdi mənə bu dağlar,
Romada görüşsək, daha xoş olar.

(Feofana)

Troya şahzadəsi Briseidadan,
Alban şahzadəsi zərifdi, inan.
Onda Aqamemnon, indi də Pompey,
əsir qadınlara əsirdi tale.

İLKCAN

Romaya özüm yox, gedər cəsədim,
Pompeylə döyüşdü hələ məqsədim.
Pompey qəsbkardı.

POMPEY

Qəsbkar olmur,
kim qalib gəlirsə, haqlı da odur.

İLKCAN

Bizim eşqimizə qəsd ola bilməz,
Qasid ağ atından yıxıla bilməz.

POMPEY

Qasid səhv elədi bir cavan kimi,
amma həlak oldu qəhrəman kimi.
Beldə çətin deyil qılınc gəzdirmək,
beli yox, biləyi bərkitsin gərək.

İLKCAN

Yaşamaq istəsə, Pompeyə olar?!
Qasidə olmazmı, qanlı qəsbkar?!
Artıq olsa idi bir ayaq izi,
yeri əyərdimi daş-tərəzisi?!

Gedəndə ər getdi, ata dönmədi,
dünyadan soruşdum, dünya dinmədi.
Yox, Qasid qayıtsın, yenə qayıtsın,
o məndən gedibdi, mənə qayıtsın.

(şivən qoparır)

POMPEY

(Feofana)

Bütün döyüşlərdə mən qalib ikən,
ağır yaraladı məni bu şivən.
Bir qadın qəlbində ölüb yaşamaq,
qalıb yaşamaqdan üstündü hər vaxt.

İLKCAN

Mənə əl qaldırma, işğalçı quldur,
bir Qasid getdisə,

(qarnını göstərir)

bu Qasid durur.
Ciyərim yüz yerdən deşik-deşikdi,
qadın vətəndirsə, bətni beşikdi.

(xəncərlə özünü vurur)

İ ş ı q s ö n ü r.

XV ŞƏKİL

(Hərbi düşərgə.
Şeypur çalınır, Pompey svitası ilə daxil olur)

FEOFAN

Əsir albanlarla əsir iberlər,
dünən gecə ikən zəhər içiblər.
Zəncirə, qandala dözməyib onlar.

POMPEY

Albanlar, iberlər?!

FEOFAN

Məşhur adamlar.

POMPEY

(əda ilə)

Seçin, qoy əbədi zəncirdə qalsın,
Başqa məşhurları, məşhur Qafqazın!

FEOFAN

Xəbər göndəribdi Uruzla Artak,
qullar dünyasında qul olmayacaq.
Qızıldan çarpayı yollayıb Uruz,
əl boyda…

POMPEY

Bu da bir Qafqaz oynumuz.
Onlar teatrda çar ola bilər,
çarların əksidi…əsli deyillər.

(əsgərlərin düzəltdiyi odun kürsüyə qalxır)

Feofan, məktub yaz bu gün Senata,
Məni qan hərləyir yerdə, havada.
Od vurdum Qafqazın meşələrinə,
yerdən əqrəb çıxır qarşıma yenə.
Əlimdən qaçmadı gözümdən qaçan,
nə yerdə yeriyən, nə göydə uçan.
Afrika, Asiya, Avropa, Qafqaz…
onlar basılandı, Pompey basılmaz.
Senat məhəl qoymur hələ bunlara,
Məvacib göndərmir legionlara.
Nə ərzaq, nə yardım, nə bilim nə, nə…
Hesabat istəyir məndən, əksinə.

(pauza)

Qoşun yeridimi, saxlamaq olmaz,
Qafqazdan bir başa Senata… sən yaz.

(Feofan tərəddüd edir)

Hərbi yürüşlərdə tərəddüd olmur,
Feofan, Pompeyin qərarı budur.

FEOFAN

(Təmkinli)

Tərəddüd olsa da, başqadır məram,
Pompeyi Pompeydən gərək qoruyam.
Pompeyin Romada yoxdur əvəzi,
Həm onun dostuyam, həm tarixçisi.

(pauza)

Sənin düşmənindi Romada Lukull,
cibi pul kisəsi, ürəyi yoxsul.
Burda, məclislərdə o səni dandı,
o yeyib yatdıqca, Qafqaz oyandı.
Dağıtdı büsbütün Ermənistanı,
yenə sən tanıdın burda Tiqranı.
Qafqaza gəlsə də Pompeydən qabaq,
O düşmən qazandı Romaya ancaq.

(kənara)

Pompey canı kimi sevir vətəni,
niyə vətən sevmir vətən deyəni?!

POMPEY

(təmkinli)

Qoşun xəbər tutsun qələbəmizdən,
tale üzməyibdi əlini bizdən.

(cibindən məktub çıxardır və Feofana uzadır)

Feofan, məktubu oxu ucadan,
Farnak – Mitridatın oğludur yazan.

FEOFAN

(ucadan oxuyur)

"Mənim düşmənimdi atam Mitridat,
burda Pompey bilsin, Romada Senat.

(kənara)

Romanın birinci düşməni, quldur,
bütün fironların axırı budur.
Ən yaxın kimsəsi kəsir başını,
Torpaq da saxlamır qəbir daşını.

(məktubu ucadan oxumağa davam edir)

"Atam Mitridatın meyidi, tacı,
almazla bəzənmiş gürzü, qılıncı,
qalxanı, Daradan qalma qızıl taxt…
hədiyyə göndərir Pompeyə Farnak".

(əsgərlər alqışlayır)

POMPEY

(kənara)

Məndən soruşacaq yəqin ki, Senat, –
ölüb, öldürülüb burda Mitridat?!
Romaya qoşunla yeriyən zaman,
Şamları söndürdü Roma qorxudan.
Ona qənim oldu zəhmi, hikkəsi,
Şərqdə öldürüldü, şərq sərkərdəsi.
Mən hərbi yürüşlə Qafqaza gəldim,
demə… döyüşə yox, mən yasa gəldim?!

FEOFAN

Ondan üz döndərdi əvvəlcə Tiqran,
sonra oğlanları, boş qaldı meydan.
Başqa br hiyləyə əl apardı şah,
elçilər göndərdi… həbs etdi Farnak.
Mitridat gördü ki, puçdu bu kələk,
axırda Pompeyə əsir düşəcək.
Yanınca getmişdi sadiq adamlar,
buraxdı onları sonra hökmdar.
Hissa, Mitrididat – iki qızıydı,
hərəsi bir şahın nişanlısıydı.
Bir də kelt zabiti, öz keşikçisi,
dedi qayıtmarıq, lap öldür bizi.

POMPEY

(kənara)

Sədaqət. Ataya qız sədaqəti.
Feofan qeyd etsin bu hekayəti.
Beləydi Sofoklun Antiqonası,
Qədim Yunanıstan, Ellin dünyası.

FEOFAN

Qılınc dəstəyində uşaq yaşından,
zəhər gəzdirirmiş özüylə Xaqan.
Götürüb zəhəri içir qəfildən,
amma öyrənmişdi zəhərə bədən.
Ölmür, əzab çəkir, sinəsində tər,
qızları içəntək, öldürür zəhər.
Şah kelt zabitinə əmr edib durur,
boynunu qılıncla vursun, o, vurur.

POMPEY

(kənara fikirli)

Mən bu cəsarəti alqışlayardım,
özü sağ qalsaydı, bağışlayardım.
Mən onu hər yerdə axtardım, nahaq,
adıyla, zəhmiylə vuruşdum ancaq.

(Nizələrin ucunda Mitridatın kəsilmiş başını dəfnə yarpaqlarına bükülmüş şəkildə gətirirlər)

Şah məğlub olmayıb, həlak olub şah,
nə Pompey öldürüb, nə oğlu Farnak.

(pauza)

Budur, Mitridatın kəsilmiş başı,
nizələr ucunda… qana bulaşıq.

(kəsik başla üz-üzə dayanır. Bir an lal səhnə)

Həyatın özüdür belə bir təzad,
mənim hüzuruma gəldin, Mitridat.
Sən başınla gəldin, ayağınla yox,
o başa çiyindi bu nizə, bu ox.
Sən tək, mən qoşunla durduq üz-üzə,
kim qalib sayılır? Desinlər bizə.
Məğlub olmalıydı Pont hökmdarı,
bu idi senatın qəti qərarı.
Baha başa gəldi o başa qürur,
yox, başın başımdan yüksəkdə durur!

(nizəçilər Mitridatın başını aşağı endirirlər)

O baş hökm elədi: öldürün, qırın. –
hökmümü gözləyir indi… qaldırın!
O susur, gözündə köhnə şübhələr,
o ittiham edir, dilində zəhər.

(pauza)

Danış, nə yazmısan, dostum Feofan,
təzə nə öyrəndin bu dağlılardan?

FEOFAN

Albanlar, iberlər – iki xalqdılar…

POMPEY

(sözünü kəsir)

Səngərdə cəlddilər, çox qoçaqdılar.
Saray yanılmışdı amma, Feofan,
Qasidi üstümə göndərən zaman.
Gərək anlayaydı şahın qardaşı,
vuruşa bilməzdi Pompeyə qarşı.
Qalsaydı, o dağlı bir əsgər kimi,
bəlkə yetişərdi cəngavər kimi.
Bir az xasiyyətcə qızğındır onlar,
bəlkə bizə çəkib burda cavanlar?

FEOFAN

Ağır yaralının yoxdu qorxusu,
əsir düşəndə də danışmır, susur.
Mərhəmət istəməz təhqir eləsən,
qılığa yatandı, xoş dillə desən.

Yurdları – balaca bir quş yuvası,
yurdsevər böyüyb amma hamısı.
Anlamaq olmayır bir söz deyəndə,
dil öyrənən də yox, dil öyrədən də.
Qadın namusuna toxunmaq olmaz,
iti bıçaq olur o dəmdə Qafqaz.
Qisasa qisasdı, əsl intiqam,
Tiqranın sarayı fərqlənir tamam.

POMPEY

Tiqran dostumuzdu.

FEOFAN

Tiqran elə bil,
Qafqazda olsa da, qafqazlı deyil.
Farsın adətilə yaşayır onlar,
qədim tayfalardı burda albanlar.
Xalqın tarixi var, tarixçisi yox,
bu qədər yol gəlib, yolda izi yox.
Yarğanlar, səhralar ölkəsi Qobu,
ən qədim insanın şir, ceyran ovu,
latın hərfi ilə söz yazan əllər,
daşda donub qalıb daş qəbilələr.
Qayalar üstündə şəkillər durur,
bizim bu illərdə o illər durur.

POMPEY

Necə? Afinadan, Romadan qabaq?!

FEOFAN

Bir Zərdüşt olubdu, fikirdən oyaq.
Dünyada birinci alim, sənətkar,
ona səcdə qılır indi də xalqlar.
Kainat oddur – deyib böyük yunan alimi, –
yəqin Heraklitin də Zərdüştdü müəllimi.
Ən böyük loğman imiş, öyrənibmiş dünyanı,
Otlarla, bitkilərlə sağaldırmış insanı.
Onun bir dəftərindən yazmışam dəftərimə,
oxuyub inanmıram ağlıma, gözlərimə.

(heyrətlə oxumağa başlayır)

«…Dünya olandan bəri vuruşur Xeyirlə Şər,
Yaxşı-pis, Gecə-gündüz, Mərd-namərd, İblis-bəşər…»
«…Nə qədər yaradanın Odu varsa, o qədər
dua edəcəyəm ki, insan ədalət istər.»
"…Aldanmış insanların naləsi yüksələcək,
bir gün adil bir hakim iqtidara gələcək,
yalanpərəst hakimin cəzasını verəcək.»
«…İnsan dindarlıq ilə təmizlənib pak olur,
onun da hədiyyəsi ölkə, ya torpaq olur.»
«…Sən ey Ahura Məzda! – bir sualım var mənim,
Günəşə, Ulduzlara yol göstərən kimdi, kim?..»
«…Səhəri, Günortanı, Gecəni kim yaratdı,
seçilmiş adamlara Əhdi kim xatırlatdı?»

(pauza)

«…Yaxşı adam ev tikir, əkib-biçir, bağ salır,
gözəl heyvan bəsləyir, tikib-qurur, ucalır...»
«…Ulular, şəxsiyyətlər, - sizin ki, pak adınız,
təbimdə təriflənir – birinci dindarsınız...»

«…Ən müqəddəs kəlamı, ağılda olan nuru,
pis rəhbər puç eləyir, kütləşdirir şüuru...»
«Doğru din təbliğ edən doğru dinə qoşulsun,
o buna, bu da ona gərək tərəfdar olsun...»

«…Bir Cənnət körpüsü var axirət dünyasında,
ərimiş dəmir axır çay kimi onun altda.
Körpü, pislər keçəndə, ülgüc tək naziləcək,
Əməlinin dalınca, cəhənnəmə gedəcək...»

(pauza)

İsgəndər yandırıb minbir hikməti,
itib Peyğəmbərin din vəsiyyəti.

POMPEY

(fikirli)

Dünya fatehinin səhvidi, bəlkə?
Peyğəmbər yetirib məğlub bir ölkə.

(pauza)

Homerə dəymədi böyük qəhrəman,
əksinə, oxudu, dərs aldı ondan.
Daranın nə qədər daş-qaşı vardı,
mücrünün içindən çıxarıb atdı.
Qoydu əvəzində «İliada»nı,
ağlına həkk etdi ağla batanı.
Axilldən öyrəndi qisas almağı,
bir də... ikiəlli qılınc çalmağı.

(pauza)

Yox, yox o sözləri topla, Feofan,
mən qibtə elədim bu dinə, inan.
Qayıdıb Romada məşğul olarıq,
Zərdüşt – peyğəmbərdi, biz – qul olarıq.
Mən ki yer üzündə Qalib Əsgərəm,
başqadır insanda daxili aləm.
Mənim bir arzum var, çoxdankı arzum,
Romada teatr binası qurum.
Esxili, Sofoklu biz də oynayaq,
teatrı yoxdursa – yuxuludur xalq.
Pərdələr gözlərdən çəkir pərdəni,
maskalar oyadır səni…və məni.
İsgəndər ən uzaq səfərdə belə,
artist çağırırdı – öz səhnəsilə.
Qoşun da, özü də razı qalırdı,
sərkərdə sənətdən qidalanırdı.

(pauza)

Oxşardı – teatr və müharibə,
artistlər, sərkərdə – bu iki qüvvə.
Mən də rejissoram, əslinə baxsan,
mizanlar qururam bu vurhavurdan.
Artist oynayırsa, Pompeyi, demək…
Yox, yox oynamasın, yaratsın gərək.
O daha yüksəkdi, başdı həmişə,
ondakı sənətdi, məndəki peşə.

FEOFAN

(razılıq ilə)

General, sağ ol ki, belə, hər zaman,
hikmətə hikmətlə qiymət qoyursan.
Zərdüşt ədaləti təbliğ edirsə,
general, o sənsən, yox başqa kimsə.
Romada nə Krass, nə Yuli Sezar! –
sən əl qoyursansa, kim ayaq basar?!

(pauza)

Pompey, düz dedin ki, biz məşğul olaq,
qoşun da yorulub, daha qayıdaq.
Muğanın ilanı, əqrəbi çoxdu,
Çaldımı, davası-dərmanı yoxdu.
Nizələr əyilib yerlə sürünür,
gözə kölgə kimi ölüm görünür.

POMPEY

Qayıdaq… uzandı yəqin səfərim,
mənə eşitdirir sərkədələrim.
Vətən həsrəti də sıxır qoşunu,
üzlərdən, gözlərdən duyuram bunu.
Peyğəmbər Zərdüştün din fəlsəfəsi, –
Qafqaz yürüşümün son möcüzəsi.

İ ş ı q s ö n ü r.

XVI ŞƏKİL

(İşıq sönür və yanır. Qasidin və İlkcanın tabutlarını saraya gətirirlər. Çar Uruz əlində qılınc daxil olur. Məlikə Aydanın sinəsinə baş əyir)

ÇAR URUZ

Alban şəhididir Qasidlə İlkcan,
Alban tarixidir indi danışan.
Saraydan səngərə; bir yol keçdilər,
ölüm şərbətini qoşa içdilər.
Dünən toy günüydü, bu gün yas günü.
insan cəlladına etiraz günü.
Pompeylə vuruşda susdu bir ürək,
o zireh geymişdi, bu qanlı köynək.
Bir insan ömrünü yaşamadılar,
bir şəhid ömrünü yaşadı onlar.

(pauza)

Şəhidlər ölmürlər dünyada heç vaxt,
Zamanla yenidən doğulur ancaq.
Bayraqlar qalxanda doğulur onlar,
qılınclar çıxanda doğulur onlar.
Üz-üzə duranda düşmən ordusu,
yerdə tapdananda yerin namusu,
sərhəd pozulanda doğulur onlar,
tarix yazılanda doğulur onlar.
Adları adlara qoyulan zaman,
şüurlar yuxudan ayılan zaman,
yəhərdə, yüyəndə doğulur onlar,
Azadlıq deyəndə doğulur onlar.

Analara qurban oğul doğurlar,
oğullara qurban – şəhid olurlar.
Ölkəyə şöhrətdi şəhidin adı,
İlkcanın adıyla Qasidin adı.

(bu sükut içində Uruz qılıncını qınına qoyur)

MƏLİKƏ AYDAN

Qasid bir oğlumdu, İlkcan bir oğlum,
mən oğulmu doğdum, şəhidmi doğdum.
Əldə bir yaşında qaldı anadan,
qızlar bulağından su içdi İlkcan.
Nəfəsi ətirli çiçək əvəzi,
Sarayda Qasidin göbəkkəsməsi.

(pauza)

Qasidin gözündə dan sökülərdi,
ayağı sayalı, üzü gülərdi.
Qılınc oynadardı şimşək əvəzi,
gecələr parlardı göyün qübbəsi.
Torpaq göz tikmişdi o boy-buxuna,
Saray həsrət qaldı saray oğluna.
İki nəfər idi Qasidlə İlkcan,
gedəndə üç nəfər getdi dünyadan.

(pauza)

Mənim yuxusuzum, gözü oyağım,
qaldırıb başını boylana bilmir.
Ana laylasına yatızdırdığım,
ana fəryadına oyana bilmir.

(Çar Uruz anası Məlikə Aydanın sinəsinə baş əyir, sonra qolları arasına alır.Artak svitası ilə daxil olur, Çar Uruza başı ilə salam verir və Qasidlə İlkcanın tabutları önündə baş əyir)

ARTAK

Xəbərdən sarsıldı bütün gürcülər,
başsağlığı verir gələn elçilər.
Qardaşım Şah Uruz, anam Məlikə,
bir yol ağlamayıb həyatda bəlkə?
Bu dəfə yaş gördüm o gözlərdə mən,
yerin ağrısını duydum yerdə mən.
Ağırdı Qasidi torpağa vermək,
ağırdı İlkcanı tabutda görmək.
Qoşa şahin kimi uçdular onlar,
zirvədən torpağa düşdülər onlar.
Bizim şəhidlərdi sizin şəhidlər,
dünyada məhəbbət qoyub getdilər,
bir namus, bir vüqar qoyub getdilər.
Dünyada etibar qoyub getdilər.
Nə belə ər gördüm, nə belə gəlin.

(öz svitasına)

Baş əyin, önündə tabut heykəlin.
Bizim şəhidlərdi Qasidlə İlkcan,
var ol, Ulu Qafqaz, Ulu yaradan.

(İşıq sönür və yanır. Şeypur çalınır. Çar Uruz, Məlikə Aydan daxil olurlar).

ÇAR URUZ

Düşmən tapdağında torpaqlar qalıb,
əkin-biçin yeri, yaylaqlar qalıb.

Canlı qalxan oldu igidlər yerə,
dən kimi səpildi şəhidlər yerə.
Biz öz yaramıza duz basmalıyıq,
ağrımız artdıqca, biz susmalıyıq.
Ağlasaq, gizlədək göz yaşımızı,
yıxılsaq, dik tutaq öz başımızı.
İşğalçı ordudan, naməd qoşundan,
bir gün qisasını alacaq zaman.

MƏLİKƏ AYDAN

And için, bir anda möhtacdı Qafqaz,
qartal and içməsə, zirvəyə qalxmaz.
Günəşlə torpağın andı əsasdı,
bu da yaz gəlincə bir etirazdı.
Elə ki, yol getdin üzü küləyə,
çiyin-çiyinə ver, kürək-kürəyə.
Bəxtiniz yollarda bələdçi olsun,
qayalar – qalxanlı sərhədçi olsun.
Düşmən hiyləgərdi, zaman qorxulu,
fikri oyaq gəlir, gözü yuxulu,
qılınca tuş gəlir, qılınc görməyən,
rəhmsiz qatildi, rəhm elə deyən.
Güzəştə getməsin igid oğullar,
Güzəştin sonunda məğlubiyyət var.
Pakdı tariximiz od-ocaq kimi,
Pakdı Uruz kimi, ya Artak kimi.
Qoşun yeritdilər Pompeylə Tiqran,
biri bələdçiydi, o biri tiran.
Bu, dünya borcudu, dünyada qalmaz,
And için, bir anda möhtacdı Qafqaz.

(İşıq sönür, Çapar səhnədə tək qalır)

ÇAPAR

(səhnəyə müraciətlə)

Qafqaz mənim əcdadımın vətənidi,
əzabımın, fəryadımın vətənidi.
Ölənimin, itənimin vətənidi,
Qafqaz mənim vətənimin vətənidi.

Qafqaz oğlu, vətən oğlu,
yaxşıları seç pisindən,
Seç, Qafqazın mərdlərini
satqınından, xəbisindən.
Vəzifəyə hərisindən.
Namussuzdan namusunu qoru bu gün,
süfrəmizin ruzusunu qoru bu gün.
Ocağımız sönə bilməz,
bayrağımız enə bilməz.
səngərimiz uça bilməz.
Qafqazın bir qaçan yeri yoxdur daha,
qaça bilməz.
Bir səngərə sığar Qafqaz,
bir tabuta, fəqət, sığmaz!

İ ş ı q s ö n ü r.

S o n

AZƏRBAYCAN RESPUBLİKASI
MƏDƏNİYYƏT NAZİRLİYİ

AKADEMİK MİLLİ DRAM TEATRI

NƏRİMAN HƏSƏNZADƏ

İki hissəli tarixi xronika

Quruluşçu rejissor	– **Bəhram Osmanov**
Rəssam	- **Tahir Tahirov**
Bəstəkar	- **Fərəc Qarayev**
Teatrın bədii rəhbəri:	**- Həsənağa Turabov** *xalq artisti, iki dəfə Dövlət mükafatı laureatı*

İŞTİRAK EDİRLƏR:

Tetar aktyoru	**Hacı İsmayılov**, əməkdar artist, Respublika Dövlət mükafatı, laureatı
Pompey	**Ramiz Novruzov** əməkdar artist
Çar Uruz	**Pərviz Bağırov**
Məleykə Aydan	**Laləzar Mustafayeva**
	Hicran Nəsirova
Çar Artak	**Sadıq İbrahimov**
İlkcan	**Məleykə Əsədov**
Qasid	**Sabir Məmmədov**
Feofan	**Elxan Ağahüseynoğlu** Əməkdar artist
	Aqşin Vəlixanov Əməkdar artist
II Tiqran	**Cəfər Əhmədov**
Şahzadə Tiqran	**Mətləb Abdullayev**
Roma əsgəri	**Rövşən Kərimduxt**
Bələdçi	**Məzahir Cəlilov**

Ədəbi hissə müdiri	**İlham Rəhimli** Əməkdar incəsənət xadimi, «Qızıl qələm» və «Qızıl dərviş» mükafatları laureatı
Truppa müdiri	**Qürbət Qurbanov**
Musiqi hissə müdiri	**Cavanşir Quliyev** Əməkdar incəsənət xadimi
Bədii quruluş hissə müdiri	**Elxan Haqverdiyev**
Redaktor	**Vəfa Kazımova**
Tamaşanı idarə edir	**Rəfiqə Musayeva**

Azərbaycan Akademik Milli Teatrı.
“Pompeyin Qafqaza yürüşü” mənzum pyesinə tamaşadan sonra müəllif, Xalq şairi Nəriman Həsənzadə (ortada) dostlarına yeni yazdığı şeri oxuyur.
Sağdan ikinci - Məlikə Aydan rolunun ifaçısı, Xalq artisti Lələ Mustafayeva (2004).

Azərbaycan Akademik Milli Teatrında tamaşaya qoyulmuş "Pompeyin Qafqaza yürüşü" mənzum pyesindən bir səhnə. Şəkildə: Xalq artisti Məleykə Əsədova - İlkcan, əməkdar artist Sabir Məmmədov Qasid rollarında.



Azərbaycan Akademik Milli Teatrında tamaşaya qoyulmuş "Pompeyin Qafqaza yürüşü" mənzum pyesindən (quruluşçu rejissor Bəhram Osmanov) bir səhnə. Şəkildə sağdan: Xalq artisti Ramiz Novruzov - Pompey, əməkdar artist Pərviz Bağırov - Uruz rollarında.



Azərbaycan Akademik Milli Teatrı.
“Pompeyin Qafqaza yürüşü” mənzum pyesindən bir səhnə.
Şəkildə soldan: Əməkdar artist Pərviz Bağırov - Uruz,
Xalq artisti Laləzar Mustafayeva - Məlikə Aydan rollarında.

КОММУНИСТ
28 март, 1982

D.ALEKSİDZE,
Gürcüstan Teatr Cəmiyyətinin sədri,
SSRİ xalq artisti

Sumqayıt teatrı kollektivinin hazırladığı tamaşa — **şair-dramaturq Nəriman Həsənzadənin "Bütün Şərq bilsin" tamaşası** mənə qüvvətli təsir bağışladı. Azərbaycan xalqının iftixarı, ...sədaqətli oğlu Nəriman Nərimanovun mübarizələrdə mətinləşmiş obrazını səhnədə canlandırmaq şərəfli olduğu qədər də çətin bir işdir. Lakin xoşbəxtlikdən cavan teatr kollektivi bu işin öhdəsindən məharətlə gəlmişdir. Məlum həqiqətdir ki, teatra qida verən dramaturqdur. Dramaturq teatra ictimai həyatın və insan münasibətlərinin zəngin mənzərəsini yaradan əsər gətirirsə, teatrda sözün həqiqi mənasında toybayram olur. Bu mənada mən ilhamlı ürəklə xatirimdə dərin iz salmış Nəriman Həsənzadəni səmim-qəlbdən alqışlayıram.

Əsərdəki kiçik epizodlar kimi təsvir olunmuş rollar belə hadisələrin ruhuna uyğundur və heç zaman unudulmur. Məni sevindirən bir cəhət də budur ki, müəllif tarixi hadisələri sadalamaq yolu ilə getməmiş, fikir siqləti və məna dərinliyi ilə tamaşaçılara ehtiraslı söz deməyə daha çox meyl etmişdir. Hər hansı bir xalqın tarixi keçmişindən alınmış səhnə əsəri müasir səslənmirsə, onu məncə, qələmə almağa ehtiyac yoxdur. Tarix kitabını oxucu özü də vərəqləyə bilər...

"Bütün Şərq bilsin" pyesinə baxanda mənə dedilər: bu əsər bir ildən çoxdur ki, səhnədə göstərilir. Lakin gənc aktyorlar, başda **Nərimanov rolunun mahir yaradıcısı Məlik Dadaşov** olmaqla, öhdələrinə düşən rolları o qədər səmimi və təbii bir hə-

yəcanla ifa etdilər ki, mən tamaşanın ilk dəfə göstərildiyini zənn etdim. Deməli, yaxşı əsər səhnədə nə qədər nümayiş etdirilirsə, yenə də təravətlidir, təzədir və sənətsevərlər üçün həmişə ilk tamaşadır. Mənim bu fikrimi tamaşa salonundan qopan təbii, hərarətli alqışlar bir daha aydın sübut edir.

Bizim Gürcüstanda rejissor kadrlarının azlığından şikayət edənlər vardır. Bu, həqiqətən belədir. Yalnız təhsil almaq azdır, dünyaya rejissor kimi gəlmək lazımdır. Məhz buna görə də tamaşanı hazırlayan rejissorun gənc olduğunu bildikdə, nəhayətsiz dərəcədə sevindim. **M.Fərzəlibəyov** teatrın bütün komponentlərindən monolit bir tamaşa yaratmaq üçün bacarıqla istifadə etmişdir.

Əsərdəki qəhrəmanların fəlsəfi-intellektual səviyyəsini, onların mənəvi aləmindəki təkamülü biz çox aydın görür və hiss edirik. Cavan rəssam **M.Əliyevin**, bəstəkar **C.Əliyevin** yaradıcılıq səyləri də istedadlı rejissorla vəhdət təşkil edir, inqilabi keçmişlə, xalqın Prometey ürəkli övladlarına tamaşaçıların qəlbində ehtiram hissini qüvvətləndirir.

Sevinirəm ki, dahi sənətkar H.Ərəblinskinin adını daşıyan teatr orijinal əsərlər hazırlamaq yolu ilə gedir. Mən bu tamaşada öz ölməz sələfləri M.A.Əliyevin, S.Ruhullanın, A.M.Şərifzadənin, Ü.Rəcəbin, Ə.Ələkbərovun nəvələrini, oğul və qızlarını gördüm. Böyük maraqla baxdığım "Bütün Şərq bilsin" tamaşasında onların oyunu göstərdi ki, öz böyük sənət müəllimlərinin şərəfli işini ürəklə, yaradıcılıq eşqilə davam etdirən bu gənclər hər cür çətin sınaqlardan çıxmağa qabildirlər.

M.Əzizbəyov adına teatrın binasında gördüyüm "Bütün Şərq bilsin" tamaşası mənzum, romantik bir əsər kimi qəlbimdə qüvvətli bədii həyəcan doğurdu. Buna görə də müəllifi və teatr kollektivini səmim-qəlbdən, bir qardaş kimi təbrik etməyi özümə borc bilirəm.

525-ci qəzet

11 dekabr, 2009

Kamran QULİYEV,
C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru və baş rejissoru, Xalq artisti

NAXÇIVAN TEATRININ PASPORTU

126 yaşlı Naxçıvan teatrı yarandığı gündən öz repertuarında dünya klassik dramaturgiyası nümunələri ilə yanaşı, milli-mənəvi dəyərlərimizə söykənən və Azərbaycanın dövlətçilik tarixindən bəhs edən əsərlərə də geniş yer verib. Azərbaycan müstəqillik əldə etdikdən sonra tarixi keçmişimizə baxış da dəyişdi. Sözsüz ki, ən güclü təbliğat vasitəsi olan teatr da öz səhnəsində tarixi mövzulu əsərlərə yer verməklə tariximizin qaranlıq qalan səhifələrinə işıq salmağa çalışdı. Bu axından geri qalmayan Naxçıvan Dövlət Musiqili Dram Teatrı 1990-cı illərin əvvəllərindən başlayaraq öz repertuarında Azərbaycanın dövlətçilik tarixindən bəhs edən əsərlərə geniş yer ayırdı. 1997-ci ildən Muxtar Respublika rəhbərliyinin tövsiyəsi ilə teatr N.Nərimanovun "Nadir şah" (1997-ci il, rejissor Elçin Mirzəbəyli), **N.Həsənzadənin "Atabəylər" (1*999-cu il, rejissorlar Mərahim Fərzəlibəyli, Kamran Quliyev*),** H.Cavidin "Topal Teymur" (2000-ci il, rejissor Kamran Quliyev), İ.Əfəndiyevin "Şeyx Xiyabani" (2001-ci il, rejissor Kamran Quliyev), **N.Həsənzadənin "Pompeyin Qafqaza yürüşü" (*2002-ci il, rejissorlar Mərahim Fərzəlibəyli, Kamran Quliyev*),** İ.Əfəndiyevin "Hökmdar və qızı" (2004-cü il, rejissor Rövşən Hüseynov) kimi tarixi mövzulu əsərlərə müraciət etdi. **Bu əsərlər içərisində görkəmli şair-dramaturq, yazılarında vətəndaşlıq mövqeyilə diqqəti cəlb edən Nəriman Həsənzadənin "Atabəylər" tarixi dramı xüsusi yer tutur.**

1999-cu ildə Naxçıvan MR-in yaranmasının 75 illiyi münasibəti ilə hazırlanan, Azərbaycan Atabəylər dövlətinin quruculuğu və milli dəyərləri önə çəkməsi ilə tarixdə qalan hökmdarı Qızıl Arslan dövründən bəhs edən "Atabəylər" əsəri bu günə qədər, yəni 10 ildən bir qədər artıqdır ki, Naxçıvan teatrının repertuarını bəzəyir.

2004-cü ildə Naxçıvan MR yaranmasının 80 illiyi ilə əlaqədar keçirilən təntənəli mərasimdə nümayiş etdirilən "Atabəylər" tamaşasında ölkə prezidenti cənab İlham Əliyev, Azərbaycanın hökumət nümayəndələri və yubiley tədbirinə qatılan səfirlər iştirak etdilər. Yüksək səviyyədə keçən tamaşa alqışlarla qarşılandı.

Naxçıvan Muxtar Respublikasının ərazisində nümayiş etdirilməklə yanaşı, tamaşa Bakı, Sumqayıt, Gəncə, Qazax, Qəbələ, Yevlax, Masallı, Lənkəran, Cəlilabad şəhərlərində də müvəffəqiyyətlə oynanılıb.

"Atabəylər" tamaşasının Naxçıvan Teatrında aktyorların formalaşmasında da mühüm rolu var. 1999-cu ildə tamaşanın baş obrazlarından olan İnanc xatun obrazını mərhum aktrisa, xalq artisti **Xuraman Hacıyeva** ifa edirdi, sonrakı vaxtlarda bu obrazı xalq artisti **Yasəmən Ramazanova** yaratdı. Hazırda isə İnanc Xatun obrazını gənc aktrisa, respublikanın əməkdar artisti **Elmira Kərimova** canlandırır. Qızıl Arslan obrazını xalq artisti **Kamran Quliyev**, Toğrul bəy obrazını xalq artisti **Rza Xudiyev**, Nizami obrazını xalq artisti **Həsən Ağasoy**, Əcəmi obrazını respublikanın əməkdar artisti **Xəlil Hüseynov** ifa edirlər. Digər obrazlar da teatrın aparıcı aktyorlarına tapşırılıb.

Göründüyü kimi, "Atabəylər" tamaşası həm Naxçıvanın tarixi ilə bağlı olduğu, həm də aktyor nəslinin formalaşmasında mühüm rol oynadığı üçün əhəmiyyət kəsb edir və bu gün də Naxçıvan səhnəsində sevilə-sevilə nümayiş etdirilir.

2009-cu il may ayının 10-da "Atabəylər"in Naxçıvan səhnəsində ilk tamaşasının 10 illiyi qeyd edilib.

Cəsarətlə deyə bilərik ki, **"Atabəylər" tamaşası artıq Naxçıvan Teatrının pasportuna** çevrilib.

MİDİYA SARAYI

İŞTİRAK EDİRLƏR:

Mandana

Ərtapar

Baş kahin

Astiyaq

Zərinə

Qarpaq

Baş çoban

Qasid

Aşpaz

Müəllif pyesi qədim dünya tarixçisi Herodotun "Astiyaq" əfsanəsi əsasında işləmişdir...

Şairin vaxtilə tarixi əsərlərə meylliliyinə ciddi irad tutulduğuna görə, bir müddət bu sahədən uzaqlaşmış, sonra isə yenidən bu mövzuda "Ata-bəylər" və "Pompeyin Qafqaza yürüşü" mənzum pyeslərini yazmışdır.

"Midiya sarayı" pyesinə bir də qayıtmaq arzusunda olduğunu bildirir...

Tərtibçi

Mandana

(daxil olur)

İlahi, rəhm elə biz qadınlara,
göydən kömək göndər özün onlara.
Yerdə naləmizi yoxdur eşidən,
biz əl uzadırıq,
sən çəkilirsən.
Sən qadın olmağı öyrətdin bizə,
Sən uşaq doğmağı öyrətdin bizə.
Bizə səbr verdin əzab-əziyyət,
bizə dözüm verdin — bu daha dəhşət.
Yeganə oğlum var bu dünyada — Kir,
Midiya taxtına o təhlükədir?!
Çobanın əlində sağ qalıb uşaq,
öldürtmək istəyir indi Astiyaq.
Atamın hər hökmü ölüm deməkdir,
ən böyük acizlik hökm eləməkdir.
İlahi, Anahid, allahımızsan,
şah yerdə, sən göydə pənahımızsan.
Ey Zərdüşt diyarı, ey odlu topraq,
sən çinar, biz çinar üstündə yapraq.
Qoy bütün qadınlar, bütün analar
mənə kömək dursun...
Şanlı hökmdar,
sizsə taxtınızda möhkəm oturun,
körpə bir uşağın boynunu vurun.
Demək, milyonların puçdu niyyəti,
şübhəli görünür səmimiyyəti.
Bir baş düşünürsə ölkədə yalnız,
bəs nəyə lazımdı bizim başımız?!
Bizə yalvarmağı öyrədirsiniz,
tələb eləyəndə rədd edirsiniz.

Midiya taxtının qızıyam mən də,
Midiya taxtından ziyan çəkən də
mənəm.
Saraylarda doğulmaq ilə,
sarayda yaşamaq bir deyil hələ.
Atam hökmdardı, böyük Astiyaq,
atam mərhəmətdə kiçikdir ancaq.

(gedir)

(Astiyaq, Baş kahin, Ərtapar və başqa əyanlar daxil olurlar)

Ərtapar

Hökmdar, and olsun taxt ilə taca,
elə sarınmışdı uşaq ağaca,
əlini-qolunu kəndir kəsirdi,
döyülən əsirdi, döyən əsirdi.
Uşaqlar içində gördüm bir uşaq
hökm edir.
Soruşdum, sən kimsən, qoçaq?
Mənə cavab verdi, dedi: hökmdar,
dedi ki, şah seçib məni uşaqlar.
Dedim: o uşağın günahı nədir?
— Sözümə baxmayır, — dedi, — cəzamdır,
ayağı başından xəbərsiz gedir,
şah olan məclisdə bu, intizamdır.
Mən çoban oğluyam, dedi o uşaq,
yerdə bir hökmdar, göydə bir Allah.
Mən ona sus, dedim, yayılar bu səs,
dedi: hökmdarda gizli söz olmaz.
Dedim: bədən sənin, baş sənin deyil,
dedi: özümündü, bu yəqin deyil.

Dedi: baş kiçikdi, bədən böyükdü,
baş böyük olanda bədənə yükdü.
Yaşından çox idi başında fikir.
Adını soruşdum, şəstlə dedi: Kir.
Bilmədim bu necə ciddi-cəhd idi,
Çoban paltarında vəliəhd idi.

(Astiyaqa)

Bu dil, bu danışıq, ya da bu hikmət,
qanın saflığını göstərir əlbət.

Baş kahin

(kənara)

Kahinlər demişdi şaha qabaqlar,
bir az ayıq olsun gərək hökmdar.
Qızı Mandanadan doğulan uşaq,
Midiya taxtına hakim olacaq.
Astiyaq Qarpağa əmr eləmişdi,
Uşaq doğulantək öldürt demişdi.
Şanlı hökmdara sadiq qalaraq,
hökmü yetirmişdi yerinə Qarpaq.
İndi çoban oğlu şübhə doğurur,
təsadüf deyilən həqiqət budur.
Qarpaq qohumudur, həm də sağ əli,
Özündən şübhəli, ondan şübhəli.

(Astiyaqa)

Uşaq sağ qalıbsa ötüb fəlakət,
uşaq ölübdüsə, artıqdı xiffət.
Yuxunun qorxusu yoxdur, hökmdar,
onu şah seçibdi daha uşaqlar.

Astiyaq

Məncə, o uşaqdı, sağ və salamat,
gərək Qarpaq gəlsin, bir də Mitridat.

(Ərtapar gedir)

Uşağı göstərin mənə uzaqdan,
Kahin, özün göz ol sonra uşaqdan.

(uşağı göstərirlər,
fikirli nəzərlərlə baxır)

Mənim gözlərimdi, onun gözləri,
mənimdi sözünün hökmü, kəsəri.
Baxışı, duruşu, hələ səsi də,
bir az yerişində tələsməsi də...

(ucadan)

Yox, kahin, düz olur ürəyə daman,
onu öldürməyib bizim baş çoban.
Ağıl danışanda tələsmə bir az,
ürək danışanda ona qulaq as.

Zərinə

(daxil olur)

Yenə fikirdədir qibleyi-aləm,
salam, kahin baba... əziz, mehriban.

Astiyaq

Sənin nəğmələrin gəlir ürəkdən,
saray nəğməsizdi, sən oxu hökmən.

Zərinə

(mahnı oxuyur)

Astiyaq

(fikirli)

Midiya taxtına göz dikən alçaq,
mənim qılıncıma qurban olacaq.
Onu bağışlamaz bu odlu torpaq.
Yəqin o uşaqdı... xaindi Qarpaq.

Zərinə

Hökmdar fikirli, qayğılı, həssas,
bu qədər fikirlə yaşamaq olmaz.

Astiyaq

Fikirlər saraydan aparır məni,
səsin bu saraya qaytarır məni.

Kahin, bəxtəvərdi sənin qız nəvən,
azaddır dünyanın dərd-ələmindən.
Tanrı vergisidir bu mehriban səs,
onu hər boğaza ilahi verməz.
Bəlkə bir müğənni, bir nəğmə deyən,
xoşbəxtdi fikirli ömr eləyəndən...

Ərtapar

(qasidlə bərabər daxil olur)

Çoban Mitridatdı, yanında Qarpaq,
əmrə müntəzirdi.

Astiyaq

Gəlsinlər, burax.

(Qarpaq və Mitridat daxil olurlar)

Qarpaq, düz danışsan, bu öz işindi,
yox, yalan danışsan, son gəlişindi.
Xəyanət üstündə... taxta xəyanət,
qurda yem olacaq o baş, o cəsəd.
Midiya taxtına fəlakət olan
uşaq doğulmuşdu, Qarpaq, bir zaman.
sənə tapşırmışdım... yadında olar.

Qarpaq

Hökmə əməl oldu, böyük hökmdar.
Mitridat, baş çoban şahiddi buna,
özü əməl etdi şah buyruğuna.

Astiyaq

Baş çoban, fikirləş... yalan danışsan,
şirlərin ağzına atılacaqsan.

Baş çoban

Qarpağın dediyi düzdü, hökmdar.

(pauza)

Amma...

Astiyaq

Amma?!.

Qarpaq

Amma?!
De, açıq-aşkar,
şahın hüzurunda "amma" söz deyil,
and içmək istəsən, o da düz deyil.
Aç danış hamsını.

Astiyaq

Çaşdırma, Qarpaq,
çoban hamısını düz danışacaq.

Baş çoban

Hökmdar, mən sizin öz təbəəniz,
Kir həmin uşaqdı, sizin nəvəniz.

Astiyaq

Qarpaq?!

Qarpaq

Yox, hökmdar, Kir ola bilməz,
ölülər təzədən doğula bilməz.
Mitridat, bu nədir?!

Baş çoban

Şanlı hökmdar,
Qarpaq gətirdi ki, uşağı apar,
Öldür, köynəyini gətir sonradan.

Qarpaq

Sən axı gətirdin köynəyi, çoban!

Çoban

Gətirdim, başqaydı amma o köynək,
evdə dəyişmişdi arvadım...

Qarpaq

Demək...

Baş çoban

O, ölü doğmuşdu.

Astiyaq

Belə de, əhsən.

Qarpaq

Hökmdar...

Astiyaq

Küs ancaq öz taleyindən.

Baş çoban

Əlimdə görəndə arvad uşağı,
özü də ağladı uşaqsayağı.
Diriyə yas tutdu evdə, hökmdar,
ölünü bükdü ki, saraya apar.

Astiyaq

Qəribə oyundu — Qarpaq və Çoban.

Qarpaq

(çobana)

Mənim taleyimlə sən oynamısan.

Astiyaq

Mitridat, cavab ver, sual edirəm, —
Kir sənin oğlundu, ya mənim nəvəm?!

Baş çoban

Sizindi bu ölkə, bu uca dağlar,
biz də sizinkiyik, şanlı hökmdar.
Yediyimiz çörək, içdiyimiz su,
udduğumuz hava, günəş...

Astiyaq

Daha sus!
Dünya mənim oldu... bütün kainat,
Kir mənim olmadı, amma, Mitridat.
Lənətə layiqdi sizin adınız,
Dünyanı verdiniz... Kiri aldınız.

(fikirli)

Bir yanda taxt-tac, bir yanda uşaq,
bir yanda hökmdar, bir yanda çoban.
Gizli bir fəlakət gözləyir, ancaq, —
Mitridatı indi, məni sonradan.

(pauza)

Ağırdı taleyin bu istehzası.

Qasid

(daxil olur)

Qızınız Mandana, Kirin anası
görüşmək istəyir, gəlib, hökmdar.

Astiyaq

O, Kirlə görüşsə daha düz olar.
Sarayda böyüdü... beləymiş həyat,
qız ikən doğmaydı, ana ikən yad.
Özgə ocağını qalayır qızlar,
ata ocağına qızınmır onlar.

Mandana

(daxil olur)

Ata!

Ərtapar

Hökmdardı.

Mandana

Qibleyi-aləm,
yerlərə, göylərə mən and verirəm.
Bilirəm, sizindi küllü-ixtiyar,
sizin qızınızam mən də, hökmdar.
Dəhşətli görünən sizə uşaqdı,
Kirə qarşı duran şah Astiyaqdı.

Astiyaq

Midiya taxtına o təhlükədir,
onu xahiş etmək sənə ləkədir.

Mandana

Uşağın yaşına gəlsin rəhminiz;
onun anası mən, babası da siz.

Astiyaq

Taleyin bu gizlin oyunu qədər,
məni sıxmamışdı hələ şübhələr.
Burda günahkardı Qarpaqla çoban.

Mandana

Mənə bağışlayın.

Astiyaq

Sən ağlayırsan, —
Midiya taxtının taleyinədir,
Ya Kirə?!
Bu yaşın mənası nədir?!

Mandana

Siz şah atamsınız, Kir doğma oğlum,
ona ana borcum, sizə qız borcum.
Sizə qəsd edilsə, dözə bilmərəm,
ona qəsd edilsə, cavabdeh mənəm.
Mən ana olsam da, qibleyi-aləm,
layla çalmamışam, süd verməmişəm,
onu aparıblar bələkdə ikən,
sizin əmrinizlə...

Astiyaq

(mat qalır)

Sən də bilirsən?!

Mandana

İndi ki, sağ qalıb, dəyməyin ona,
pənah gətirmişik oğul və ana.
Bəlkə də bu mənim son xahişimdi.

(ürəyi gedir, huşunu itirir)

Astiyaq

Su səpin, ayılsın.

(kənara)

Günahkar kimdi?!
Midiya taxtının düşməni ancaq,
sarayda Qarpaqdı... xaindi Qarpaq.

Qasid

(daxil olur)

Bir qadın gəlibdi... o, yalvar-yaxar,
deyir rəhm eləsin bizə hökmdar.
Bir odur gözümün ağı-qarası,
çobanın arvadı, Kirin anası.

Astiyaq

(mənalı)

Qasid, bir anadan doğulur insan,
amma Kir doğulub iki anadan.
Bir çoban arvadı, bir də şah qızı.
Demək, bir uşağın iki anası.
Sarayda göz açdı dünyaya uşaq,
çobanın evini gördü o ancaq.
Bir ana bətnində əzizlənibdi,
bir ana südüylə o bəslənibdi.
Demək, möcüzədir Midiyada Kir,
bəlkə də bu, onun öz taleyidir...

Baş kahin

Hökmdar...

Astiyaq

Qalx, Qarpaq, qalx sən də, çoban.

(mənalı)

Yaxşı ki, uşağı sağ saxlamısan.
Düzü, məmnun oldum hərəkətindən,
sənin hikmətini unutmaz vətən.
Sabah bir ziyafət verilsin gərək,
Kirin şərəfinə... biz az sevinək.

Baş hakim

(kənara)

Özü öz əksinə getdi hökmdar,
yəqin bu qərarda fəlakət də var.
Fikrindən dönməmiş hələ Astiyaq,
bir sakitlik olur tufandan qabaq.
Od sönür, kül altda qalır istisi.
Pələngin yolu var, ilanın izi.
Göydə ulduzların dəyişməsindən,
yerdə də dəyişir vəziyyət hökmən.
Şir şikar üstünə gəlir təmkinlə,
dartılıb açılır sonra da kinlə.
Daim dərin olur lal axan sular,
sükuta qərq olub yenə hökmdar...

Qarpaq

Vəzir yox, qapında qulam, hökmdar,
şirlərə yem olsam, ədalət olar.
Hər nə öyrənmişdim indiyə qədər,
gördüm ki, bir şeydi - heçə bərabər.
Məsləhət verməkdə ya nadan, ya mən!
mənə məsləhətçi oldu bir çoban.
Bu xata çıxıbdı əslini gəzsən,
onun əlindən yox, mənim əlimdən.
Qarpağı oyunda udubdu çoban,
gərək dərs verməyim, dərs alım ondan.

Baş kahin

(kənara)

Yıxılan təzədən qalxmaq istəyir,
Qarpağı sarayda Qarpaq pisləyir.
Ya Qarpaq özüdü buna günahkar,
ya şahın başında bir möcüzə var.
Göydə ulduzların vəziyyətindən,
hələ xəbərsizdi xəbər gətirən.

Astiyaq

Qurbanlıq kəsilsin... qoy bu ziyafət
Kirə töhfə olsun, Qarpağa diqqət.
At çapmaq, ox atmaq, doğru danışmaq,
Kirin tərbiyəsi bu olsun ancaq.
Aşpaza xüsusi tapşırığım var,
qoy gəlsin...

Qasid

Baş üstə, böyük hökmdar.

(Gedir)

Astiyaq

Gətir öz oğlunu, Qarpaq, sarayda
Kiri əyləndirsin sabahdan o da.

(Hamı gedir)

Mən öz taleyimlə əlbəyaxayam,
qarışıb dünyada mənim də dünyam.

Asan görünməsin taxtda oturmaq,
Mənə qəsd elədi axırda Qarpaq.
Dövlətin ayrıca qanunları var,
bütün qanunlardan o, üstün durar.
Dövlət təhlükədə olduğu zaman,
gərək o keçəydi öz həyatından.
Mən ona əmr etdim, o başqasına,
qoy indi oğlunun gəlsin yasına.
Görsün ki, nədir o, yalan danışmaq,
gərək dərk edəydi bunları Qarpaq.

(Gedir)

Aşpaz

(pərişan halda daxil olur)

Gecə yatmamışam, yuxusuzam mən,
amma bu barədə gərək susam mən.
Saray xəbərsizdi...
Biçarə Qarpaq,
oğlunu bu gecə şaqqalatdı şah.
Göstəriş verdi ki, onun ətindən,
xörək hazırlayım Qarpağa hökmən.
Oğlunun ətindən yesin qoy ata,
əlimi kəsmişəm ət doğrayanda.
Göz yaşım axıbdı duz əvəzinə,
şah ziyafət verir öz nəvəsinə.
O xörək bişdikcə bişdim mən özüm,
qovruldum içimdə... of, necə dözüm.
Xoşbəxtlik gələndə ləngiyir hökmən,
bədbəxtlik gələndə gəlir qəfildən.
Bir addım o yanda xoşbəxtdi Qarpaq,
bir addım bu yanda bədbəxt olacaq.

Qarpaq

(daxil olur)

Aşpaz, bambaşqadı bugünkü, ülfət,
Kirin şərəfinə bizə ziyafət?!
Tükdən asılıdı insan həyatda,
bəzən bir təsadüf çatır imdada.
Çoban öldürsəydi o vaxt uşağı,
qalmışdıq ölkədə başıaşağı,

(kənara)

Uşağa dəymədim özüm doğrudan,
Astiyaq qocadı, Mandana cavan.
Qorxdum ki, şah ölər, Mandana qalar,
Kirin qisasını o məndən alar.
Verdim baş çobana...
Onun əliylə,
dedim ki, baş tutsun gərək bu hiylə.
İndi gör... nə yaxşı rahatam, Allah!
Yoxsa... rəhmsizdi böyük Astiyaq!

Aşpaz

Xüsusi tapşırıb mənə hökmdar,
gərək razı qalsın gələn qonaqlar.

Qarpaq

Düzü, bərk acmışam... mənə qulaq as,
gərək şərab içib keflənəm, bir az!
Şahın şərəfinə yüz söz deyək biz,
sözlə bəyan olur sədaqətimiz.

Aşpaz

(ikimənalı)

Əlimi kəsmişəm ət doğrayanda.

Qarpaq

Gətir, əllərini mən öpüm onda.

(öpmək istəyir)

Aşpaz

Yox, yox...
Mən dözürəm, mən ürəyi daş,
əllərim biləkdən kəsiləydi kaş.

Qarpaq

(sevincək)

Aşpaz, bu əllərlə mənə bir azdan,
xörək verəcəksən...

Aşpaz

Qarpaq...

Qarpaq

Yox, dayan.

(onun əllərini öpür)

Mən də bilirsənmi, aşpaz, bir axşam
ağır bəlalardan xilas olmuşam.
Ən böyük bayramdı bax bu ziyafət.

Aşpaz

(kənara)

Ən böyük matəmdi.

Qarpaq

Ən böyük hörmət!
Ən böyük hörmət də bu imiş demək.

Aşpaz

(kənara)

Ən böyük qəddarlıq!

Qarpaq

Ən böyük ürək!

(bir an ayılmış kimi)

Aşpaz, mən oğlumu soruşdum bayaq,
onu axtarırdım...

Aşpaz

(ikimənalı)

Görmədim, Qarpaq.

Qarpaq

Kiri əyləndirir, sarayda yəqin...

(Gedir)

Aşpaz

(onun arxasınca)

O ən bədbəxtidi biz bədbəxtlərin.

Nabat
Xalanın Çörəyi

...Bəzən anamın haqqında düşünürəm. Mənə elə gəlir dunyada bir yazıçı yaşayır – yaza bilmir. Dünyada bir qadın ziyalımız var – kürsülər onu tanımır. Ən böyük məclisləri o öz söhbətləri ilə əsir eləyə bilər. Amma özü savadsızlığın əsiri olub qalıbdı. Hamı mənim anamı Nabat xala kimi tanıyır. Hamı elə bilir, o yalnız yaxşı çörək bişirir...

Ədəbiyyat və incəsənət

8 aprel, 1972, №15

JURNALLARIMIZI VƏRƏQLƏYƏRKƏN

ANA ÜRƏYİ, ANA ÇÖRƏYİ

Böyük ədib M.S.Ordubadi demişdir ki, hər insan ömrü yazılmamış bir romandır. Onu necə yazmaq isə yazıçının qələmindən asılıdır. Bu da təbiidir ki, yazıçılar çox zaman yaradıcılığının və yaşının müəyyən pilləsində ömrünün bənövşə çağlarına qayıdır, məsum uşaqlığın büllur göz yaşlarından, dağ çayı kimi coşğun qəhqəhəsindən şirin, təmiz nəğmələr arayır.

Nəriman Həsənzadənin lirik şerləri, xüsusən uşaqlıq və tələbəlik illəri ilə bağlı nəğmələri oxuculara yaxşı tanışdır. Lakin onun nəsr əsərini ilk dəfədir ki, oxuyuruq: "Nabat xalanın çörəyi" ("Azərbaycan" jurnalı, 1970, N10; 1971, N9). Nəğmələrdəki xatirələrlə povestdəki hadisələr arasında bir doğmalıq vardır. Şerlərindəki poetik hiss və duyğular onun nəsrinə də hopmuşdur.

Kürün sahilində Poylu qəsəbəsində dəmiryolçu Almәhəmməd kişi dünyadan köçəndə "budkasında" özündən çox-çox cavan arvadı Nabat, körpə balası Qiyam, bir də əldən-ələ keçə-keçə gəlib Qiyama çatan bir məktubun yarısı qalmışdır. 62 il ömür sürmüş bu qocaman fəhlənin haqqında nə Nabat xala danışır, nə də Qiyam.



Mingəçevir Dövlət Teatrı. "Nabat xalanın çörəyi" əsərindən səhnələr. Səhnələşdirəni və tamaşaya qoyanı, Baş rejissor Zülfüqar Abbasov (1989).

Yarımçıq məktubdan natamam bir romanın qığılcımlarını görürük. Bu romanın bizə yadigar qalan sonrakı fəsilləri ana və bala - Nabat xala və Qiyamın həyat yolu oldu.

Qiyamın doğma anasından başqa kimsəsi yoxdur (ögey bacısı da hələlik yadlaşıbdır). Atası kimi bu romantik təbiətli uşağın fikrində dumanlı arzular dolansa da, hələlik o, bunlardan çox-çox uzaqdır. Qiyam üçün həyat atadan qalma daxma, isti ana qoynu və isti ana çörəyindən ibarətdir.

Təbiidir ki, Qiyam anası Nabat xalanın meşədən gətirdiyi odun şələsinin odunda isinir, axşamdan xamra qoyub sarı ulduz doğanda saç asıb bişirdiyi çörəklə böyüyür. Lakin Qiyamın mənəvi ehtiyacına və zehni inkişafına qida verən, onu hikmət və fikir aləmində böyüdən şərait daha təbii və bədii ifadə olunmuşdur. Şair maddi ehtiyacla mənəvi ehtiyaca bir bədənin iki üzvü kimi baxmışdır. Elə buna görə də əsərdə hər bir bölmə iki hissədən ibarətdir. Əgər birincidə biz Qiyamın həyatından bir epizodla tanış oluruqsa, ikincidə bu epizodla müvafiq "sözə qüvvət" adı ilə bizi hikmət dünyasına aparan "yeni bir əsərlə" qarşılaşırıq. Bu hikmətamiz hekayətlərin bir qismi Nabat xalanın sinəsindən qopub gəlmiş, bir qismi isə Qiyamın görüb şahidi olduğu hadisələrdir. Demək, Qiyam yalnız məktəbdə müəllimindən aldığı təhsillə deyil, anasından, dünyagörmüş atalardan, ağsaçlı analardan aldığı "dərslər" ilə böyüyür, inkişaf edir. Müəllif içərisində böyüdüyü, pərvazlandığı şəraitə müvafiq hadisələri seçib bizə göstərir, ibrət almağa çağırır.

"Nabat xalanın çörəyi" povestinin özünü də əslində iki hissəyə bölmək olar. Birinci hissə Kürün qırağına yaxın Poylu kəndində balaca bir evdə ana və balanın — Nabat xala ilə kiçik Qiyamın həyat yolunu əks etdirir. Bu kövrək həyat yolunun şirini az, acısı çox, fərəhi az, kədəri çox, büsatı az, sükutu çoxdur. Bütün bunlardan da daha çoxu insanı sarsıdan ana hekayələri-ərləri cəbhədən qayıtmamış, vaxtsız saçı ağarmış Sultan, Qızbəs, Ballı, Məsmi, Fatmanisə xalaların kövrək

söhbətləri, nağıl və əfsanələrdir. Onların hər birinin həyat yolu da bir əfsanə, bir hekayədir. Bununla belə, biz onların baxışlarında, davarnışlarında, söhbətlərində həyata bağlılıq, öz müqəddəs mənliyini qoruyub saxlayan əsil ana simasını görürük. Onların küskünlüyü də, giley-güzarı da ərkyanadır.

Povestin ikincit hissəsində Qiyam H.B.Zərdabi adına Pedaqoji İnstitutun tələbəsidir. Burada Qiyam bacısı evində qalır. Yeni mühitə alışdıqca "yadlaşan" bacısı ilə doğmalaşır, bacısı evində yaşayan Fərəhə isnişdikcə Qiyamın qəlbinə ilıq duyğular axır, tələbə həyatı, Fərəhlə birlikdə hazırlaşmaq, tez-tez küsüb barışmaq... Qiyam gündə bir arpa dənəsi boyda böyüdükcə həyatı da, həyata münasibəti də təzələnir, arzuları böyüyür. İndi biz Qiyamın haqqında Fərəhin duyğularını, fikir və düşüncələrini dinləyirik. Daha çox Fərəh danışır. Bir vaxt Qiyama soyuqqanlı, etinasız münasibət bəsləyən Fərəh indi onsuz darıxır. Qiyam olmayanda, onun əyləşdiyi stulla danışır, hətta küsəndə falçının arxasınca yüyürüb falo açdırır, özü küsüb, özü barışmağa tələsir. Qiyam Fərəhin də həyatına fərəh gətirmişdir. Həyat Fərəh üçün də mənalıdır.

Baharın ilıq nəfəsindən pərvazlanan çiçəklər kimi Qiyam da, Fərəh də məhəbbətin hərarətindən isinib pərvazlanırlar. Xoşbəxtlikdən ortada qaratikan kolu yoxdur.

Lakin sabaha nikbin gözlə baxan bu qaynar gəncliyin poetik tərcümeyi-halı burada bitir. Biz isə onları yalnız institut tələbəsi kimi görmək istəməzdik. Bu olsa-olsa onların gəncliyinin ilk mərhələsidir. Axı, Nabat xalanın, Məmməd əminin zəhməti sayəsində Qiyam da, Fərəh də arzularına daha çox yaxınlaşmışlar. Axı, valideynlər övladlarını sənət sahibi, el-oba üçün yararlı, xeyirli bir insan kimi görmək istəyirlər. Hətta biz onların şəxsində gələcəyin odlu, alovlu, humanist vətənpərvər ziyalılarını görürük.

Ev sahibləri Məmməd əmi və Səriyyə bibi onların gündəlik qayğısına qalırlar, hətta Məmməd əmi maaş alanda hər ikisinə cib xərcliyi də verir. Onlara əsil ata kimi yanaşır. Biz bu

məsum yeniyetmələrin atasız böyüdüklərini duymuruq. Əsərdə Məmməd əminin və Səriyyənin həyatlarına az yer verilsə də nəvazişkarlıqları, insanpərvərlikləri xoş bir xatirə kimi fikrimizdə dolanır, özünə yer tapır.

Yay tətilində Qiyamla Fərəh Nabat xalanın yanında istirahət edirlər. Yenə də Nabat xalanın balaca evi, odun şələsi, isti çörəyi. Yenə Sultan, Qızbəs, Ballı, Məsmi, Fatmanisə xalaların güzəranı, sinə dolu zərb məsəlləri. Vaxtı ilə onlara ana-xala gözü ilə baxan Qiyam da indi onlara bir "yazıçı" kimi baxır. "Yazı yaza bilməyən yazıçı! Məncə, yazı yaza bilmək hələ yazıçılıq deyil. Ağıldan, şüurdan, qələmdən qabaq ürək lazımdır, ürək! Mənim anamın ürəyi var. Onun uşaqlığı, qızlığı, gəlinliyi qabaqkı zamanlara düşüb. Oxuya bilməyib. İndi yadnız danışa-danışa qalıb... Mənə elə gəlir ki, dünyada bir yazıçı yaşayır. Yaza bilmir. Hamı elə bilir. O yalnız yaxşı çörək bişirir, selponun otaqlarını süpürür, bir də odun şələsi gətirə bilir..."

Nabat xalanın hələ heç kimsəyə, hətta doğma oğluna da açmadığı bir qəlb evi var. Nağıllarda buna "qırxıncı otaq" deyirlər. O, bu qapını gələcəyinə gəlini gözü ilə baxdığı Fərəhin üzünə açır. Fərəh ananın qəlbinə də Fərəh gətirir. İndi ananın kövrək qəlbinə işıq qığılcımları düşür. Bu böyük ürəkli ana indi ölümün gözünə də məğrur və nikbin baxır.

Lakin bu böyük qəlbli, həyata nikbin və ümidlə baxan ananın ölüm haqqında və cənazəsinin yerdən qaldırması barədə düşüncələri bizi inandırmır. Zaman sərt üzünü ona erkən göstərsə də, əsil həyat hələ qabaqdadır.

"Nabat xalanın çörəyi" üslub etibarilə daha çox mənsur şerə bənzəyir. Sözə qənaət edən müəllif uzun təsvirçiliyə, artıq təfərrüata yer verməmişdir. Povestdə şairanə hisslər, həyatın özündən gələn təbii hadisələr və "sözə qüvvət" adı ilə ümumiləşdirilmiş zərb-məsəllər zəncir kimi bir-birinə bağlıdır.

Qara NAMAZOV,
filologiya elmlər namizədi, dosent

Kimin sualı var?

Mənim sualım var, —
bu torpaq, bu yer,
indi, professor, cavab istəyir.
Oğluna, qızına cavab ver, cavab,
özündən-özünə cavab ver, cavab.
Səndən hər tanıyan cavab istəyir...
Səndən Azərbaycan cavab istəyir.

Azərbaycan müəllimi

10 dekabr, 1986-cı il

TELEVİZİYA TAMAŞASI

"KİMİN SUALI VAR?"

Arzular, təkliflər və rəylər

Görkəmli rejissor E.Meyerxold yazmışdır: "Bir keyfiyyət — cəsarət üç şəxsdə olmalıdır: generalda, yazıçıda və rejissorda!" Cəsarətli olmaq isə sənətdə tapdanmamış cığırla getmək, həyatımızın ən vacib və zəruri məsələlərilə səsləşən əsərlər yazmaq, səhnəni həyatın aktual problemlərinin müzakirə meydanına çevirmək deməkdir.

Bir həqiqəti də demək istərdim ki, bizim günlərin teatrı - müzakirə teatrıdır. Buna görə də teatrlarımızda, televiziyada da köhnəlmiş, vaxtı ötmüş pyeslərə yer olmamışdır. Sovet teatrı müasirliyə, sosial ədalət prinsiplərinin ehtiraslı sənət boyları ilə təbliğinə xidmət edir.

Biz televiziyada göstərilmiş şair dramaturq Nəriman Həsənzadənin "Kimin sualı var?" mənzum-pyesinin tamaşasına baxdıqda nəcib təbiətli insanların əxlaqi gözəlliyi və mənəvi üstünlüyünü görürük. Ədalətin professor atasının, həm də



Әзизимиз Нәриман муәллимә,
Ән хош арзуларла „Кимин суалы
вар" тамашасындан хатирә олараг.

Нормәтлә: Агкун - Сәнубәр Искәндәрова.
Илһам - Нурәддин Гулиев.

14 јанвар 1986-гы ил.

Нурәддин

özünün ədalətsizliyi üzündən Ağgün hər cür çətinliklərlə üzləşsə də, bu onun üçün dərs olur. O, indi həyatı daha dərindən dərk etməyə başlayır.

"Kimin sualı var?" əsərində hadisələr çox sürətlə inkişaf edir. Yoxsul kəndli qızı olduğu üçün şöhrət əsiri olan professor öz oğlu Ədaləti onunla evlənməyə qoymur. O, iki sevən ürəyi bir-birindən yad adamlar kimi uzaq salmaqdan ötrü, Ağgünü sevdiyi təhsil ocağından uzaqlaşdırıb bağçada işləməyə vadar edir. Ədalət atasının hökmü ilə sevdiyi bir qızla evlənir. İztirablara dözməyən Ağgün bir müddət doğma kəndlərində yaşamalı olur. Sonradan biz onu yenə də Bakıda təhsilini davam etdirən görürük.

Müəllif "Kimin sualı var?" əsərində göstərir ki, həyat asfalt prospekt deyil, onun bəzən dərə-təpə yolları da olur. Odur ki, hər bir gənc daxilən zəngin, iradəli olmalı, həyat yollarında cəsarətlə irəliləməlidir; şəxsiyyətini itirmiş hər cür mənəvi korlara ölməz Cəfər Cabbarlının təbirincə demiş olsçaq "varatnikli odun parçaları"na qarşı mübarizədən çəkinməməlidirlər.

Tamaşa bolyu aparıcı-artist Əlabbas Qədirovun bədii ahəngdarlıqla söylədiyi sözlər müəllif fikrinin leytmotivini təşkil edir. Aparıcı bütün tamaşa ərzində heç də hadisələrin şərhçisi rolunu oynamır. Əksinə, o, bizə sosial həqiqətlər, ziddiyyətlər haqqında, insan ləyaqətini şikəst edən, ləkələyən illüziyaların, maskaların gec-tez dağılacağından xəbər verir.

"Kimin sualı var?" tamaşasında poemada olduğu kimi, iştirakçısı az, lakin qəlbimizdə bədii həyəcan yaradan mənalı fikirlər çoxdur. Mən elə bilirəm ki, tamaşaçılarımız həmişə belə əsərlərin intizarındadır. Axı, teatr sənəti müasir dövrümüzdəki sosial ziddiyyətlərə biganə qala bilməz. Bu mənada Lütvi Məmmədbəyovun rejissorluğu ilə hazırlanmış "Kimin sua-

lı var?" pyesi qüvvətli təsir gücünə və idrak əhəmiyyətinə malik bir tamaşa kimi sənətsevərləri sevindirdi.

Yeri gəlmişkən deyim ki, L.Məmmədbəyov bundan əvvəllərdə bizim televiziya teatrımız üçün maraqlı tamaşalar hazırlamışdır. Bu sahədə o, artıq zəngin təcrübəyə malikdir. Məhz buna görə də, onun yeni hazırladığı tamaşa təsirli aktyor oyunu və səriştəli rejissor işi ilə diqqəti cəlb edir. Bir də ona görə sevindirir ki, "Kimin sualı var?" mənzum tamaşası L.Məmmədbəyovun "özününküdür", oxucular arasında məşhur olan bu poemaya səhnə həyatı verən o, özüdür. Onun tamaşada ansambl yarada bilməsi, poemadakı əxlaqi-psixoloji fikirləri real boyalarla əks etdirmək qabiliyyəti açıq-aydın özünü göstərir.

"Kimin sualı var?" tamaşası, sözün həqiqi mənasında, müzakirə tamaşasıdır. Rejissor da, müəlliflə birlikdə tamaşaçılara demək istəyir ki, baxın gördüyünüz bu adamlara zəmanət verin, onların həyatı, müasir baxışları haqqında bir-birinizə sual verin - "Kimin sualı var?"...

L.Məmmədbəyov müəllifin poemada irəli sürdüyü ideyaya sadiq qalaraq, qəhrəmanları müsbət və mənfi kateqoriyalara bölməmişdir. Hər obraz öz üstün və zəif insani keyfiyyətləri ilə tamaşaçıları həyəcanlandırır və düşündürür. Bu baxımdan aktyorların oyunu çox maraqlı və cazibəlidir. Yaxşı bir cəhət də budur ki, ifaçılar müəllifin ehtiraslı dialoqlarını ritorikaya aludə olmadan, çox təbii və canlı danışıq tərzində səsləndirirlər. Onlar həm də yaratdıqları xarakterlərin ruhuna uyğun olaraq, hər kəsin öz təkliyinin, məğlubiyyətinin səbəblərini nümayiş etdirməyə səy göstərirlər. Bu sözlər Ağgün - Sənubər İsgəndrovaya, Ədalət - Ramiz Məlikova, İlham - Nurəddin Quliyeva və professor - Rafiq Əzimova xüsusilə aiddir.

Rejissora iradımız budur ki, tamaşada cərəyan edən gərgin əhval-ruhiyyəni soyutmamaq xatirinə aparıcının söylədiyi mətni daha lakonik vermək məqsədəuyğun olardı.

Tamaşa üçün seçilmiş məkanlar quruluşçu operator Fərman Nəbiyevin, geyim musiqi və mizanlar televiziyanın rejissoru Əmirhüseyn Məcidovun səmərəli axtarışlarının nəticəsidir.

Nəticə etibarilə demək istərdim ki, televiziya tamaşası milyonların teatrıdır. İndi bizim bütün sənət sahələrimizdə olduğu kimi, televiziyada göstərilən səhnə əsərləri də həyat mündəricəsi, ictimai mahiyyəti, orijinallığı və aktual həyat problemlərinə cəsarətlə müdaxilə etməsilə fərqlənməlidir. Bu işdə televiziyamızın zəhmətsevər əməkdaşlarına, o cümlədən, səhnə ustalarımıza, daramaturqlarımıza da keçilməmiş yollar və yaradıcılıq uğurları diləyirik.

Cabir SƏFƏROV,
teatrşünas

KİTABIN İÇİNDƏKİLƏR

İ.Həbibbəyli. Müasirlik işığında bədii yanaşma 7
“Bütün Şərq bilsin” 21
“Atabəylər” 33
“Pompeyin Qafqaza yürüşü” 185
“Midiya sarayı” 315
“Nabat xalanın çörəyi” 339
“Kimin sualı var” 346

Nəşriyyat redaktorları:
Gülzar İbrahimqızı,
Ramin Qurban

Kompyuter tərtibatçısı:
Aliyə Qabilqızı

Kompyuter yığımı:
Rəvanə İlmanqızı

Yazılmağa verilmişdir: 18.X1.2010
Çapa imzalanmışdır: 10.03.2011
Kağız formatı: 60x90 1/16
Həcmi: 22,25 ç.v.
Tirajı: 500

Kitab “Prometey” jurnalının
redaksiyasında yığılıb-səhifələnmiş,
“CBS” mətbəəsində hazır diapozitivlərdən
çap edilmişdir